**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “ERMƏNISTAN-AZƏRBAYCAN-DAĞLIQ QARABAQ MÜNAQIŞƏSININ ÖLKƏNİN ƏMƏK BAZARINA TƏSIRININ QIYMƏTLƏNDIRILMƏSI”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Hüseynzadə Ağahüseyn İbrahim oğlu**

**BAKI – 2021**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**_________________________ imza**

**"____" _______________ 20__-ci il**

# ''ERMƏNISTAN-AZƏRBAYCAN-DAĞLIQ QARABAQ MÜNAQIŞƏSININ ÖLKƏNIN ƏMƏK BAZARINA TƏSIRININ QIYMƏTLƏNDIRILMƏSI''

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı: 060404 İqtisadiyyat**

**İxtisaslaşma: Əməyin iqtisadiyyatı**

**Qrup: 94**


**Magistrant**
**Hüseynzadə Ağahüseyn İbrahim oğlu**

**_____________ imza**

**Elmi rəhbər**
**i.ü.f.d., dos. Mikayılov Fərhad Qamboy oğlu**

**______________imza**

**Proqram rəhbəri**
**i.ü.f.d., dos. Hümbətova Suqra İnqilab qızı**

**________________ imza**

**Kafedra müdiri**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**

**_____________imza**


**BAKI – 2021**

## Elm andı

Mən, Hüseynzadə Ağahüseyn İbrahim oğlu and içirəm ki, “Ermənistan-Azərbaycan-Dağlıq Qarabaq münaqişəsinin ölkənin əmək bazarına təsirinin qiymətləndirilməsi” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

# ERMƏNISTAN-AZƏRBAYCAN-DAĞLIQ QARABAQ MÜNAQIŞƏSININ ÖLKƏNIN ƏMƏK BAZARINA TƏSIRININ QIYMƏTLƏNDIRILMƏSI


## XÜLASƏ

**Tətqiqatın aktuallığı: Bu günkü dövrdə əmək bazarına təsir edən bir çox səbəblər vardır. Onlardan biridə ölkələr arasında baş verən müharibələrdir. Bu müharibələr insanların öz dədə-baba torpaqlarından didərgin olmasına, qaçqın-məcburi köçkün halına düşməsinə, insan tələfatına, iqtisadiyyatın zəifləməsinə, zəifləmə nəticəsində iş yerlərinin bağlanmasına, məşğul və iqtisadi fəal əhalinin məcburi şəkildə yenidən ixtisaslaşmasına və işsizliyin artmasına səbəb olur. Tətqiqat işində 1990 cı illərdə Dağlıq Qarabağın Ermənistan ordusu tərəfindən işğal olunması nəticəsində Azərbaycanda baş verən sosial iqtisadi və əmək bazarında baş vermiş dəyişikliklər tədqiq edilmişdir.**

**Tətqiqatın məqsədi: Dissertasiya işinin əsas məqsədi müharibədən əvvəl, müharibənin aktiv dövrü və münaqişənin başa çatdıqdan sonrakı (qayıdış) dövründə əmək bazarında baş verən və baş verə biləcək dəyişiklərin öyrənilməsidir.**

**İstifadə olunmuş tədqiqat metodları:Tətqiqatın aparılması üçün ilk öncə bir çox ədəbiyyatlar araşdırmaların aparılması üçün müşahidələr aparılmış, statistik məlumatlar statistika metodu ilə əldə edilmiş və sonda əldə olunmuş məlumatlar analiz- sintez edilərək bütövlükdə ümumi bir tətqiqat işinə çevrilmişdir.**

**Tədqiqatın informasiya bazası:Dissertasiya işinin əsas informasiya bazası yerli, xarici ədəbiyyatlar, saytlardır.**

**Tədqiqatın məhdudiyyətləri: Tətqiqat işində 1980 – 1990 cı illərdə Dağlıq Qarabağın işğaı nəticəsində ölkənin əmək potensialına dəymiş ziyanlar öyrənilmişdir.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: İşğaldan azad olunmuş ərazilərdə əmək bazarının formalaşmasına dair nəzəri metedoloji aspektlər tətqiq edilərək təsnifləşdirilmiş, regionun xarakterik xüsusiyyətlərinə görə əmək bazarında yarana biləcək problemlər ümumiləşdirilmiş və həlli yolları verilmişdir.**

**Nəticələrin istifadə oluna biləcək sahələr: Tətqiqat işinin nəticələrindən gələcəkdə Qarabağa qayıdış planında, orada iqtisadi potensialın artırılması planında, həmçinin əmək bazarının aktivliyini artırmaq üçün dövlət tərəfindən müəyyən zamanlarda istifadə oluna bilər.**



***Açar sözlər: əmək bazarı, məşğulluq, münaqişə və müharibə***

## ASSESSMENT OF THE IMPACT OF THE ARMENIAN-AZERBAIJANI-NAGORNO-KARABAKH CONFLICT ON THE COUNTRY'S LABOR MARKET


### SUMMARY

**The actuality of the subject: There are many reasons that affect the labor market today. One of them is the wars between the countries. These wars lead to the expulsion of people from their ancestral lands, the displacement of people, the loss of lives, the weakening of the economy, the closure of jobs as a result of the weakening, the forced respecialization of the employed and economically active population and rising unemployment. The study examines the changes in the socio-economic and labor markets in Azerbaijan as a result of the occupation of Nagorno-Karabakh by the Armenian army in the 1990s.**

**Purpose and tasks of the research: The main purpose of the dissertation is to study the changes that have taken place and may occur in the labor market before the war, during the active period of the war and after the end of the conflict (return).**

**Used research methods: In order to conduct the research, first of all, many references were made for the research, statistical data were obtained by the statistical method, and finally the obtained data were analyzed and synthesized and turned into a general research work.**

**The information base of the research: The main information base of the dissertation is local, foreign literature, sites.**

**Restrictions of research: The study examines the damage caused to the country's labor potential as a result of the occupation of Nagorno-Karabakh in 1980-1990.**

**The novelty and practical results of investigation: Theoretical and methodological aspects of the formation of the labor market in the liberated territories were studied and classified, the problems that may arise in the labor market due to the characteristics of the region are generalized and solutions are given.**

**Scientific-practical significance of results: The results of the research can be used by the state in the future return to Karabakh, in the plan to increase economic potential there, as well as at certain times to increase the activity of the labor market.**



***Keywords: labor market, employment, conflict and war***

## İXTİSARLAR VƏ İŞARƏLƏR:

| | |
|---|---|
| **AR** | Azərbaycan Respublikası |
| **BMT** | Birləşmiş Millətlər Təşkilatı |
| **QHT** | Qeyri Hökümət Təşkilatları |
| **ETT** | Elmi Texniki Tərəqqi |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **BƏT** | Beynəlxalq Əmək Təşkilatı |

MÜNDƏRİCAT


GIRIŞ.......................................................................................8

I FƏSİL. HƏRBI MÜNAQIŞƏLƏRIN ÖLKƏNIN ƏMƏK BAZARINA TƏSIRLƏRININ QIYMƏTLƏNDIRILMƏSININ NƏZƏR METEDOLOJI ASPEKTLƏRI.......................................................11

1.1. Münaqişələr və əməkbazarı.......................................................11

1.2. Münaqişələrin əmək bazarına təsirlərinin qiymətləndirilməsinin metodoloji əsasları.......................................................19

1.3. Hərbi münaqişələrin əmək bazarına təsirlərinə dair xarici ölkə təcrübələrinin öyrənilməsi.......................................................27

II FƏSİL. ERMƏNISTAN AZƏRBAYCAN MÜHARIBƏSININ AZƏRBAYCAN ƏMƏK BAZARINA TƏSIRLƏRININ QIYMƏTLƏNDIRILMƏSI.......................................................36

2.1. Hərbi münaqişənin ölkənin sosial iqtisadi inkişafına və məşğulluğuna təsirlərinin qiymətləndirilməsi.......................................................36

2.2. İşğal olunmuş bölgələrdə əmək bazarının strukturunun və ixtisaslaşma səviyyəsinin öyrənilməsi.......................................................49

2.3. İşğal nəticəsində qaçqın və məcburi köçkünlərin yerləşdirildiyi ərazilərdə əmək bazarının strukturunda baş vermişdəyişikliklərin öyrənilməsi.......................................................58

2.4. İşğaldan azad edilmiş rayonlara qaydış zamanı əmək bazarında və məşğulluqda baş vermiş dəyişiklərin öyrənilməsi.......................................................66

III FƏSİL. HƏRBI MÜNAQIŞƏNIN ƏMƏK BAZARINA MƏNFI TƏSIRLƏRININ ARADAN QALDIRILMASINA DAIR PRESPEKTIV TƏDBIRLƏR.......................................................70

3.1. Hərbi münaqişənin ölkənin sosial iqtisadi inkişafına və məşğulluğa mənfi təsirlərin azaldılması yollarının müəyyənləşdir.......................................................70

3.2. Işğal nəticəsində qaçqın və məcburi köçkünlərin yerləşdirildiyi ərazilərdə məşğulluğun artırılması yollarının müəyyənləşdirilməsi...76

3.3. İşğaldan azad edilmiş rayonlara qaydış zamanı əmək bazarında və məşğulluqda baş vermiş dəyişiklərin həlli yolların dair prespektiv istiqamətlər.......................................................85

NƏTICƏ və TƏKLİFLƏR.......................................................89

İSTIFADƏ OLUNMUŞ ƏDƏBIYYAT SIYAHISI.......................................................91

Cədvəllərin siyahısı.......................................................94

# GIRIŞ

**Mövzunun aktuallığı:** Bu günkü dövrdə əmək bazarına təsir edən bir çox səbəblər vardır. Onlardan biridə ölkələr arasında baş verən müharibələrdir. Bu müharibələr insanların öz dədə-baba torpaqlarından didərgin olmasına, qaçqın-məcburi köçkün halına düşməsinə, insan tələfatına, iqtisadiyyatın zəifləməsinə, zəifləmə nəticəsində iş yerlərinin bağlanmasına, məşğul və iqtisadi fəal əhalinin məcburi şəkildə yenidən ixtisaslaşmasına  və işsizliyin artmasına səbəb olur.

Azərbaycan torpağlarının təbii sərvətlərlə zəngin olması ölkəmiz üçün daim problemə çevrilmişdir və Ermənistanın təcavüzünə məruz qalmışdır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində 1 milyondan artıq azərbaycanlı məcburi köçkün vəziyyətinə düşüb, 20 min nəfər hərbi əməliyyatlar dövründə həlak olub, 50 min nəfər əlil olub. Münaqişə nəticəsində 4 minə yaxın azərbaycanlı itkin düşüb, onların arasında 67 uşaq, 265 qadın, 326 qoca olub. Bu şəxslərin aqibəti barədə hələ də məlumat yoxdur. İki mindən çox azərbaycanlı ermənilər tərəfindən əsir və girov götürülüb.

Bütün bunlar ölkə iqtisadiyyatının digər sahələrinə olduğu kimi, əmək bazarının formalaşması və məşğulluğun təmin edilməsinə də öz mənfi təsirini göstərmişdir.

30 ilə yaxın erməni tapdağında olan Azərbaycanın qədim və tarixi torpaqları nəhayət 2020 ci ilin sentyabr- noyabr aylarında baş tutan müharibədən sonra geri qaytarılmışdır. Müharibədən sonra dövlətin qarşısında duran bir neçə prioritet vəzifələr vardır buraya aşağıdakıları aid edə bilərik.

İşğaldan azad olunmuş rayonlara qaçqın və məcburi köçkünlərin qayıdış prosesini həyata keçirmək

Müharibə zamanı şəhid olmuş əsgərlərin ailələrinə diqqət və yardımların göstərilməsi

Müharibə zamanı sağlamlığını itirmiş şəxslərin müalicəsini həyata keçirtmək. Bunun üçün dövlət tərəfindən ayrıca olaraq “Yaşat Fondu” yaradılmışdır

Müharibə zamanı şəhid olmuş əsgərlərin və sağlamlığını itirmiş şəxslərin ailəvi və sosial problemlərinin həll olunması

Tətqiqatın aparılmasının əsas aktuallığının əsas məğzini məhz yuxarıda göstərdiklərimiz özündə ehtiva edir. Dissertasiya işinin yazılması, tərtib olunması müəyyən zaman daxilində həyata keçirilmişdir. Tətqiqat prosesi davam etdiyi dövrdə ortaya çıxan hər bir yeiliklər mövzuya daxil olunmuşdur. Bütün bu qeyd edinlənlər mövzunun aktuallığını şərtləndirən əsas amillərdəndir.

**Problemin qoyuluşu və öyrənilmə vəziyyəti:** Problemin öyrənilmə vəziyyəti özündə aşağıdakı kriteriyaları cəmləşdirir.

- İşğala məruz qalmış xarici ölkə təcrübələrinə nəzər yetirilmiş, həlli yolları tətqiqat işində göstərilmişdir.
- İşğaldan öncə Azərbaycanda iqtisadi fazanın və məşğulluq bazarının durumu.
- İşğal zamanı respublikada baş verən dəyişikliklər.
- İşğaldan sonra doğma yudlarından didərgin salınmış qaçqın və məcburi köçkünlərin yerləşmə səviyyəsi, əmək bazarında payı araşdırılıraq ,öyrənilmişdir.

**Tətqiqatın məqsəd və vəzifələri:** Dissertasiya işinin əsas məqsədi müharibədən əvvəl, müharibənin aktiv dövrü və münaqişənin başa çatdıqdan sonrakı (qayıdış) dövrünə uyğun olaraq əmək bazarında və məşğulluqda baş verə bilən və baş verə biləcək problemlər öyrənilməklə ölkənin iqtisadiyyatına və əmək bazarına təsirlərini təhlil etmək, onun təsirlərinin aradan qaldırılması yollarına dair əsaslandırılmış təklif və tövsiyyələrin hazırlanmasından ibarətdir.

**Tədqiqatın obyekti və predmeti:** 1980 cı illərdə Ermənistanın Dağlıq qarabağı işğal etməsi Azərbaycanın həm iqtisadi, həm sosial cəhətdən ağır zərbələr endirmişdir. Bunlarla yanaşı ölkənin məşğulluq bazarında gərginlik əmsalı kəskin şəkildə yüksəlmişdir. Tətqiqatın əsas tətqiqat obyeki həmin illərdəki ölkənin məşğulluq bazarı olmuşdur.

Dissertasiya işinin əsas predmeti işğaldan öncə, işğalın aktiv fazasında və torpaqların işğaldan azad olunmasından sonra ölkədə əmək bazarının, iqtisadi fazanın doğru yönləndirilməsinə dair dövlət siyasətini özündə ehtiva edir.

**Tətqiqat metodları:** Tətqiqatın aparılması müəyyən zaman çərçivəsində həyata keçirilmişdir. Tətqiqatın nəzəri və metedoloji əsaslarını yerli, xarici ədəbiyyatlar, ölkə başçısın sərəncamları, dövlət orqanlarının rəsmi saytları təşkil

edir. Bundan başqa dissertasiya işininin aparılması üçün bir neçə metoddan mərhələli şəkildə istifadə olunmuşdur. Bunun üçün ilk öncə bir çox ədəbiyyatlar araşdırmaların aparılması üçün müşahidələr aparılmış, statistik məlumatlar statistika metodu ilə əldə edilmiş və sonda əldə olunmuş məlumatlar analiz- sintez edilərək bütövlükdə ümumi bir tətqiqat işinə çevrilmişdir.

**Tətqiqatın informasiya bazası:** Dissertasiya işinin əsas informasiya bazası yerli, xarici ədəbiyyatlar, saytlardır. Bunlardan başqa dövlətin rəsmi statistika komitəsinin saytından, qaçqın və məcburi köçkünlərin işləri üzrə dövlət komitəsinin saytından, yerli, xarici məqalələrdən tətqiqat prosesi zamanı istifadə olunmuşdur.

**Tədqiqatın məhdudiyyətləri:** 1980 cı illərdə Ermənistanın Dağlıq qarabağı işğal etməsi Azərbaycana həm iqtisadi, həm sosial zərbələr endirilmişdir. Tətqiqat işində 1980 – 1990 cı illərdə Dağlıq Qarabağın işğaı nəticəsində ölkənin əmək potensialına dəymiş ziyanlar öyrənilmişdir. Bunlarla yanaşı işğaldan əvvəl, həm işğalın aktiv fazasında, həmdə işğaldan sonrakı dövrlərdə ölkə əhalisinin sosial iqtisadi vəziyyəti öyrənilərək tətqiqat işində göstərilmişdir.

**Tədqiqatın elmi yeniliyi:** Dissertasiya işinin elmi yeniliklərinə aşağıdakılar aiddir.

- İşğaldan azad olunmuş ərazilərdə əmək bazarının formalaşmasına dair nəzəri metedoloji aspektlər tətqiq edilərək təsnifləşdirilmişdir.

- Regionun xarakterik xüsusiyyətlərinə görə əmək bazarında yarana biləcək problemlər ümumiləşdirilmiş və həlli yolları verilmişdir.

-Qayıdış zamanı əmək bazarında yarana biləcək problemlər müəllif tərəfindən tərtib olunmuş, sosioloji sorğular əsasında qiymətləndirilmişdir.

-Qayıdış zamanı ixtisaslaşmada baş verə biləcək problemlər ümumiləşdirilmiş və həlli yolları göstərilmişdir.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Tətqiqat məhsulunun nəticiələrindən gələcəkdə Qarabağa qayıdış planında, orada iqtisadi potensialın artırılması planında, həmçinin əmək bazarının aktivliyini artırmaq üçün dövlət tərəfindən müəyyən zamanlarda istifadə oluna bilər.

# I FƏSİL. HƏRBİ MÜNAQİŞƏLƏRİN ÖLKƏNİN ƏMƏK BAZARINA TƏSİRLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİNİN NƏZƏRİ METODOLOJİ ƏSASLARI

## 1.1. Münaqişələr və əmək bazarı

Müasir dövrdə əmək bazarının başlıca özəlliyi ondan ibarətdir ki, tam məşqulluğa zəmanət vermək qeyri mümkündür. Əmək bazarının obyekti haqqında nəzəriyyəçilərin fikirləri müxtəlifdir. Əmək bazarı nəzəriyyələrinin əsasını Klassiklər qoymuşlar. Klassik nəzəriyyənin banisi A. Smit və D. Rikardodur. Onları digərlərindən fərqləndirən əsas cəhət əməyin iqtisadiyyatını öz araşdırmalarının mərkəzi olaraq qeyd etmişdirlər. Onların əmək bazarında tələb və təklifin tarazlaşdırılmalı olması haqda fikirləri olmuşdur. Ondan əlavə onlar söyləyirdilər ki, əmək bazarında azad rəqabət mövcuddur və dövlətin müdaxiləsi gərəksizdir. Neoklassiklərin fikirləri demək olarkı klassiklərlə eyni düşüncələri paylaşırlar. Neoklassiklərin banisi P. Samuelson olmuşdur. Müasir klassiklərə görə əmək bazarı işçi qüvvəsinin qiyməti əsasında tarazlanır.

Klassiklər düşünürlər ki, əmək bazarının əsas obyekti əməkdir. Bu bazarda alqı-satqı məhz əmək üzərində aparılır. K. Marks da ilk illərdə bu cür düşünürdü. Ancaq K. Marks apardığı tədqiqat araşdərmalar nəticəsində elə qənaətə gəlir ki, əmək bazarının obyekti əmək yox, iş qüvvəsidir. Həmçinin o bunu xüsusiəmtəə növü olaraq qiymətləndirirdi. O bunu onunla əsaslandırırdı ki, hər hansı əmtəə satın alınarkən alıcı onun pulunu ödəyir və müstəqil mülkiyyətçisinə çevrilir. Ancaq iş qüvvəsi alqı-satqı zamanı belə mülkiyyətçinin mülkiyyətini tərk etmir. Bu səbəbdən tədqiqatçılardan bəziləri iş qüvvəsi satılmır müəyyən razılıqla icarəyə verilir. Digər tədqiqatçılara görə isə, satılan iş qüvvəsi deyil və iş qüvvəsinin hüquqi istifadəsi satılır.

Digər nəzəriyyəçilərdən biridə Keynsçilərdir. Bu nəzəriyyənin əsasını C. M. Keyns olmuşdur. Onların düşüncələri klassik və neoklassiklərlə ziddiyyət təşkil edir. Klassiklərdən fərqli olaraq keynsçilər əmək bazarında tarazlığı qiymətlə

əlaqələndirmir əkisinə təsadüfi hal oldğunu hesab edirdilər. Keynsçilərə görə dövlətsiz əmək bazarı düşünmək belə mümkün deyildir. Əsas səbəbi kimi investisiya yatırımlarını, sosial fəaliyyətin həyata keçirilməsi məhz dövlətin üzərinə düşən bir yükdür. İnvestisiya hesabına iş yerləri açılacaq, işçi qüvvəsinə tələb artacaq və işsizliyin miqdarı getdikcə azalacaqdır. Keynsçilərin düşüncəlıri uzun müddət güclü dövlətlərin əmək bazarının tənzimlənməsində istifadə olunmuşdu.

Əmək bazarında digər nəzəri baxışlar Monetaristlərin adı ilə bağlıdır. Bu nəzəriyyənin əsası F. M. Devidin adı ilə bağlıdır. Bu nəzəriyyə 20- ci əsrin 70- ci illərinə aiddir. Monetaristlər keynsçilərin fikirlərinin tam əksini düşünürlər. Onlara görə dövlətin müdaxiləsinin qarşısını tam almaq gərəkdir və maliyyə durumu zəif olan ailələrə vergi güzəştlərinin edilməsini, bu yolla həmin ailələrin problemlərinin həll olunmasının vacib olduğunu düşünüdülər. Həmçinin həmkərlar ittifaqının fəaliyyətini gərəksiz olduğunu söyləyirdilər.

Daxili əmək bazarı nəzəriyyəsi 19- cu əsrdə meydana çıxmışdır. Bu nəzəriyyənin əsas fikri təhsilin əmək bazarına nə dərəcədətəsir etməsi ilə bağlıdır. Onlara görə məhz təhsil sayəsində ölkədə rəqabətə davamlı əmək bazarı yaratmaq mümkündür. Onlara görə gənclərin işsiz qalmasının əsas səbəbi savadsızlıqdır.

Ümumilikdə götürdükdə əmək bazarı irrasionaldır. Tədqiqatçıların fikirləri müxtəlifdir və hər biridə əmək bazarını müxtəlif cür adlandırmışdırlar. Məsələn bir qrup tədqiqatçılar bunu iş qüvvəsi bazarı adlandırmışlar. Digər bir qrup tədqiqatçılar isə, əmək ehtiyyatları adını verərək bele dəyərləndirmişlər. Bu adlandırılmalara baxmayaraq müasir dövrdə bu bazarı "Əmək bazar"-ı adlandırırlar.

F. Q. Musayeva. Bakı Dövlət Univeristeti. Məşğulluq probleminin tətqiqinin Nəzəri- Metodoloji Aspektləri.

Əmək bazarını digər bazarlardan fərqləndirən əsas spesifik xüsusiyyətlər aşağıdakılardır.

1) Xüsusi bir növ əmtəə olan əmək alqı- satqı prosesində öz sahibindən ayrılmazdır.

2) Əmək bazarının instutları və strukturları başqa bazarlardan həm xarakterinə görə həm də sayına görə fərqlənir. Buraya həmkarlar ittifaqı, əmək haqqı instutları, məşğulluq qurumları və s. aid edilir.

3) Hər bir işçi fərdi xüsusiyyətlərə malikdir. Bu səbəbdən də alqı- satqı prosesi fərdi xüsusiyyət daşıyır (http://unec.edu.az/application/uploads/2018/11/M-mm-dova-Turan-ahin.pdf (səh 7)

Əmək bazarının subyektləri aşağıdakılardır.

1) İşə götürənlər

2) Dövlət strukturları

3) Köməkçi strukturlar

4) Muzdlu işçi qüvvəsi

Əmək bazarı aşağıdakı xüsusiyyətlərinə görə fərqləndirilir.

1) İxtisas səviyyəsinə görə - buraya ixtisaslı, az ixtisaslı və ixtisassız işçilər aid olunur.

2) Tənzimləmə əlamətinə görə - bu əlamətinə görə üç yerə ayrılır.Tənzimlənən, tənzimlənməyən və natamam əmək bazarları. Tənzimlənən əmək bazarıdedikdə dövlət və sahibkarlar arasında müəyyən razılaşmalar hesabına idarə olunan bazardır.

Tənzimlənməyən bazarlar gizli iqtisadiyyatın əsasını məhz bu bazarlar təşkil edir. Bu cür bazarda işə götürən bütün problemləri qaydasına salır. Belə tip bazarların mövcudluğunu tədqiqatçılar əmək haqqının daha yuxarı səviyyədə olması ilə əlaqələndirirlər.

Natamam bazarlar amirlik sistemində rast gəlinən bazarlardır. Burada istehsal vasitələri bir şəxsin deyil ümumilikdə xalqın sərvəti hesab olunur.

1 - Yerləşmə dərəcəsinə görə - Sahəvi, milli, beynəlxalq bazarlar ayırd edilir.

2 - İdarəolunma səviyyəsinə görə - Liberal və Sosial yönümlü əmək bazarları fərqləndirilir.

Liberal bazarlar adındanda göründüyü kimi azad formada idarə olunan bazarlardır.Buraya dövlətin mudaxiləsi mümkün olduğu qədər azdır. Əmək prosesləri işə götürənlərlə muzdlu işçilər arasında qaydasına salınır.

Sosial yönümlü əmək bazarlarında isə, bir qayda olaraq dövlətin müdaxiləsi çox güclü səviyyədə olur. Əmək prosesləri dövlətin müdaxiləsi nəticəsində həll olunur.

Simona Ghita (2005), Marian Chivu (2007), Andrey Cojuhari və digərləri daxil olmaqla bir çox müəllif əmək bazarının mürəkkəb bir məzmun təqdim etdiyinə inanırır və yerinə yetirdiyi funksiyalara görə, aşağıdakılardan ibarətdir:

- Məşğulluğun bölgüsü funksiyası
- Sosial funksiya - əmək bazarı vasitəsi ilə əməyin tələb və təklifi qarşılanır, əmək şəraitinin yaxşılaşdırılmasına dair addımlar atılır, əməyin humanistləşdirilməsi, sosial müdafiəsi nəzərdə tutulur.

-Əmək bazarının gəlirin  bölüşdürülməsi funksiyası - bu funksiya vasitəsilə əmək haqqının  bölşdürlməsi baş tutur.

-Təhsil və Təlim funksiyası - bu funksiya elmi bilgilərin artırılmasına və təlim prossesinin təkmilləşdirilməsini özündə ehtiva edir.

-Siyasi funksiya - ictimai və siyasi sabitliyi özündə birləşdirən xüsusiyyətdir.

Dünya üzrə əmək bazarının idarə olunması BƏT- ı tərəfindən həyata keçirilir. Lakin buna baxmayaraq hər bir ölkənin idarə olunmasının spsifik qanunları mövcuddur.  Bununla yanaşı planetimizin aparıcı ölkələrinin qayda qanunlarından dünya üzrə də istifadə olunur və hətta bir model formasında  dünyaya yansımışdır. Onlar aşağıdakılardır.

Amerika modeli - Bu model özünün mərkəzləşdirilmiş bir qurum tərəfindən idarə olunmaması ilə, fərqlənir. Hər bir federal əyalətin və ştatın ayrıca qanunvericilik sistemi fəaliyyət göstərir.

Müəssisələr iqtisadi strukturun pisləşməsi nəticəsində işçini azad və yaxud məzuniyyətə göndərə bilər. Bu cür hallar şirkətin rentabelli işləməməsi zamanı, iqtisadi böhran yarandığında, vergilər artırıldığında və s. Zamanlarda baş verir. Şirkət rəhbəri işçini işdən azad olunması barədə bir neçə gün əvvəldən deyil, bir gün qabaq məlumatlandırılır. Bununla yanaşı işçilər işə qəbul olunan zaman onlar məlumatlandırılır ki, iş stajı daha çox olan işçilərin, stajı az olan işçilərə nisbətən üstünlüyə malikdir.

İsveç modeli - dünyanın ən aparıcı idarə etmə modellərindən sayılır. İsveçdə demək olarki işsizlik yox səviyyəsindədir. Bunun əsas səbəbi kimi əmək bazarının idarə olunmasında dövlətin və  həmkarlar ittifaqının rolu əvəzsizdir. Ölkədə məşqulluğun aktivlik dərəcəsi  olduqca yüksək səviyyədədir, yalnız ölkədə az miqdarda təbii işsizlik vardır. İsveç modelin əsas xüsusiyyətləri aşağıdakılardır.

1) Genişləndirici vergi siyasətinin həyata keçirilməməsi - Bu prosesin əsas məqsədi vergilərin miqdarını azalatmaqla kiçik müəssisələrin həcminin artmasına şərait yaratmaqdır. Beləcə kiçik müüəssisələrin sayının artması ilə, iş yerlərinində artmasına müsbət təsir göstərəcəkdir. Digır tərəfdən kiçik müəssisələr çevikliyinə görə orta vı iri müəssisələrdən fərqlənir. İqtisadi böhran yarandığı  zaman kiçik müəssisələr bu prosesə cəld, çevik reaksiya göstərərək mövcud duruma uyğunlaşma qabiliyyəti yüksəkdir.

2) Aktivlik siyasəti hesabına əmək bazarının idarə olunması - Bu siyasət hesabına ölkədə məşğulluq səviyyəsinin artırılmasına nail olunur. Bunun üçün gənclərin ixtisas- peşə, təhsil səviyyəsinin artırılması üüçün şərait yaradılır. Həmçinin elm adamlarına müəyyən güzəştlər olunur, təhsil sistemində yeniliklərdən istifadə olunur, elmi yeniliklər qiymətləndirilir. Bunların hər biri aktivlik siyasətinin artırılmasının bir parçasıdır.

3) Sosial təminat və sosial müdafiə ödənişlərinin dövlətin nəzarətində olması.

Yapon modeli- Dünyanın ən yaxşı idarə etmə modellərindən biridir.  Yapon modelinin əsas xüsusiyyəti ondan ibarətdirki, təşkilatlarda, firmalarda həmkarlar ittifaqının rolu əvəzsizdir. Işçilər arasında münasibətlərin normallaşdırırlması, firmadxili problemlərin həll olunması, işçilərin irad və təkliflərinin rəhbərliyə bildirliməsi hamısı bu qurum tərəfindən həyata keçirilir.

Digər xüsusiyyət isə, işçilərin müvəqqəti və müddətsiz işçilərə bölünməsidir. Müvəqqəti işçilər firma əgər qeyri rentabelli işləyəməyə başlarsa,  bu zaman müvəqqəti işçilərdən ixtisar olunmağa başlanacaqdır.

Müddətsiz işçilər isə, firmanın əsasını təşkil edir. Onlara təşkilat tərəfindən daim diqqət yetirilir. Buraya İT mencerlər, mühəndislər, texniki mencerlər, firmanın idarə etmə orqanlarında çalışanlar və başqaları aid olunr.

Əmək bazarına bir çox amillər təsir edir. Bunlara müharibələr, iqtisadi durum, miqrasiya, beyin axını və s. aiddir.

Müharibələr əmək bazarına təsir edən ən əsas səbəblərdən sayılır. Müasir günümüzdə dünyada baş verən kütləvi qırğınlar, münaqişələr, müharibələr çoxlu sayda insan tələfatına səbəb olur. Mühaibələr ölkə iqtisadiyyatına güclü şəkildə zərər vurur və bunun nəticəsində iqtisadiyyat zəifləyir, iş yerləri sürətlə fəaliyyətlərini dayandırır, işsizlik artır həmçinin ölkədəki siyasi vəziyyətin yaxşı olmaması səbəbindən ölkədən çoxlu sayda beyin axını, həm də savadlı mütəxəssizlərin ölkələrini tərk etmələri müşahidə olunur. Bundan başqa insan itkiləri nəticəsində əmək bazarının getdikcə enişə doğru getməsi halları baş verir.

Son illərdə müharibələrin yaşandığı ölkələr də eyni halları görə bilərik. İstər İraq - Küveyt, istər İsrail - Fələstin istərsədə Azərbaycan- Ermənistan müharibələrində bu halları görmək mümkündür.

Müharibələrin ölkələrə vurdğu zərər və ziyanlar müxtəlifdir və onlar aşağıdakılardır.

1) İşğaldan əvvəl münaqişə nəticəsində vurulan zərər və ziyanlar - buraya İran-iraq, İraq - Küveyt müharibələrini aid etmək olar.

2) Əhalinin zəbt edilmiş torpaqlarda yaşamasına baxmayaraq müharibənin davam etməsi nəticəsində vurulan zərə və ziyanlar. Buraya isə, Fələstin - İsrail, müharibəsini aid etmək olar.

3) Əhalinin yaşadığı dədə - baba yurdlarından qovulması ilə torpaqların işğalı nəticəsində vurulan zərər və ziyanlar.

Ümumiyyətlə müharibə şəraiti müharibədə iştirak edən tərəflərin hər birinə ciddi şəkildə təsir göstərir. Məsələn İran - İraq müharibəsi zamanı Fars körfəzi və Şəttül ərəb çayları uğrunda aparılan müharibə nəticəsində hər iki tərəf ciddi şəkildə insan təlafatına məruz qalmış və uğursuzluqla üzləşmişlər. Müharibədən bir müddət sonra hər iki tərəf öz qalibiyyətlərini elan etmişdirlər.

İqtisadi durum deyərkən ölkə iqtisadiyyatının hansı vəziyyətdə olduğu nəzərdə tutulur. Ənənəvi olaraq iqtisadi irəliləyişə malik olan hər bir ölkənin əmək bazarı daha sürətlə inlişaf edir. İqtisad irəliləyiş üçün isə, investisiya yatırımları mövcud

olmalı, məhdudlaşdırıcı fiskal siyasət yürüdülməli, sahibkarlara müəyyən vəsaitlər ödənilməli, vergi güzəştləri və s. Edilməlidi. Bütün bunlar sayəsində sənaye sahələrində inkişaf müşahidə olunacaqdır.

Əmək bazarına təsir edən növbəti amil beyin axınıdır. Beyin axını- öz ölkələrində normal həyat şəraiti qura bilməyən yüksək ixtisaslı mütəxəssislərin, kadrların daha yaxşı həyat şəraiti qurmaq məqsəilə başqa ölkələrə emiqrasiyası başa düşülür. Beyin axını- Brain Drain fikrini ədəbiyyatlara birinci dəfə Böyük Britanyalıalrın Kral cəmiyyətinin üzvləri gətirmişlər. Buna səbəb 1962 ci ildə B. Britanyadan ABŞ - a yüksək ixtisaslı işçilərin, kadrların, mütəxəssislərin emiqrasiyası idi. B. Caqdidinin fikrinə görə beyin axınının əsas səbəbi kimi əmək haqqının aşağı olması, yeniliklərin dəyərləndirilməməsi, elm sahəsinə vergi güzəştlərinin olmaması və s qeyd edir.

Neokynsçi tətqiqatçıların fikrinə görə beyin axını emiqrasiyasına məruz qalan ölkələr yaxın gələcəkdə çox ciddi fəsadlarla üzləşəcəklər. Amma beyin axınını qarşılıyan ölkəlır isə, həm əmək bazarında, həm də iqtisadiyyatd irəli mühüm addım atmış olacaqlar. Çünki onların sayəsində ETT-nin yeniliklərinə tez reaksiya verə biləcəklər nəticədə məhsuldarlıq yüksələck və adam başına düşən ÜDM- nin həcmi artacaqdır.

Beyin axınına 2 aspektdən yanaşmaq olar:

1) Daxili beyin axını - Bu zaman yaxşı həyat səviyyəsinə malik olmayan yüksək ixtisaslı kadrların elə ölkə daxilində daha yüksək gəlir qazandıran sahələrə üz tuturlar. Xüsusəndə biznes sahəsinə meyl edənlərin sayı hərgün artmaqdadır.

2) Xaricə beyin axını - Yüksək ixtisaslı mtəxəssislərin öz ölkələrini tərk edərək inkişaf etmiş ölkələrə emiqrasiya edirlər. Hər iki aspektdən yanaşma ölkə üçün təhlükə və savadsızlıq mənbəyidir. Beyin axının səbəbləri vardır ki, onlar aşağıdakılardır.

1) İqtisadi durumun yaxşı olmaması - Buna vergi güzəştlərinin olmaması, əməyin dəyərinin qiymətləndirilməməsi və s. Aiddir.

2) Ölkədə siyasi gərginliyin mövcud olması - Məsələn: Etnik qruplar arasında olan çaxnaşmalar, Siyasi partiyalar arasında olan çəkişmələr və s.

3) Texnologiya və elm sahəsinin diqqətdən kənarda qalması- Buraya elmə, texnoloji yeniliklərə biganəlik, elmi yeniliklərin dəyərləndirilməməsi, texnologiyaların yararsısz halda olması aiddir.

4) Təhsil siyasətinin yetərsizliyi - Buraya müəllimlərin əməyinin dəyərləndirilməsi səviyyəsinin aşağı olması, təhsil sistemində beynəlxalq təcrübədən istifadə olunmamması aid olunur.

5) Məşğulluq səviyyəsinin aşağı olması, işsizliyin yüksək olması - Buraya ixtisasa uyğun işlərin tapılmaması, əmə bazarında tələb və təlifin müəyyən olunmaması, Tarazlığın mövcud olmaması, işə qəbul zamanı korrupsiya hallarının yaşanması aiddir.

6) İnkişaf etmiş ölkələrdə təhsilə və yeniliklərə önəm verilməsi- Həmin ölkələrdə savadlı insanlar dəyərləndirilir, təhsil sistemində beynəlxalq təcrübədən istifadə olunur, vergi güzəştləri edilir, əmək haqqı yüksək səviyyədə olur, həmçinin sosial təminat və soial müdafiə inustutlarının peşəkarlığı aid olunur.

BMT - nin 21 ci əsrin ilk 8 ilinin statistikasına əsasən dünya üzrə 169 milyon miqrantın 40%-ini ixtisasli miqrantlar təşkil edir. Buda təsadüfi eyildir. Müasir dövrümüzdə beyin axınına şərait yaradan ölkələr vardır.

Məsələn: ABŞ, Qərbi Avropa ölkələri bunun sayəsində həm yüksək məhsuldarlığa, həm də adam başına düşən ÜDM- nin artmasına nail olurlar. 2005 ci ilin statistikalarına əsasən zəka axınından əldə olunan gəlir 41 mlrd - dan artıq olmuşdur. Buna görədə Meksika, Türkiyə, Yunanstan, RUSiya kimi ölkələr zəka axının qarşısını almağa çalışırlar. Təkcə Rusiya hər il beyin axının emirasiyasından 50 mlrd dollar itirir. Zəka axını ən çox memarlıq, kimya mütəxəssisi, kompyuter mütəxəssisi, bioloq, geoloq, meşə sənayesi, neft hasilatı ixtisasları üzrə baş verir.

## 1.2. Münaqişələrin əmək bazarına təsirlərinin qiymətləndirilməsinin metodoloji əsasları

Ölkədə yaranan müharibələrin təsirləri təkcə əmək bazarına deyil, həmçinin ölkə iqtisadiyyatınada təsirlər göstərir. Hətta o dərəcəyə gətirib çıxardırki dövlət süquta belə uğraya bilər. Bu münaqişə və müharibələr güclü dövlətləridə belə sarsıtma gücünə qadirdir.

Münaqişələrin əmək bazarına təsirlərini qiymətləndirmək çətin bir prosesdir, bu prosesə aşağıdakı bəndləri aid etmək olar.

1. İlk öncə müharibədə iştirak edən insanların sayını dəqiqliklə müəyyən etmək lazımdır.

2. Müharibədə həlak olan insanların sayı dəqiqləşdirilməlidir.

3. Müharibənin aktiv fazasında yaralanan və yaxud ömürlük əlilliyə məruz qalan insanların sayı öyrənilməli.

4. Yuxarıdakı üç mərhələdən sonra müharibədə iştirak edən, həlak olan və ya yaralanan insanların peşə- ixtisas səviyyəsi ümumi olaraq öyrənilməlidir.

Yuxarıdakı bəndlərdən aydın oldu ki, əmək bazarına və məşğulluğa vurulan ziyanları müəyyən etmık heçdə asan deyildir. Hətta bu prosesin həyata keçirilməsi bir müddət vaxt apara bilər.

Müharibələrin insan tələfatına səbəb olduğu heçdə sirr deyildir. Bir çox tarixi müharibələrə nəzər saləb, məlumatlar alsaq bir daha buna şahid ola bilərik.

Müharibə və münaqişələrin aktiv dövründən sonrada çoxlu görüləcək işlər vardır. Bunlara aşağıdakıları aid eləmək olar.

1. Müharibənin baş verdiyi dönəmdə həlak olan insanların ailələrinə müəyyən müavinətlərin ödənilməsi və yaxud yardımların edilməsi.

2. Müharibə zamanı yaralanan vı ya əlil insanların sağalmaları üçün göstərişlərin verilməsi.

3. Müharibənin baş verməsi səbəbilə işini itirən şəxslərin yeni iş yerlərilə təmin edilməli və s.

Yuxarıda sadalan hər üç bənd hər bir dövlətin ərazsində baş verən müharibədən sonra yerinə yetirilir. Bu halları dünya təcrübələrində də görmək mümkündür.

Yuqaslaviyada başlanan vətəndaş müharibəsi 1991- 1995 ci illəri əhatə edir. İmperiyanın tərkibindəki serblər xorvatlara hücum edərək münaqişənin əsasını qoymuşdurlar. 1991 ci ildən sonrakı 4 il ərzində 25 mindən çox insanın həyatına son qoyulmuşdur. Müharibə zamanı xorvatların göstərdiyi müqavimət hesabına çoxlu sayda serb Xorvatiyanı tərk etmişdir. Münaqişədə 10 mindən çox xorat hərbiçisi həlak olmuşdur.

Bu müharibədən sonra regionda iqtisadi durum kəskin şəkildə pisləşmiş, əmək bazarında gərginlik əmsalı yüksəlmişdir.

Müharibələrin məşğulluğa, işsizliyə təsirləri tərəflərin maraqlarından asılı olaraq dəyişə bilir. Eynilə müharibə edən ölkələrin nə dərəcədə güclü iqtisadiyyata malik olduqları bu mənada təsir göstərir.

Birinci və ikinci dünya müharibəsi zamanı ABŞ və İngltərədə işsizik miqdarı azalmışdır. Buna səbəb kimi hərbi savaşlar nəticəsində bu sektor da işləyən insanların sayında artım müşahidə olunmuşdur. Buda bir başa olaraq məşğulluğa təsir etmişdir. Bu dövr ərzində mülki işlərdə çalışan insanların sayında azalma müşahidə olunmuşdur. Buna misal olaraq 1940 cı ildə ABŞ da mülki işdə işləyən insanların payı əmək bazarında 83 faizə bərabər idisə, 1945 ci ildə bu faiz nisbəti 59 %- ə qədər aşağı düşmüşdür. Bununla bərabər hərbi sektorda çalışan insaların sayı 2%- dən 40%- ə qədər yüksəlmişdir. 1940- 1945 cu illərdə məşğul əhalinin payı 85%- dən 98%- ə qədər yüksəlmişdir.

İkinci dünya müharibəsi hesabına məşğul əhalinin sayı 10 milyon artmışdır. 1940- 1945 ci illərdə 18 milyon hərbiçi işə götürülmüşdür. Onlar əsasən sıah- sursat istehsalında, qatar, yük maşını istehsalında həmçinin dəmir, daş kömür mədənlərində işləməyə başlamışlar.

1933- 1937 ci illərdə ABŞ- ın hərbi xərcləri iki dəfə artmışdır. 1942 ci ildə dövlət tərəfindən özəl sektorla 100 mlrd dollarlıq hərbi müqavilə imzalanmışdır. 1936- 1945 ci ildə təyyarə istehsalı 10 dəfəyə qədər artmışdır.

Müharibənin təsirlərini qiymətləndirərkən mülki işlərdə işləyən insanlarında əmək bazarında yerindən danışmaq lazımdır. Müharibənin başlanması mülki sənayedə çalışan insanların sayında dəyişikliklər yaradır. 1935- 1945 ci illərdə

Rusiyada mülki işlərdə işləyən insanların sayında 75% azalma baş vermişdir. İtaliyada anoloji hal 64% azalma ilə, nəticələnmişdir. Kənd təsərrüfatında çalışan insanların payında dəyişikliklər müşahidə olunmuşdur. Bu sahədə bu dövr ərzində Almaniyada 70% azalma, Fransada 50% , Rusiyada isə, 55% azalma qeydə alınmışdır.

ABŞ prezidenti Ruzvelt mülki sahədə işsizliyi azaltmaq üçün bir çox müqavilələr imzalasada işsizlik faiz nisbəti yenədə var idi. Bu dövrdə ölkədə 22% işsizlik var idi. 1936- 37 ci illərdə işsizlik azaldı, lakin 1938 ci ildən tənəzzül yenidən başladı. 1940 cı ildə işsizlkik faizi 16- a bərabər idi.

1942- ci ildə Rusiyada və İngiltərədə işsizlik səviyyəsi demək olarki 0- a bərabər idi.

Müharibənin Almaniya və Yaponiyaya güclü zərbələrin endirilməsinə baxmayaraq 1945 ci ildən sonra hər iki dövlət iqtisadi toparlanmağı bacarmışdır. Nəticədə əmək bazarında məşğulluğun faizi artmışdır.

Birinci dünya müharibəsi müharibədə iştirak edən dövlətlərin həm iqtisadiyyatına, həm də əmək bazarına mənfi təsirlər göstərmişdir. Bu müharibə zamanı çoxlu sayda mülki işçilər işdən çıxarılaraq hərbiyə yazdırılmışdırlar.

1914- 1919 cu illər ərzində İngiltərədən 10 mln işçi müharibəyə çağrıldı və demək olarki 1mln- u müharibədə həlak oldu. Fransada 8 mln işçi müharibəyə çağrıldı. Onlardan 1,5 mln- u müharibədəki döyüşlər zamanı həlak olmuşdur. Almaniyadan 13 mln insan birinci dünya müharibəsinə çağrılmışdır. Alman hərbiçilərin 2 mln- u döyüşlər zamanı həlak olmuşdur. Rusiyadan isə, müharibəyə 13 mln insan çağrılmışdır. Çağrılanların 800 mini həlak olmuşdur. ABŞ- dan müharibəyə çağrılan işçilərin ümumi sayı 3 mln- a yaxın idi və onların 120 mindən çox hərbiçisi həlak olmuşdur. Digər müttəfiqlərdən döyüşlərə çağrılan döyüşçülərin sayı 40 mln- u ötmüşdür.

Birinci dünya müharibsindən fərqli olaraq Almaniya işsizlik problemini həll etmişdir. Bu dövrdə aparılan islahatlara görə yəhudilər işdən çıxarılırdı. Onların yerinə almanların özləri işləyirdilər. Hitlerin ideologiyasına görə qadınlar işləməməli idilər və evdə qalmamlı idilər. Ona görədə qadınlar işdən azad

olunurdular. Bu dövrdə univeristetə qəbul olmaq üçün hərbi xidmət vacib rol oynayırdı.

İş yerlərinn artırılması işsizliy azaldan səbəblərdən idi, nəticədə 1932 ci ildə mövcud olan 5 mln işsizlik sayı, 1939 cu ildə 300 min işsizlik sayına enmişdir. Bu illər ərzində məşğul əhalinin 20%- i  hərbi sənayedə çalışan insanların payına düşürdü.

Əmək bazarına müharibənin təsirlərini qiymətləndirərkən onuda qeyd etmək lazımdır ki, bu dövrdə əmək bazarının normal fəaliyyətinə şərait yaranmır və bir çox çətinliklər ortaya çıxır. Bu çətinliklərə aid olaraq iş saatlarının artırıla biləcəyini qeyd edə bilərik. Bu halları ikinci dünya müharibəsi zamanında Almaniyada görmək mümkün idi. Ölkədə milliləşmə prosesi artmışdır. Bununlada ölkədə iş saatlarının artırılmasına qərar verilmişdir. 1937 ci ildə işçilərin iş saatları artırılaraq həftədə hətta 70- 75 saata qədər çatdırılmışdır.

Müharibə zamanı ölkədə yaranan xaos səbəbilə məcburi əməyində artmasına səbəb olur. Almaniyada 1938 ci ildəki qərara əsasən 2 mln insan məcburi əməyı cəlb olunmuşdur. Bu cür qərarlar Yaponiyada da qəbul edilmişdir. Oxşar qərar 1940 cı ildən İngiltərədə də qəbul olunmuşdur.

İspaniyada baş verən vətəndaş müharibəsi zamanında da məcburi əməyin tətbiqinə başlanılmışdır.

İkinci dünya müharibəsi zamanı məcburi əməylə yanaşı həftılik  iş saatlarının artırılması təkcə Almaniyada baş verməmişdir.

1940- 1945 ci illər ərzində Fransada həftəlik iş saatları 35 saatdan, 50 saata qədər artırılmışdır.  Böyük Britaniyada həftəlik iş saatı 47 saatdan, 53 saata qədər artırılmışdır. Yaponiyada iş vaxtı isə, gündəlik iş saatı 6 saatdan 10- 12 saata qədər artmışdır.

Bu ərəfələrdə məcburi əmək İngiltərədə də artmışdır. 1940- 1949 cu illər ərzində 50 minə yaxın gənc mədəndə işləməyə məcbur edilirdi. Bu işdən imtina edənlərə ya pul cəzası kəsilirdi, yada həps olunurdular.

Müharibənin əmək bazarına digər təsirləri kimi ölkədə işçi siniflərinin və işçi qruplarının dəyişilməsini qeyd edə bilərik. Müharibənin aktiv fazasında əsir

götürülən insanlar əmək bazarına daxil edilirdilər və qul kimi işlədirdilər. İkinci dünya müharibəsi zamanı həm almanlar, həm də yaponlar çoxlu sayda əsirləri ələ keçirərək qul kimi işlədirdilər. Nəticədə ölkədəki işçi qruplarının dəyişilməsinə səbəb oldu.

Bu zamanlarda Yaponiyada ABŞ, Almaniyada Rusiya, İngiltərədə çoxlu sayda italyan əsirləri vardır. Onlar işləməyə məcbur edilirdilər.

1945 ci ildə Almaniya ərazsinində 7 mln hərbi əsir qul kimi işlədilirdi. Əmək şəraitidə həddən artıq çətin idi. Yaponiyada da buna bənzər hallarla rast gəlmək mümkün idi. Bu dövrdə Yaponiyada 1mln- dan artıq hərbi əsir qul kimi işlədilirdi.

Məcburi əməyin digir bir forması isə, vətəndaş müharibəsi zamanı olaraq ölkənin rəsmi ordu sıralarına qoşulmasıdır. Bu hal Efiopiya, Şri- Lanka  və s. Kimi ölkələrdə vətəndaş müharibəsi baş verərkən rast gəlinmişdir.

Müharibənin ölkənin əmək bazarına digər təsiri kimi işçilərin ölkə daxilində tez- tez yer dəyişməsidir. Buna səbəb kimi iş yerlərində çalışan insanların müharibəyə cəlb olunmasıdır ki, nəticədə onların yerlərinin boş qalması digər yerlərdən oraya kadr cəlb edilməsini tələb edir. Buna Daxili Əmək Bölgüsü deyilir. 1939- 1945 cı illərdə Amerikanın əmək bazarında 30 mln- a yaxın işçi daxili əmək bölgüsünə məruz qalmışdır.

Münaqişə və müharibələr ölkənin əmək bazarının fəaliyyətinə, həmçinin digər sahələrə vurduğu ziyanlar təsirsiz deyildir. Münaqişələr birbaşa olaraq iqtisadiyyata mənfi təsirlər göstərir.

Münaqişə və savaşlar ölkədə infliyasiyaya səbəb olur. Ərzaqların qiyməti qalxaraq pulun dəyəri azalmağa başlayır. İnfliyasiyanın baş verməsi daha çox vətəndaş müharibəsi zamanında müşahidə olunur.

Münaqişələrin artması ölkə əhalisinin real əmək haqqısının azalmasına gətirib çıxardır. 1861- 1865 ci illərdə ABŞ- da baş verən vətəndaş müharibəsi zamanı bu halı müşahidə etmək mümkün idi. Savaş zamanı ölkədə infliyasiyanın səviyyəsinin artması buna gətirib çıxartmışdır. Oxşar hadisəni 1910- 1920 ci illərdə Meksikada baş tutan vətəndaş müharibəsi zamanınında da buna şahidlik dilmişdir.

Birinci dünya müharibəsi zamanı və müharibədən sonra Almaniyada kəskin şəkildə əmək haqqının səviyyəsi azalmışdır. Buna misal olaraq 1913 cü ildə 90- dan yuxaxrı olan əmək haqqı indeksi, 1920 ci ildə dəmir yolu işçilərində 50- ə, mətbəə işçilərində 70- ə, mədən işçilərində isə, 75- ə qədər aşağı düşmüşdür.

Münaqişələr və savaşlar zamanında vergilərində artması ölkə əhalisinin yaşayış şəraitinə pis təsir edir. Buna səbəb kimi bir tərəfdən real əmək haqqının səviyyəsinin azalması, digər tərəfdən həmin əmək haqqı üzərindən vergilərin artırılmasıdır.

Müharibələ ilə, vergilər arasında düz mütənasiblik mövcuddur. Bu dövrdə artırılan vergilər iğtişaş bitdikdən sonra azaldılmır, nəticədə bu xalqın yoxsullaşmasına gətirib çıxardır.

1940 cı illərdə Amerikada müharibə səbəbilə vergilərin həcmi artırılmışdır. 1940 cı illərdə əgər ölkədə vergi gəlirlərinin həcmi 9 mlrd dollar idisə, 1945 ci ildə artıq bu gəlirlərin həcmi 50 mlrd dollara yaxın idi. Vergi dərəcəsinin ağırlığı 10%- dən 20%- ə qədər ağırlaşdırılmışdır.

Müharibənin başqa acı bir təsiri əhali arasında yaranan aclıqdır. Kənd təsərrüfatında işləyən insanların müharibələrə cəlb olunması bu sahədə işləyən işçilərin sayının azalması nəticəsində ərzaq çatışmazlığı yaranır.

İkinci dünya müharibəsi zamanı əkinçilik Almaniyada 40%- 70%, Rusiyada 55%, Fransada isə, 60% azalmışdır. Bunun nəticəsi kimi həmin ölkələrdə bu hallar aclığa səbəb olmuşdur.

Savaşların aktiv dövründə əmək haqqının gecikməsi və yaxud ümumiyyətlə əməyin ödənilməməsi baş verir. Buda sənaye sahələrində işçi tətillərinin baş verməsi ilə, nəticələnir. Birinci dünya müharibəsi zamanı tətil edən işçilərin sayı həddən artıq çox idi. Bu istehsal sferasında istehsalın azalmasına və tənəzzülə gətirib çıxartmışdır.

Oxşar hallar Almaniyada da rast gəlinirdi. Ay ərzində ortalama tətil günlərinin sayı Almaniyada 17, İngiltərədə 20 günə bərabər idi.

Münaqişə və müharibələrdən danışarkən əmək bazarında qadın əməyinin artmasını qeyd etməmək mümkün deyildir. Birinci dünya müharibəsi dövründə ABŞ- da qadınların əvvəllər heç olmadıqları qədər məşğulluq prosesində iştirak

edirdilər. 1918 ci ilə qədər əmək bazarında çalışan qadınların faiz nisbəti köklü şəkildə dəyişmişdir. Əvvəllər bu faiz nisbəti 20%- idisə, 1919 cu ildə bu nisbət 35%-dən yüksək idi.

Buna səbəb bu dövrdə müharibəyə gedən kişilərin iş yerlərinin boş qalması, nəticədə həmin boş yerlərdə işçilər qadınlarla əvəz olunması idi. Eyni halı Böyük Britaniyada da görmək mümkün idi. Hətta orada ki qadınlar poçtalyon, polis, qatar, avtobus, tranvay sürücüləri vəzifəsində çalışırdılar.

Qadınların məşğulluğa cəlb olunması prosesi ikinci dünya müharibəsi vaxtlarında da baş vermişdir. ABŞ- da bu dövrdə 10 mln kişi döyüşlərə cəlb olunmuşdur. Onların boş qalmış iş yerlərinə isə, 7 mln qadın cəlb olunmuşdur.

İkinci dünya müharibəsi zamanı İngiltərə qadınları hərbi xidmətə çağıran ilk dövlət kimi tarixə yazılmışdır. Qadınlar məcburi formada ya orduya çağrılırdılar yada işlərə cəlb olunurdular. Bunu rədd edən qadınlar pul cəzası ilə, və ya həbs edilmələrilə yekunlaşırdı. 1939 cu ildə İngilətərədə işləyən qadınların sayı 5 mln nəfər idisə, 1943 cü ildə bu say 7 mln nəfəri ötmüşdür.

Bu dövrdə qadınların məşğulluğunda artım müşahidə olunsada, kişilərlə qadınlar arasında olan əmək haqqı fərqi yerində durmaqda idi. Dünya üzrə qadınların əksəriyyəti buna qarşı idi. 1943 cü ilin payız fəslində Şotlandiyadakı Hillington Roll- Royce fabrikində qadınlar 10 gün tətil etmişdirlər. Lakin bu problemləri fabrik etirazlardan sonra aradan qaldırmağı bacarmışdır.

Müharibə dövrlərində həmkarlar ittifaqlarının roluda artmaqdadır. Bu cür zamanlarda əksəriyyət fabrik və zavodlarda bu qurumlar yaradılır. Onlar işçilərin hüquq və azadlıqlarını müdafiə edir.

1914 cü ildə 3 mln- a yaxın həmkarlar ittifaqının işçisi vardır. Bu nəticə 6% nisbətində idi. 1917 ci ildə bu faiz nisbəti 7- 8%- ə qədər artmışdır. 1935 ci ildə əmək qanunlarının qəbul edilməsi bu faiz nisbətini 15- ə yüksəltmişdir. Həmkarlar ittifaqının 1941 ci ildə 11 mln, 1945 ci ildə 15 mln işçisi vardır. 1945 ci ilə qədər bu qurumda işləyən işçilərin artım faizi 40- a bərabər idi.

1913 cü ildə Almaniyada çalışan işçilərin 3 mln- u həmkarlar ittifaqının tərkibində idi.

Müharibələr, savaşlar, münaqişələr əmək bazarının tərkibinə, məşğulluğun fəaliyyət mexanizminə mənfi təsirlər göstərir. Məşğulluq fəaliyyətində qarışıqlıq yaranır, idarəetmə prosesi olduqca çətinləşir. Bunun nəticəsi kimi nizam- intizam prosesi pozulur və işçi qəzaları qaçılmaz olur. Bu dövrlərdə təkcə iş qəzaları baş vermir, eləcədə işçilər arasında xəstəliklərdə yayıla bilir.

Birinci dünya müharibəsi zamanında 1917 ci ildə Londondakı TNT fabrikində baş vermiş yanğın və partlayış nəticəsində 73 işçi həlak olmuş, ətrafındakı mənzillər belə yararsız hala düşmüşdür.

İkinci dünya müharibəsi ərəfələrində Almaniyada da iş qəzaları artmışdır. 1933 cü ilə qədər orada 930 min iş qəzası baş vermişdisə, 1941 ci ilə qədər bu say 2 mln 250 minə çatmışdır.

Bu dövrlərdə iş saatlarının artırılması işin çətinləşməsinə gətirib çıxartmışdır. Bunun nədəni kimi işçilər arasında xəstəliklər artmışdır. Xəstəliklıərin artması isə, onlar arasında ölüm hallarını qaçılmaz edir.

Almaniyada ikinci dünya savaşı zamanında işçilər arasında artan xəstəlik sayı 11 mindən 23 minə yüksəlmişdir. Uzun iş saatları və çətin qrafik ABŞ da mövcud idi, anoloji hallar orada da baş vermişdir. Oxşar hadisələr İngiltərədə, Rusiyada, Yaponiyada və başqa ölkələrdə də rast gəlinmişdir.

Bütün bu hallar işçilərin tətil etmələrinə gətirib çıxartmışdır. Tətilə çıxan insanların sayı günü- gündən artırdı. Bu cür hadisələrə görə ölkələrdə inqilablar belə baş tutmuşdur (https://www.ttb.org.tr/MSG/images/files/dergi/58-59/58-59.pdf İş Sağlamlığı və Təhlükəsizliyi Jurnalı (səh 36- 42))

1917 ci ildə Rusiayad Proletar inqilabı, 1919 cu ldə isə, Spartak hərəkatı baş vermişdir. 1918 ci ildə İrlandiyada, 1919 cu ildə Şotlandiyada, Macarstanda bu cür hərəkat, inqilablar baş vermişdir. Bəzi inqilablar zamanı üsyançılar istəklərinə nail olmuşdurlar.

Müharibələrin işçi sinifinə mənfi təsirləri bütün növ münaqişələr zamanı sübut edilmişdir. İmperalist ölkələrdə müharibə dövründə görülən məşğulluğun artması hərbiləşdirmə hesabına baş verir. Bu ölkələrdə iş saatları artırılır, həmkarlar ittifaqlarının təşkilatları təsirsiz hala gətirilir, inflyasiyya səbəbilə maaşlar azaldılır.

Bunndan başqa müafiə sənayesində çalışan qadınların sayıda artır. Lakin maaşları isə, kişilərin maaşlarından daha az olur. Bu dövrlərdə istehsal prosesinin pisləşməsi səbəbindən iş yerlərində xəstəliklərin, yanğınların, partlayışların sayında artım müşahidə olunur.

İnkşaf etmiş ölkələrdə də oxşar halları görmək mümkündür. Orada işsizlik durumu artır, iqtisadiyyat zəifləyir, əmək bazarının idarə olunması çətinləşir. Orada da iş saatları artırılır. Nəticədə peşə qəzaları, xəstəliklər artaraq durumu çox çətinləşir. Müasir dövrümüzdə də dünya üzrə çoxlu sayda müharibələr, münaqişələr mövcuddur. Orada eyni hadisələri görmək mümkündür. Hal hazırda bu problemlərin baş verməməsi, verəcəyi vaxtda isə, onların aradan qaldırılması üçün güclü tədbirlər görülür.

### 1.3. Hərbi münaqişələrin əmək bazarına təsirlərinə dair xarici ölkə təcrübələrinin öyrənilməsi

Hərbi münaqişələr ölkənin idarə etmə strukturuna, iqtisadiyyatına, əmək bazarına, davamlı inkişaf konsepsiyasına elə mənfi zərbələr endiriki ölkənin yenidən əvvəlki halına qayıtması illər çəkə bilər. Ölkə hər tərəfdən basqı içərisində olur. Ölkə əhalisinin yaşayış səviyyəsi getdikcə aşağı düşür. Munun izahı kimi onu qeyd etmək olarkı İş saatları artılır, əmək haqqının məbləği getdikcə aşağı düşür, insanlar arasında xaos, qorxu, inamsızlıq yaranır. Döyüş bölgələrində ölən insanların cəsədləri toplanmadığından həmin yerlərdə, ərazilərdə infeksiyalar artaraq xəstəliklər çoxalaır. Bunların hər biri insanların həyatları üçün bir təhlükədir. Bundan əlavə münaqişələr zamanı bəzi ölkələlərdə miqrasiyanın miqdarı artır. Ölkədə insanların sayında azalmalar müşahidə olunur. Köç edən insanların əksəriyyəti yaxın, qonşu ölkələrə üz tutur. Bunun nəticəsi həmin ölkələr üçün heçdə xoş deyildir. Bu nəticələrə aşağıdakıları aid eləmək olar.

1. Ölkənin əmək bazarında gərginlik artır, məşğulluqda problemlər yaranır.
2. Miqrantlarla yerli əhali arasında münaqişələr yaranır.

Bunların nəticəsi heçdə yaxşı deyildir. Münaqişələr deyərkən təkcə iki və yaxud daha artıq dövlətin iştirakını nəzərdə tutmur.Vətəndaş müharibələrinidə qeyd

edə bilərikki onun nəticələri həm xalq üçün, həmdə hakimiyyət üçün çox ağır olur. İş yerləri bağlanır, univeristetlər, məktəblər, bir çox iaşə obyektləri fəaliyyətlərini dayandırırlar.

Yuxarıda söylədiklərimizin hər birini bir çox ölkələrin müharibə təcrübələrində və proseslərindən sezmək mümkündür. Bunlara aşağıdakıları aide eləmək olar.

2014 ci ilin yanvar ayından başlayaraq İraq da siyasi vəziyyət gərginləşmişdir. Buna səbəb Levant  (İŞİD) və İraq İslam Respubilkasi arasında hərbi münaqişələrin başlanması olmuşdur. 2014 ci ilin yanvar- sentyabr ayları ərzində 20 minə yaxın mülki İraq vətəndaşı qətlə yetirilmişdir. Münaqişə zamamanı məktəblərə, xəstəxanalara, müəssisələrə tez- tez hücümlar həyata keçirilmişdir. Qarşıduırma zamanı etnik cəhətdən fərqlənən xalqlar belə zorakılığa məruz qalmışdır. Buraya Yezidilər, Xristianlar, şimalda Türkomen, həmçinin şiələr və sünnilər daxildir.

Yanvar- sentyabr ayları ərzində təkcə Anbar vilayətində 7,715 mülki vətəndaş qətlə yetirilib. Daha 12.297 nəfər ölkənin müxtəlif ərazi və bölgələrində terror, zorakılıq aktlarında həlak olmuşdur. BMT- nin İnsan Hüquqları üzrə Ali Komissarlığının araşdırmalarına əsasən ölənlərin 521- i uşaqlar olduğunu aşkar etmişdir.

Hal- hazırda İŞİD və əlaqəli silahlı qrupların nəzarəti altında olan ərazilərdə yaşayan 3,6 milyona yaxın insan, o cümlədən Anbar, Nineva və Salah Aldin vilayətləri humanitar baxımdan xaricdə qalırlar. İndiki zamanda bu regionlarda yaşıyan şəxslər üçün sığınacaqlar ən aktual ehtiyacdır. Təxminən 800 min- ə yaxın adam təcili sığınacaq yardımına ehtiyac duyur və ən azı 950 mindən çox insan məişət və digər ərzaq malları ilə, təminatı yox dərəcəsindədir. Qışın gəlişi səbəbindən Kürdüstan bölgəsində məcburi köçkünlər üçün sığınacaqlar qurulmuşdur və İraq rəhbərliyi bütöv ölkə üçün bənzər bir plan müzakirə olunur.

İraq da 2,8 milyon insanın qida yardımına ehtiyacı var.Bura məcburi köçkünlər və münaqişənin təsir etdiyi digər həssas qruplar daxildir. Qida ehtiyyacının yaranmasının əsas səbəbi ölkənin şimal torpaqlarının İŞİD- in işğalı altında olmasıdır. Çünki İraqda buğda istehsalına görə məhz bu ərazilər fərqlənir, onlarında işğal altında olması ölkənin qida təhlükəsizliyini risk altına atır.

İraqın müharibə vəziyyətində olması səhiyyə, kommunal, təhsil və s. Çətin duruma düşmüşdür. Müharibə nəticəsində 1200- dən çox xəstəxana, dini binalar dağıdılmışdır. Təxminən 5 milyon iraqlının təcili suya, 950 min uşağın təhsilə və 5,2 milyon insanın sağlamlıq xidmətlərinə ehtiyyacı vardır.

Hökümət münaqişə və böhran vəziyyətini tənzimləmək üçün 2014 ci ilin iyun ayında Ali Komitə yaratmışdır. Bu komitə ölkəyə humanitar yardımların edilməsi üzrə əsas məsuliiyətli orqan hesab olunurdu. Ali Komitə sayəsində iyun- sentyabr ayları ərzində təxminən 36 milyon ABŞ dolları məbləğində yardım edilmişdir.

Göründüyü kimi ölkədə münaqişə prosesi çoxlu sayda insan tələfatına səbə olmuşdur. Ondan əlava müharibənin başlanması ilə, müəssisələrin dağıdılması iqtisadiyyata ciddi şəkildə mənfi təsirlər göstərmişdir.İnsan tələfatı baş verir, iqtisadiyyat zəifləyir, işsizlik artır və əmək bazarında güclü şəkildə geriləmə hiss olunurdu. Geriləmənin əsas səbəbi kimi münaqişı zamanı ixtisaslı işçilərin, mütəxəssilərin həlak olması idi (2014- 2015 İraqın strateji cavab planı)

Suriyada 2011 ci ildə başlayan vətəndaş müharibəsi səbəbində Türkiyə gözləmədiyi səviyyədə sığınacaq axtaran şəxslər axınına uğramış və bu vəziyyətdən ən çox məşğulluq bazarı təsirlənmişdir. Xüsusilə Suriya ilə, sərhəd əyalətlərdə yaşayan vətəndaşlar bir çox mərhələdə suriyalı qaçqınların təsirinə məruz qalmışdır. Bir neçə il ərzində Türkiyəyə sığınan suriyalıların sayı 3 milyonu keçmişdir. Bu prosesə bələdiyyə, ictimayi orqanlar habelə hüquqi infrastruktur hazır olmadığından bir çox problemlərlə qarşılaşdı. Məhz buna görədə suriyalı qaçqınlar əmək bazarına birbaşa və dolayı yolla təsir etməyə başlamışdır.

Türkiyəyə köçən suriyalı qaçqınlar 3 qrupa bölünür. Birinci qrupa həkim, mühəndis kimi peşələrə sahib olan və daha böyük şəhərlərdə çalışan suriyalılar. İkinci qrupa orta ixtisasa sahib olan qaçqınlar aid olunur. Son qrupa isə ümumiyyətlə heç bir ixtisasa malik olmayan, daha az əmək haqqı ilə çalışan suriyalılardır. İqtisadiyyat və əmək bazarı üçün əsas problem yaradan qrup məhz sonuncu qrupdur. 2015 ci ildə “World Employment Social Outlook- Trends” tərəfindən nəşr olunmuş statistika göstəricilərində 2015- 2020 ci illər ərzində Türkiyə iqtisadiyyatında və

əmək bazarında bərabərsizlik artacaq, artım əmsalı yavaşlayacaq, nəticədə işsizlik qlobal xarakter olacağı qeyd olunur.

Suriyalıların Türkiyını hır sahədə gözləniləndən daha çox təsir etməsinin əsas səbəblərində biri Avropa cəmiyyətlərində mövcud olan "Rifah Şovnizmi"-dir. Avropa dövlətləri müəyyən rifah səviyyəsinə çatdıqları üçün xarici amillərin yaratdığı problemlər üzündən rifah quruluşlarını pisləşdirmək istəmirlər.Avropa Birliyi ölkələrində sığınacaq tapmayan suriyalılar Türkiyəyə köç etməyi qərara almışlar. Bu durum müxtəlif səbəblərdən əmək bazarına təsirlərini göstərmişdir. Qaçqınların əmək bazarına mənfi təsirlərinin əsas səbəblərindən biri kimi suriyalı sığınacaq axtaranlar üçün lazımi tədbirlərin görülməmısidir.

Miqrasiya rəhbərliyin statistikasına görə 2017 ci il etibarı ilə, sığınacaq axtaranların 253,583-ü və ya 8,5 faizi onlar üçün hazırlanmış sığınacaq mərkəzlərində yaşayırlar. Qalan 2. 725. 412 nəfər yəni 91,5 faizi isə, Türkiyənin ümumi ərazisinə yayılmışdır. Həmçinin araşdırmalarına əsasən suriyalılar arasında gənclərin çoxluq təşkil etdiyi öyrənilmişdir.

**Cədvəl 1: 2017 ci ildə Türkiyədəki suriyalı qaçqınların yaş və cins tərkibi göstəricisi**

| YAŞ | KİŞİ | QADIN | TOPLAM |
|---|---|---|---|
| 0- 14 | 574,378 | 535,399 | 1,109,7777 |
| 15- 24 | 386,236 | 306,522 | 692,758 |
| 25- 34 | 297,323 | 232,810 | 533,130 |
| 35- 44 | 164,257 | 143,323 | 307,580 |
| 45- 54 | 94,231 | 88,434 | 182,755 |
| 55- 64 | 47,879 | 48,194 | 96,073 |
| 64 + | 28,463 | 31,451 | 59,914 |
| TOPLAM | 1,592,862 | 1,386,331 | 2,978,995 |

**Mənbə:** https://multeciler.org.tr/turkiyedeki-suriyeli-sayisi-aralik-2017/

2017 ci ildə qaçqınların 53,4 faizi kişilər, 46,6 faizi isə, qadınlar təşkil etmişdir. Ümumiyyətlə qaçqınlar arasında ən çox işləyən yaş aralığı 0- 14 yaş aralığıdır. Buda təxminən 37,2 faiz təşkil edir. 15- 24 yaş aralığında çalışanlar isə, 23,25 faiz təşkil edir.

Rəsmi araşdırmalar görə suriyalı qaçqınların ən çox çalışdığı iş sahəsi toxuculuqdur. Toxuculuq sənayesindən sonra ən çox çalışdıqları sektor kənd təsərrüfatıdır. Ən çox çalışdıqları üçüncü sahə isə, təmizlik və buna xas olan xidmət yönümlü sahələrdə çalışırlar.

2014 cü ildə Hacettepe univeristeti “Miqrasiya və Siyasi Tədqiqatlar Mərkəzi tərəfindən təsis edilmiş Türkiyədəki Suriyalılar İctimai Qəbul və Uyğunlaşması Araşdırması” nəticələrinə görə, əhalinin 70,8 faizi Türkiyə iqtisadiyyatına və əmək bazarına ziyan vurduğunu açıqlamışdır. Suriyalıların iqtisadiyyata və məşğulluq bazarına dolayı şəkildə təsir etdiyi söylənilmişdir. Qaçqınların əmək bazarına dolayı təsirlərindən biri infliyasiyadır. İşsizlik və infliyasiya arasında tərs əlaqə mövcuddur. Bunu ilk dəfə 1958 ci ildə A. Philips aşkarlamışdır. Sonradan Türkiyədə Uysal və Ərdoğan (2003), Bayraq (2013), Şəntürk (2014) kimi tədqiqatçılarda bunu isbatlamışdır. İnfliyasiya ilə, işsizlik arasında ki, bu tərs nisbət işsizliyin azalmasına kömək edir. (Qısa müddətli dövrdə). Artan daxili tələbat sayəsində istehsal amili genişlənir və əmək amilinə tələb artır nəticədə yeni məşqulluq imkanları əldə olunur.

Suriyalıların əmək bazarına dolayı təsirləridən biri Suriya və Türkiyə vətəndaşlarının evlilikləri göstərilir. Subay türk kişilərinin suriyalı gənc qadınlarla evlənməsi sosial problemlərlə yanaşı iqtisadi problemlərə də səbəb olur. Qaçqınların ən çox cəmləşdiyi vilayətlərdən biri Kilis vilayətidir. Kilisdə boşanmaların təxminən 20 faizi Suriya vətəndaşlarının adı ilə, bağlıdır. Şanlıurfa, Kilis, Qaziantepdə Patriarxal ailə quruluşudur. Orada dolanışıq valideynlərinin birinin yəni, atanın işi hesabına təmin ounur. Boşanma hallarından sonra evlilik dövründə işçi qüvvəsi kimi iştira etməyən qadınlar boşandıqdan sonra işçi qüvvəsinə qoşulduqda və iş axtarışı təşəbbüsündə iştirak etdikdə iş təklifi artır və nəticədə bu təklif işsizlik nisbətinə təsir edir.

Suriyalıların əmək bazarına digər dolayı təsiri kirayə haqqının artmasıdır. Türkiyənin hazırladığı düşərgələrdə müxtəlif səbəblərdən qalmaq istəməyən və ev kirayələyərək sığınacaq seçən suriyalı qaçqınlar üzündən mənzil kirayəsinə tələb artdı. Kirayələrin artması ilə, bərabər xərclərdə artır. Ailələrin bu xərci qarşılması çətinləşir və bu vəziyyətdə də ailədəki digər şəxslərim iş axtarma potensialı artır. Sosial iş axtarış fəaliyyətinin artması iş təchizatının vəziyyətini çətinləşdirir.

Suriya vətəndaşları özlərinə ayrılmış düşərgələrdə yaşamağı üstün tutmadıqlarından yaşadıqları şəhər və rayon mərkəzlərində ictimai asayiş problemi yaranır. Bu çətinliklər yerli əhalinin bir hissəsini başqa şəhərlərə köç etməyə məcbur

edir. Bu miqrasiya ölkə daxilində Friksiyonal işsizlik yaradır. Nəticədə məşqulluq siaysətinin effektivliyini azaldır və işsizlik siyasətinin effektivliyini azaldır və işsizlik səviyyəsini artırır. Ümumiyyətlə günümüzdə Türkiyədə yaranan bu problemlər dövlət qarşısında duran ən mühüm problemlərdəndir və problemlərin mənfi təsirlərini azaltmaq üçün bir çox tədbirlər görülməkdədir.

Münaqişə bir neçə kanal vasitəsilə əmək təchizatına təsir göstərə bilər. Birincisi, müharibə zamanı münaqişəyə məruz qalan ərazilər əhəmiyyətli dərəcədə zədələnmiş olsaydı, işsizlik səviyyəsini artıran məşğulluq imkanları da itirmiş ola bilər. Killingsworth (1983) iş dövrü ərzində yüksək işsizlik dərəcələri ilə əlaqəli iki təsiri müzakirə edir.

Birincisi, "işdən çıxmış işçi təsiri" dir, burada işçi qüvvəsinin iştirak nisbəti iş axtaran işsiz yaşlarında işsizlərin sayının artması ilə qismən azalır.

İkinci təsir "əlavə işçi effekti" adlanır. İşsiz qalan kişilər əvəzinə əmək bazarına qadınlar daxil olur və beləcə əlavə işçi effekti yaranır.

1991-ci ildə müstəqillik qazandıqdan dərhal sonra Tacikistana 1992-ci ilin əvvəlində başlayan və 1998-ci ildə bitən uzun müddət davam edən silahlı qarşıdurma səbəb olan şiddətli vətəndaş müharibəsi baş verdi. Müharibə dövlət və özəl mülkiyyətin əhəmiyyətli dərəcədə məhvinə səbəb oldu. Paytaxt Düşənbə və cənub bölgəsi Hatlon və Respublika tabeçiliyində olan rayonlar (RRS) müharibə və onu müşayiət edən terror, ağır sui-qəsdlər, girov götürmə, təcavüzlər, qətllər və soyğunçuluq hadisələrindən ciddi şəkildə təsirləndi. Hökumət münaqişəni müstəqil şəkildə özündə saxlaya bilmədi və 1992-ci ildən 1999-cu ilə qədər Rusiya və Özbəkistan tərəfindən verilmiş siyasi və hərbi yardım üçün danışıqlar apardı. Tacikistanın bəzi bölgələri, məsələn, Xatlon, Respublika tabeçiliyində olan bölgələr və ölkənin paytaxtı Düşənbə, münaqişədən çox təsirləndi, digər bölgələr, məsələn, Sugd və Dağ-Badakşon Muxtar Vilayəti nisbi sabitliyə sahib oldu.

1992-1998-ci illərdə baş vermiş silahlı münaqişə ölkənin fiziki infrastrukturuna ciddi ziyan vurdu və insan və sosial kapitalının çox hissəsini məhv etdi. Döyüşün ilk ili ən çox zərər gətirdi. Rəsmi hökumət mənbələrinə görə, 1992-ci ilin sonlarına

qədər ölkə sənayesinin 80 faizi məhv edildi. Sənayenin yüzdə 80 faiz-inin məhv edildiyi cənubda daha çox  kənd təsərrüfatına da ciddi təsir göstərildi.

Münaqişənin insan itkiləri Tacikistan əhalisi üçün əhəmiyyətli idi. Döyüşlərlə əlaqəli ən böyük həyat itkisi 1992-1993-cü illərdə, 50.000 ilə 100.000 arasında dəyişirdi.  1991-ci ildə Sovet İttifaqının dağılması iqtisadi problemləri daha da ağırlaşdırdı. Münaqişə zamanı müxtəlif  hərbi qüvvələr və hökumət, cənubda yerləşən bir çox kənd təsərrüfatı və sənaye mərkəzlərinin nəzarəti üzərində mübarizə apardılar. Əhalinin 10 faizi (600.000 nəfər) məcburi köçkün oldu, bir faizi müvəqqəti olaraq qonşu dövlətlərə keçdi. 500.000 nəfər daimi köç etdi. Bir çox məcburi köçkün 1995-ci ilə qədər yaşayış yerlərinə qayıtdı. Döyüşlər infrastrukturun məhvinə və rabitə və nəqliyyatın kəsilməsinə səbəb oldu. Müharibənin ilk illərində insanların kütləvi şəkildə yerdəyişməsi Tacikistanın cənubundakı kənd təsərrüfatı və sənaye istehsalına həmçinin bu bölgələrdə işçi çatışmazlığına səbəb oldu.

Müharibə və cinayət fəaliyyətinin artması uşaqların təhsilini pozdu,lakin müharibənintəsirləri bölgələr üzrə fərqlənirdi. Xatlon bölgəsində, Kurqan-Tube şəhərində və ətraf ərazilərdə 1992-1993-cü tədris ilinin rəsmi başlanğıcını iki ay gecikdi. Münaqişə zamanı Tacikistandakı məktəblərin təxminən 20 faizi təmir edilmədən məhv edildi və bir çox müəllim müharibədən zərər çəkmiş bölgələrdən qaçdı.

Münaqişədən təsirlənən bir çox bölgədə qadınlar ya rəsmi işə girərək ya da müxtəlif gəlir gətirən fəaliyyətlərlə məşğul olaraq ev təsərrüfatlarına qayğı göstərməli idilər, çünki kişilər məcburi qanun layihəsindən qaçmaq, köçmək və ya ölmək üçün gizlənirdilər.

Bu dövrdə Münaqişəyə məruz qalan ərazilərdə kişilərin təxminən 45.4% -i işləmədikləri məlum olmuuşdur.

**Mənbə: (**Olqa N. Şemyakina. Tacikstanda əmək bazarı, Təhsil və Hərbi münaqişələr)

Çin respublikasında da hərbi münaqişələr baş vermişdir. Ölkəyə güclü mənfi təsirlər göstərmişdir və bu tarixə Çin vətəndaş müharibəsi kimi tarixdə qalmışdır. Müharibə Çin respublikası ilə, ölkədə yaşayıb fəaliyyət göstərən kommunistlərin arasında baş vermişdir. Bu savaş 1927 ci ildən başlayaraq 23 il davam etmişdir.

Müharibə nəhayət 1950 ci ildə sülh müqaviləsi ilə başa çatmışdır. Bu zamanlarda minlərlə insan həlak olmuşdur. İqtisadiyyatın fəaliyyəti kəskin şəkildə aşaöı düşərək istehsal sferasını çökdürmüşdür. Bunun məntiqi nəticəsi kimi milyonlarla insan işsiz vəziyyətdə qalmışdır. Sülh müqaviləsindən sonra ölkədə canlanma yaşanmışdır. Çin dünyanın ən güclü iqtisadiyyatına malik olan ölkələr arasında ilk pillələrdə görünür.

İspaniyada da vətəndaş müharibəsi baş vermişdir. Müharibə 1936 ci ildə başlanmışdır. Vətəndaş müharibəsi 3 il davam edərək 1939 cu ilin aprelində sona çatmışdır. Münaqişə İspaniya krallığı ilə, General frankonun başçılığ etdiyi diktatorlar arasında baş vermişdir. Bu müharibə Generalın qüvvələrinin qələbəsilə başa çataraq ölkədə diktatora rejimini yaratmışdırlar. Bu müharibə zamanı təxminən 500 min insan həlak olmuşdur. Çoxlu sayda insan yaralanmışdır. Bu ərəfələrdə ölkənin iqtisadiyyatı çətin duruma düşmüşdür.

General frankonun başçılığ etdiyi diktatora rejimi 1975 ci ildə onun olümü ilə başa çatmışdır. Ondan sonra isə, hakimiyyətə Burbon monarxiyası gəlmişdir. Nəticədə monarxiya rejimi bərpa edilmişdir.

Bütün bu olanlar istər daxili münaqişələrin, istərsədə xarici dövlətlərlə baş verən müharibələr ölkənin statusuna, durumuna, vəziyyətinə çox ağır zərbələr endirir. Silahlı müharibələr  infarstrukurun, iqtisadi durumun, əmək bazarının-məşqulluğun, insan resurslarının məhv olmasına gətirib çıxardır. Yuxarıda göstərilən münaqişələrin hər birindən sonra ölkələrdə iqtisadi durum gərginləşmiş, əmək bazarında gərginlik əmsalı artmışdır. Məşğulluq sahəsinin zəifləməsi bu sahədə fəaliyyət göstərən qurumların fəaliyyətinədə ağır zərbələr ednirir. Nəticədə bu qurumlar işçilərin haqlarını qorumaqda çətinliklər çəkirlər və bunun sayəsində iş yerlərində iş saatları artırılır, maaşlar vaxtında ödənilmir və nəhayət işə götürən tətərf işçinin sosial təminat öhdəliklərində boyun qaçırdır. İş saatlarının artırılması işçiyə vurulan ən ağır zərbələrdəndir. Çünki müharibə alovu yaşıyan bir ölkədə onsuz  da vəziyyət gərgin olur. İş saatların artırılması, aclığın artması hamısı münaqişənin təsirlərinin nəticəsidir. Analoji hallar istər Çində, istər Tacikstanda istərsədə İspaniyada münaqişə zamanı müşahidə olunmuşdur.

Münaqişələr  tarix boyunca nəzər yetirsək daim dağıntıya, tələfata səbəb olmuşdur. Bu dağıntılar iqtisadi fazadan, həmçinin əmək bazarından da yan keçmir. Konfliktin aktiv fazası başa çatdıqdan sonra görüləcək müəyyən işlər vardır. İstər dağıdılmış binaları bərpa etmək, istər iqtisadi fazanı əvvəlki duruma yüksəltmək istərsədə məşğulluq faizinin ölkə ərazisində nisbətini yüksəltmək. Təbii ki, bərpa işləri əvvəlkindən daha yaxşı konsepsiyasına əsaslanaraq bərpa olunur. Məşğulluğun bərpa edilməsi münaqişə baş vermiş ölkədə bir qədər çətindi. Bunun əsas səbəbi kimi onu qeyd edə bilərik ki müharibənin aktiv fazasında çoxlu sayda ixtisaslı kadrların, iqtisadi cəhətdən fəal əhalinin bir qismi ya həlak ola bilir, yada əllillik bəlasına düçar olur. Təbiiki bu cür hallar əmək bazarının inkişafına təsirsiz ötüşməyə bilməz. Münaqişə baş vermiş ölkələrdə əmək bazarını dirçəltmək üçün müəyyən tədbirlərin görülməsi məqsədəuyğun olardı. Buraya aşağıdakıları aid edə bilərik.

- Respublikada özəl sektorların, firmaların, zavodların, fabriklərin inkşafına dəstəyin göstərilməsi. Buraya daha çox kiçik müəssisələrin inkişafına dəstək daha məqsədəuyğun olardı, çünki kiçik müəssisələr respublikada baş verə biləcək dəyişikliklərə cəld reaksiya göstərə bilər.

- Məşğulluq qurumları ilə əhali arasında mütamadi əlaqlərin qurulması üçün imkanların yaradılması. Buraya əsasən əmək yarmarkalarının keçirilməsi aiddir. Bu prosesin aparılması zəruridir, beləcə dialoq prosesi vasitəsilə məşğulluğun möhkəmlənməsinə nail olmaq olar.

- Ölkə ərazisində müəyyən əmək standartlarının tətbiq edilməsi.

- Özəl sektorlara investisiya yatırmalarının artılmasına nail olmaq. Bu məşğulluğun möhkəmlənməsinin ən vacib şərtlərindən hesab edə bilərik. İnvestiya yatırımları artarsa, ölkədə işsiz əhalinin müəyyən hissəsi məhz burada çalışa bilərlər. Və s.  Yuxarıda sədalanan fikrilərin əsas məqsədi makroiqtisadi, sektoral, hüquqi və institusional proqramları təmin etməklə yüksək keyfiyyətli məşğulluğun davamlı böyüməsinə şərait yaratmaqdır (file:///C:/Users/user/Downloads/5227107a4.pdf, səh 30)

# II FƏSİL. ERMƏNİSTAN AZƏRBAYCAN MÜHARİBƏSİNİN AZƏRBAYCAN ƏMƏK BAZARINA TƏSİRLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.1. Hərbi münaqişənin ölkənin sosial iqtisadi və məşğulluğuna təsirlərinin öyrənilməsi

İşğalın ümümi nəticələrinin qiymətləndirilməsi mürəkkəb bir proses sayılır. Bunu ayırd etmək üçün iqtisadi və sosioloji sahəhələri sektorlara bölmək lazımdır.

Ziyan və zərərin dəyərləndirilməsi üçün aşağıdakı fikirləri diqqətdən keçirmək lazımdır.

1) Sahə və ya sektorlarda işğala qədərki vəziyyətin müəyyənləşdirilməsi

2) İşğaldan sonra dəymiş zərərlərin müəyyən olunması

3)İşğalın mənfi nəticələrinin respublikaya vurduğu ümümi ziyanın müəyyənləşdirilməsi

İtki və zərərin qiymətləndirilməsi işğaldan əvvəlki və sonraki nəticələrlə müqayisə olunaraq müəyyən olunur. İtki və zərərə səbəb olan müharibələr ölkənin sosial iqtisadi duumunu ciddi ziyanlar vurur.

Mənzil sektorunda təkcə mənzillər deyil, həmçinin onun içində olan əşyalar, qızıl zinət əşyaları, pul vəsaitləri də məhv olunur. Bu sektora dəymiş zərər və ziyanları qiymətləndirmək üçün aşağıdakı məlumatlardan istifadə etmək lazımdır.

1) Mənzillərin şəhər və yaxud kənd ərazilərində yerləşməsi

2) Mənzillərin tikinti və təmir məsrəflərinin müəyyən edilməsi

3)Mənzillərin içində olan ev əşyalarının, qızıl zinət əşyalarının, pul vəsaitlərinin həcminin müəyyən edilməsi

Bu məlumatları ölkənin statistika komitəsindən və ya region mənzil kommunal təsərrüfat birliyindən əldə etmək olar.

İşğaldan sonra bu sahədə görüləcək işlər çoxdur. Əvvəlcə müharibə zonalarına müşahidə qrupları göndərilməlidir. Onlarda öz növbəlrində dağıdılmış mənzillər, əşyalar haqqında məlumatlar verirlər. Tamamilə məhv olmuş və yaxud qismən ziyan dəymiş evlərin, binaların sayı müəyyən olunur.

Ümumiyyətlə işğal olunmuş ərazilərdə mənzillərlə bağlı olan ziyan və zərərlər həmçinin çəkilən məsrəflərəşağıdakılardır.

1) Torpaqların işğalda oması ilə, əlaqədar olaraq olaraq insanların düşərgələr qurub sığınacaqlarda sığınmaqları üçün kifayət qədər torpaqların olmaması

2) Salınmış düşərgələrə su, qaz, elektrik xətlərinin çəkilməsinə çəkilən xərclər

3) Müharibə zamanı dağıdılmış yollara görə müvəqqəti salınmış düşərgələrin ərzaq təminatında ciddi problemlər yaradacaqdır. Ona görədə yolların bərpa olunması prioritet məsələdir və yolların təmirinə, hazırlanmasına çəkilən xərclər

4) Dağıdılmış evlərin tamamilə sökülməsinə və ekologiyanın təmiz saxlanilması üçün çəkilən xərclər

5) İşğaldan sonra mənzillərin, yaşayış binalarının təmirinə, yaxud inşasına çəkilən xərclər və s.

İşğal zamanı ziyan vurulan sosial sahələrdən biridə təhsil sektorudur. Bu sektor qiymətləndirilərkən məktəblərə, univeristetlərə, kolleclərə vurulmuş ziyanlar araşdırılmalı və daha sonra məcmu hala gətirmək lazımdır. Digər sahəlrdə olduğu kimi bu sahədədə binaların, avadanlıqların təmiri əvvəlkindən daha yaxşı konsepsiyasına əsaslanacaqdır. Təhsil sektoruna dəymiş zərər və ziyanları aşağıdakı kimi nəzərdən keçirtmək lazımdır.

1) İşğalın nəticəsində təhsil binalarının məhv olması ilə, vurulan zərərlər

2) Binaların içərisində olan texniki avadanlıqların, təhsil materiallarının, oturacaq və masaların məhv olması nəticəsində dəymiş ziyanlar

3) Təhsil nazirliyinin əvvəlcədən nəzərdə tutduğu iş qrafikinin sıradan çıxması

4) Univeristetlərə abituriyentlərin qəbul sayının aşağı düşməsi

5) İşğal zamanı çoxlu sayda müəllimlərin, ixtisaslı kadrların, univeristet tələbələrinin həlak olması və s Bunların hər biri təhsil sektoruna vurulan ziyanlardandır.

Bu məlumatları ölkənin statistika komitəsindən və yaxud təhsil nazirliyindən əldə etmək mümkündür.

Digər sektorlar kimi bu sahədədə işğaldan sonra görüləcək işlər çoxdur. İlk öncə podratçı şirkətlər cəlb olunmalı, onlara görüləcək işlər barədə məlumatlar

verilir. Qismən zədələnmiş binalar təmir olunaraq istifadəyə verilir. Müharibədən sonra təhsil sahəsində görüləcək işlərə aşağıdakıları aid etmək olar.

1) Qismən dağıdılmış binaların tamamilə sökülməsi, daha sonra ərazidə yaranan natəmizliyin, ekoloji gərginliyin aradan qaldırılması

2) Təhsil nazirliyi tərəfindən vəziyyətə uyğun olaraq iş qrafikinin qurulması

3) Təhsil prosesini davam etdirmək üçün müvəqqəti düşərgələrin salınması

4) Müəllim və yaxud kadr çatışmazlığı səbəbindən əlavə işçilər cəlb olunmalı

5) Müharibə vaxtı şəhid olan olan müəllimlərin əvəzlənməsi üçün yeni müəllimlərin hazırlanması və s. Aiddir.

İşğalın respublikaya mənfi nəticlərini makroiqtisadi səviyyədədə müşahidə etmək mümkündür.

A) Məktəblərin, univeristet binalarının təmiri üçün xarici ölkələrdən idxal olunan mal- material xərcləri

B) İşğal olunmuş ərazilərin təhsil müəssisəlrində çalışan insanların işsiz qalması

İşğal zamanı ən güclü mənfi təsirlərin toxunduğu sahə məhz səhiyyə sektorudur. Müharibə zamanı bu sahənin üzərinə ikiqat məsuliyyət düşür. Bir tərəfdən yaralı insanları müalicə etmək, digər tərəfdən isə, dağıntılardan, epidomoliji xəstəliklərdən qorunmaq. Epidomoliji xəstəliklər deyərkən işğal zamanı yaranan ekoloji natəmizlikdən, tələf olan insanların cəsədlərinin çürüməsi ilə, izolyasiya tədbirlərinin zəif olması nəticəsində yayılan xəstıliklərdir.

Bu sahədə yaranan çətinliklər digər sahələrdən iki qat daha artıqdır. Bunlara aid olaraq səhiyyə binalarının dağıdılması, digər tərəfdən həmin şəraitdə yaralılara yardım etmək. Ümumiyyətlə səhiyyə sektoruna vurulan zərərlərə aşağıdakıları aid etmək olar.

1) Xəstəxanalara, tibbi obyektlərə vurulan ziyanlar

2) Obyektlərin içərisində olan tibbi dəzgahların və avadanlıqların məhv olması

3) Apteklərin, xəstəxanaların dağıdılması nəticəsində məhv olmuş dərman perparatlarının həcmi

4) Səhiyyə sahəsinin həddən artıq iş yükünə məruz qalması nəticəsində kadr çatışmazlığı ilə, üzləşmək

5) Keçirici xəstəliklərin artması nəticəsində nəzarətin, monitorinqlərin həyata keçirilməsi üçün çəkilən xərclər

İşğalın aktiv dövründə yaranan çətinliklər zamanı bir çox sahələrdə olduğu kimi səhiyyə sahəsində də problemlər meydana çıxır. Buna səbəb həm xəstə sayının artması, həmdə avadanlıqların məhv olması, dərmanların kifayət etməməsi və s. Aid etmək olar.

Bu sahədə də işğaldan sonra görüləcək işlər çox olacaqdır. Vurulmuş hər bir ziyan araşdırılır və fərdi qiymətləndirilir. Səhiyyə sektorunda da hər şeyin bərpası əvvəlkindən daha yaxşı konsepsiyasına əsaslanır. İşğaldan sonra zədəlnmiş və dağıdılmış səhiyyə binalarının sayı, məhv olmuş dərman perparatlarının həcmi, məhv edilmiş avadanlıqların sayı və s. müəyyən edilir.

İşğalın aktiv dövründən sonra dəymiş zərəri qiymətləndirmək üçün aşağıdakıları nəzərə almaq lazımdır.

1) İşğal hesabına il ərzində nəzərdə tutulduğundan da daha çox səhiyyə xərclərinin çıxması

2) Tibb işçilərin, həkimlərin iş vaxtından artıq işlədiklərinə görə onlara ödənilən əlavə əmək haqqı

3) Yaralıların sayının çox olması səbəbindən cəlb olunan əlavə tibbi personala ödənilən əlavə əmək haqqı xərcləri

4) Dərman və tibbi avadanlıqlara tələbin artması ilə, onlara olan tələbin təmin olunmasına çəkilən xərclər

5) Dağıdılan tibbi mərkəzlərinin ətrafını təmizləmək, ekoloji təmizliyin bərpasına çəkilən ərinxərclər

6) Tibbi obyektlərin yenidən təmir xərcləri

Səhiyyə sahəsində yaranan çətinliklər ölkənin makroiqtisadi durumunada təsirsiz ötüşmür. Buna səbəb çəkilməsi vacib olan xərclərdir. Bunlara aşağıdakıları aid etmək olar.

1) Binaların təmir olunması üçün xaricdən idxal olunan mal- material xərcləri

2) Tibbi avadanlıqların idxalına çəkilən xərclər

3) Kadr çatışmazlığı səbəbindən həkimlərə hər əlavə saat müqabilində ödəniş xərcləri

İşğalın aktiv dövründə vurulan zərər və ziyanlardan biridə kənd təsərrfatına vurulur. Kənd təsərrüfatı özü bir neçə sahəyə ayrılır. Onlardan biridə bitkiçilikdir. Bitkiçilik sahəsi işğal zamanı demək olarki, heç bir səviyyədə məhsul istehsal edə bilmir. Nəticədə ölkə əhalisinə mənfi təsirlər göstərir. Bu sahədə vurulan ziyanlara aşağıdakılarl aid etmək olar.

1. Bitkiçilik üçün təyin olunmuş torpaqların məhv olması

2. Bu sahənin infrastrukturunun tamamilə məhv edilməsi

3. Suvarma sisteminin məhv olması

4. Kənd təsərrüfat avadanlıqlarının məhvi

5. Təsərrüfat tikililərinin və binalarının dağıdılması

6. Təsərrrüfat sahələrinə çəkilən yolların dağıdılması və s.

İşğaldan sonra dağıdılmış infrastrukturun hər biri ayrılıqda analiz olunur və qiymətləndirilir. İşğaldan sonra aşağıdakı hallarla rast gəlmək mümkündür.

1. Bitkiçiliyin inkişafının zəiflənməsi nəticəsində istehsalın azalması

2. Avadanlıq çatışmazlığı səbəbindən məhsulun keyfiyyətinin aşağı düşməsi

3. Çoxillikbitkilərin məhv olması

4. İşğaldan sonra bu sahədə intensiv inkişafa ehtiyacın duyulması

Bitkiçiliyin məhv olması dövlətə mənfi makroiqtisadi təsirlər göstərir. Bunlara aşağıdakıları aid etmək olar.

1. Bitkiçiliyin inkişafı üçün dövlət tərəfindən çəkilən xərclərin boşa getməsi

2. Binaların, tikililərin, anbarların, avadanlıqların dağıdılmasına görə yenidən xaricdən mal- materialın idxal olunması

3. Bu sahənin ÜDM- də payının azalması

4. İxrac potensialının aşağı düşməsi

5. Məşğulluğun səviyyəsinin aşağı düşməsi

İşğalın ağır nəticələrini qiymətləndirərkən kənd təsərrüfatının heyvandarlıq sahəsi də güclü şəkildə araşdırılır və qiymətləndirilir. Bu sahənin

qiymətləndiriləsinin bitkiçiliklə oxşarlıqları vardır. Heyvandarlıq cəmiyyətin sosial-iqtisadi rifahının yaxşılaşdırılması üçün əvəzsiz rola malikdir. Heyvandarlıq sahəsində zərər və ziyanlara aşağıdakıları aid etmək olar.

1. Heyvanların məhv olması

2. Örüş üçün nəzərdə tutulan torpaqların yandırılması hesabına həmin torpaqlardan bir daha istafədisinin çətinləşdirilməsi

3. Qış fəsilində heyvanlar  üçün nəzərdə tutulan ərzaq və yem tədarükünün məhv edilməsi

4. Avadanlıqların tamamilə sıradan çıxarılması

5. Tövlələrin, fermaların dağıdılması və yaxud qismən dağıdılması

Bu sektorda işğaldan sonra görüləcək işlər çoxdur. Bu sahəni qiymətləndirərkən müharibədən əvvəlki göstəriciləri öyrənmək lazımdır. Bu sahəyə dəymiş ziyan qiymətləndirilərkən aşağıdakı məlumatları bilmək lazımdır.

1. Tələf olmuş mal- qaranın sayı

2. Zədələnmiş örüş torpaqlarının ərazisi

3. Orta illik süd, ət məhsullarının həcmi

4. Tamamilə məhv edilmiş və yaxud qismən dağıdılmış avadanlıqların sayı

5. Məhv olmuş tikililərin sayı və s.

Bu məlumatları ölkənin kənd təsərrüfatı nazirliyindən öyrənmək mümkündür.

Turizm sənayesi bir çox ölkələrin əsas gəlir mənbəyidir. İşğalın zərərli təsirləri bu  sənaye sahəsinədə təsirsiz ötüşmür. Müharibə zamanı kurort- turizm ərazilərininin, hava limanlarının dağıdılması və yaxud işğal olunması bu sahəyə dəyən mənfi effektlərdəndir. Ümumiyyətlə bu sahəyə dəyən mənfi təsirlərə aşağıdakıları aid etmək olar.

1. Ölkə ərazisində müharibə baş verdiyindən işğalın yenidən bərpa ola biləcək qorxusu səbəbilə, xarici vətəndaşların bu cür ölkələrə səyahət etmək istəklərinin olmaması

2. İşğalın aktiv fazasında turizm obyektlərinin dağıdılması

3. Müharibənin aktiv zamanında landşaftların, regionun ekoloji durumunun pisləşməsi

4. İşğal vaxtı tarixi abidələrin, muzeylərin, məscidlərin dağıdılması və s.

Bu sahənində bərpası əvvəlkindən daha yaxşı konsepsiyasına əsaslanır. Turizm sahəsinin mənfi təsirləri makroiqtisadi duruma təsirsiz ötüşmür. Bunlara aşağıdakıları aid etmək olar.

1. Ölkəyə səfərlərin azalması nəticəsində ölkənin ÜDM- də geriləmənin müşahidə olunması

2. Dağıdılmış turizm obyektlərinin, tikililərin təmiri və yenidən təmirinə çəkilən xərclər

İşğalın mənfi təsərrüfatı su təsərrüfatınada təsirsiz ötüşmür. İlk öncə kənd təsərrüfatı üçün tikilən su anbarları, avadanlıqların məhvi bu sahəni iflic vəziyyətinə salır. Həmçinin bu durumda içməli su problemi belə yaranır. Buna səbəb çayların, anbarların, göllərin hər birinin ayrı- ayrılıqda çirkləndirilməsi və yaxud dağıdılmasıdır. İşğalın aktiv fazası başa çatdıqdan sonra aşağıdakı işləri görmək məqbul sayılır.

1.İşğaldan sonra ortaya çıxan problemlər araşdırılmalı və qiymətləndirilməlidir.

2. Vurulan zərər və ziyanlar barədə aidiyyatı dövlət qurumlarına məlumat verilməlidir.

3. Daha sonra çayların, göllərin, su kanallarının təmizlənməsi və bərpası işlərinə başlanılmalıdır.

4. Dağıdılmış, yararsız hala salınmış anbarların, kanalların, tikililərin bərpasına başlanılmalıdır.

**Mənbə:** F. Mikayılov, N. Məmmədov, R. Quliyev. İşğal nəticəsində dəymiş zərərlərin qiymətləndirilməsi metodologiyaları.

Yuxarıda sadaladıqlarımızın hər biri Azərbaycan- Ermənistan müharibəsi zamanı müşahidə etmək mümkündür. Mənfur Ermənistan ordusu tərəfindən yüzlərlə məktəblər, səhiyyə avadanlıqları, təsərrüfat malları, turizm obyektləri məhv edilmiş həmçinin çoxlu sayda insan tələfatına səbəb olmuşdurlar. Bu münaqişə 1988ci ildən başlayaraq indiki günümüzə qədər davam edir. Münaqişənin aktiv fazasının artması ermənilərin Azırbaycanın tarixi torpaqlarına qarşı ərazi iddialarınında artmasına

səbəb olmuşdur. Nəticədə ölkəmizə qarşı çoxlu sayda hücümlar, soyqrımlar həyata keçirmişdirlər və onların hücümlarının nəticəsi ölkənin sosial- iqtisadi durumuna mənfi təsirlər göstərmişdir.

Dağlıq Qarabağ uğrunda gedən döyüşlər zamanı ölkənin sosial- iqtisadi durumu olduqca çətin duruma düşmüşdür. Çoxlu sayda sahə və sektorlara zərər və ziyanlar vurulmuşdur. Müharibənin aktiv fazasının başa çatmasından sonra aparılan tədqiqat araşdırmalar nəticəsndə məlum olmuşdurki ölkəyə 25 mlrd manata yaxın ziyan dəymişdir. Ziyan və zərərlər araşdırılarkən hər bir sahə və sektorlar ayr-ayrılıqda öyrənilmişdir.

Dağlıq Qarabağın Ermənistan tərəfindən işğalı zamanı mənzil sektoruna güclü ziyanlar vurulmuşdur. İşğaldan sonra həmin ərazilərdə birdənə belə olsun salamat mənzil qalmamışdır. Bu zaman vurlan zərərlər təkcə mənzillərə deyil mənzillərin içərisində olan əşyaların, sənədlərin, pul vəsaitlərinin məhvinə gətirib çıxartmışdır.

1994 cü ildə atəşkəs bərpa olunduqdan Ümumilli Lider Cənab Heydər Əliyev tərəfindən evləri, mənzilləri dağıdılan, həmçinin məcburi köçkün halına düşmüş soydaşlarımızı daim diqqət mərkəzində saxlamışdır. Onların hər bir problemi oyrənilmiş və dərhal bu problemi aradan qaldırmağa çalışmışlar. Həmin insanların 90 faizindən çoxu mənzillərlə təmin olunmuşdur. Hətta Umumilli Liderin vəfatından sonra hakimiyyətə gələn prezident Cənab İlham Əliyevdə bu siyasəti davam etdirərək istər şəhid ailələrinə, istərsədə məcburi köçkünlərin evlərlə təmin olunmasını həyata keçirtmişdir. Bu günkü günümüzdədə bu siyasət həyata keçirilir və keçiriləcəkdir.

İşğalın aktiv dövründə vurulan digər ziyanlar məhz təhsil sahəsidir. Dəymiş ziyanlar təkcə təhsil ocaqlarına deyildir. Bu zaman çoxlu sayda müəllimlər, şagirdlər, ermənilər tərəfindən qətlə yetirilmişdir.

İşğal zamanı 100 mindən çox şagiridin təshsil aldığı 590dan çox məktəb düşmən tərəfindən dağıdılmışdır.

Vurulmuş ziyanlar səhiyyə sektrondanda yan keçməmişdir. Bu sektroun çoxlu sayda binaları, avadanlıqları, aptekləri vəhşicəsinə dağıdılmışdır. Ermənilər işğalın aktiv fazasında 650 - dən çox səhiyyə tikintisi dağıdılıb məhv etmişdirlər.

Ermənilərin Dağlıq Qarabağ uğrunda apardığı döyüşlər zamanı səhiyyə sektoruna vurduğu ziyanın miqdarı 1mlrd manatdan artıq olmuşdur.

Ermənistan Dağlıq Qarabağı işğal edərkən ölkənin sənaye potensialına çox güclü mənfi zərbələr endirmişdir. Çünki həmin dövrün əsas sənaye potensialına malik olan ərazilər məhz Qarabağda yerləşirdi.

Azərbaycanın Ermənistanla münaqişəsindən əvvəl dağlıq ərazilərdə yerləşən rayonların sənaye potensialının artırılması barədə qərarlar qəbul edilmişdir. Bunun məntiqi nəticəsi kimi həmin ərazilərdə sənaye və iqtisadiyyat tərəqqiyə malik olmuşdur. Həmin ərazilərdə çox yaxşı müəssisələr tikilmiş və avadanlıqların hər biri işlək vəziyyətdə olmaqla fəaliyyətə başlamışdır.

İşğalın aktiv dövründə bütün bu sənaye müəssisələri, avadanlıqları, anbarları ermənilər tərəfindən dağıdılmışdır. İşğal altında qalan zavod və firmalar ölkənin iqtisadiyyatında vacib rol oynayırdı. Burada demək olarki sənayenin bütün sahələri inkişaf etmişdir. Həmin illərdə Dağlıq Qarabağda 200- dən artıq sənaye müəssiələri fəaliyyət göstərirdi.

Bildiyimiz kimi bu ərazilərdə iki iqtisadi coğrafi rayon yerləşmişdir. Bunlar Kəlbəcər- Laçın və Yuxarı Qarabağ iqtisadi rayonlarıdır.

Bu ərazidə sənaye və tikinti materiallarının 35 faizdən çoxu Yuxarı Qarabağ iqtisadi coğrafi rayonun payına düşürdü. Kəlbəcər- Laçın iqtisadi rayonunda bu sahə bir qədər zəif inkişaf etmişdir. Bu ərazi mineral suların bol olması ilə, məşhurdur. 1980 cı illərdə Kəlbəcər rayonunda bulaqların çox olması səbəbilə burada sudoldurma fabriki tikilmişdir. Həmin zavod gündəlik 100 min litr su istehsal etməyi bacarırdı. Amma erməni işğalından sonra bu zavod xarabalığa çevrilmişdir.

Regionda sənayenin inkişaf etməsi səbəbilə orada yüksək səviyyədə kommunkiasiya obyektləri yaradılmışdır. Həmçinin yüksək səviyyədə avtomobil yolları, körpülər, işıq xətləri, su xətləri, qaz xətləri və s. Obyektlər tikilmişdir.

Orada yüksək səviyyədə avtomobil yolları, körpülər, işıq xətləri, su xətləri, qaz xətləri və s. Obyektlər tikilmişdir.

İşğal zamanı 30 min km- ə yaxın avtomobil yolları, 150- dən çox körpülər, 2 mindən çox transformator, 15 min km- dən çox qaz xətləri, 35- ə yaxın paylayıcı

avadanlıqlar, minlərlə telefon stansiyalar, 250 km- ə yaxın kanalizasiya xətləri düşmən tərəfindən dağıdılmışdır. Əlbəttəki ermənilərin bu dağıntıları respublikaya çox güclü ziyanlar vurmuşdur. Bunlarla yanaşı ermənilər Azərbaycana aid olan 4 havalimanı, çoxlu sayda dəmir yollarını ələ keçirtmişdirlər. Yuxarıda qeyd etdiyimiz statistikalar Qarabağ zonasının nə dərəcə yüksək infrastruktura malik olduğunu göstərir. Təkcə onu qeyd edə bilərik ki, düşmən ölkə işğal zamanı 300- dən çox sənaye obyektini məhv etmişlər.

Qarabağ zonasında təkcə ağır sənaye inkişaf etməmişdir. Orada yeyinti və yüngül sənayedə imkişaf etmişdir. Ölkə üzrə ən yüksək xam ipək istehsalına malik idi. Həmçinin şərabçılıq üzrədə Qarabağ regionu ölkə üzrə öndə gedən regionlardan idi. Lakin ermənilərin oranı işğal etməsi həm sənaye, həm də kommunikasiya sahələrinin məhvinə gətirib çıxartmışdır.

İşğal zamanı zərər vurula biləcək digər sahə kənd təsərrüfatıdır. Kənd təsərrüfatı hər bir ölkənin əsas iqtisadi sahəsi sayılır. Respublikamızda da kənd təsərrüfatı inkişaf etmiş sahələrdəndir. Həmdə Qarabağdada. Bunun ən başlıca səbəblərindən biri 1960 cı illərdən başlayaraq Dağlıq- Qarabağda bu sahəyə diqqət artırılmışdır. Bu ərazilərdə bunun inkişafı üçün əlverişli imkan da vardır. Lakin Ermənistan silahlı qüvvələrinin buranı işğal etməsi inkişafın qarşısını tamamilə almışdır. Onlar bu əraziləri işğal edərkən 100- lərlə təsərrüfat obyektlərini tamamilə dağıtmışdırlar. Bunları aşağıdakı cədvəldə də görmək mümkündür.

**Cədvəl 2: 1990 cı illərdə Ermənistan ordusu tərəfindən Dağlıq Qarabağda dağıdılmış müəssisələrin sayı**

| İşğal edilmiş ərazilər | Kənd təsərrüfatı müəssisələri | Sovxozlar | Kolxozlar |
|---|---|---|---|
| Kəlbəcər- Laçın | 110 | 52 | 47 |
| Yuxarı Qarabağ | 102 | 33 | 39 |
| DQMV | 99 | 43 | 49 |

**Mənbə:** https://files.preslib.az/site/karabakh/gl1.pdf, səhifə 106

Dağlıq Qarabağdan 600 mindən çox məcburi köçkün vardır. Həmin məcburi köçkünlər üçün ərazilərinin dəyişdirilməsi ciddi problemdir.

Dağlıq Qarabağda kəndə təsərrüfatının əkinçilik və maldarlıq sahəsi inkişaf etmişdir. Bu ərazilər taxılçılq, pambıqçılıq, kartofçuluq, üzümçülük, ət, süd,

yumurta, yun, barama istehsalına görə ön sıralarda idi. Bu ərazilərdə bir il ərzində istehsal olunan məhsulun miqdarı aşağıdakı kimi idi.

**Cədvəl 3: 1990 cı illərdə Dağlıq Qarabağda bir il ərzində istehsal olunan kənd təsərrüfatı məhsullarının həcmi (min tonla)**

| İşğal edilmiş ərazilər | Pambıq (min ton) | Kartof (min ton) | Taxıl (min ton) | Üzüm (min ton) | Yumurta (min ədəd) | Ət (min ton) | Barama (min ton) | Süd (min litr) |
|---|---|---|---|---|---|---|---|---|
| DQMV | --------- | 2765 | 100 | 71,8 | 11,1 | 10,2 | 89,0 | 36,5 |
| Kəlbəcər-Laçın | --- ------ | 165 | 15,3 | 19,2 | --------- | 3,6 | 96,4 | 13 |
| Yuxarı Qarabağ | 20,5 | 18 | 82,1 | 143,3 | 3,4 | 5,6 | 661 | 26 |

**Mənbə:** https://files.preslib.az/site/karabakh/gl1.pdf, səhifə 107

İşğaldan sonra bütün bu göstəricilər aşağı düşmüş və ya tamamilə məhv olmuşdur. İşğal zamanı 150- dən artıq şərabçılıq müəssiəsi, 3400-dən çox əkin traktoru, 7 mindən çox su qurğusu, 650 min hektar yaralı torpaq sahəsi, minlərlə km-dən artıq kənd təsərrüfat suvarma kanalları məhv edilərək dağıdılmışdır.

Ermənistanın 1988 ci ildən Azərbaycana qarşı olan ərazi iddiaları ölkəmizin tarixi abidələrinində dağıdılmasına zəmin yaratmışdır. Ölkəmizə aid olan Azıx və Tağlar mağaraları hərbi baza kimi istifadə olunur. Bunlarla yanaşı Üzərlitəpə, Qaraköpək mağaraları eyni məqsədlər üçün istismar olunur. Mənfur ermənilər bunlarla yanaşı bizə aid olan qəbirstanlıqları, məscidləri, türbələri, abidələridə vəhşicəsinə dağıtmışlar.

İşğal edilmiş ərazilərdə respublikamızın turizm potensialınada güclü zərbələr endirilmişdir. Ölkəmizə aid olan bir çox turizm əhəmiyyətli tarixi abidələri ələ keçirtmişlər.

Bildiyimiz kimi Qarabağın coğrafi mövqeyi olduqca əlverişlidir. Bir tərəfdən dağlar, digər tərəfdən meşələr həmçinin ən əsası heyrətamiz havası göz oxşuyandır. İstər Kəlbəcərin, istərsədə Şuşanın və başqa rayonlarımızın turizim gücü, potensialı olduqca yüksək olmuşdur.

Kəlbəcərdə tarixi abidə olan Zar mağazası yerləşir. İşğaldan sonra işğalçı Ermənistan ordusu oranı hərbi baza kimi istifadə edirdilər.

Kəlbəcərdə bundan əlavə istisu mineral bulağı vardır. Bulağın digərlərindən fərqli olması onun heyratamizliyini artırmışdır. Dağlıq Qarabağ ərazisi turizm ilə, göz oxşadığı qədər faydalı qazıntıları ilədə zəngin bir regiondur.

Kəlbəcər Rayonun da qızıl və civə kimi sərvətlərlə zəngindir. Erməni işğalından sonra bütün bu sərvətlərimiz işğal altında qalmışdır. Regionun işğalı zamanı 160- dan çox faydalı yataqlar, qızıl, civə, mis, qurğuşun, sink, sement xammalı, tikinti daşları, perlit, mineral su və başqa yataqları vardır.

20 ci əsrin 80- cı illərindən başlayaraq Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları başlamışdır. İddiaların ilk illərində çoxlu sayda soydaşımız Ermənistan və Xankəndində qovulmuşdur. Proseslər artdıqca ermənilər rezpublikamızın ərazi bütövlüyünü sual altında saxlamağa çalışırdılar. Bunun nəticəsində müxtəlif illərdə 12 rayonumuz işğal olunmuşdur. Buraya Xankəndi, Xocalı, Şuşa, Laçın, Xocavənd, Kəlbəcər, Ağdərə, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonlaarı aiddir. İşğal zamanı minlərlə insan qətlə yetirilmişdir. Təkcə Xocalı soyqrımı zamanı 600 nəfərdən artıq mülki əhali qətlə yetirilmişdir.

1990 cı illərdə Dağlıq Qarabağın işğal olunması Azərbaycanın məşğulluq bazarına təsirsiz ötüşmədiyini bildirmişdik. Çoxlu sayda müəssisələrin dağıdılması, əhalinin doğma yerlərindən didərgin düşməsi bunların hər biri məşğulluğun inkişafına mane olan bariz faktorlardandır. Əmək bazarının zədələnməsi ölkənin inkişafına birbaşa olaraq mənfi təsir göstərir. Bu problemləri aradan qaldırlmaq üçün müəyyən məşğulluq proqramları vardır buraya aşağıdakıları aid edə bilərik.

1. Makroiqtisadi və maliyyə siyasətinə, aktiv əmək bazarına, əmək qanunvericiliyinə və investisiya siyasətinə və məşğulluq yaradan sektor siyasətlərinə dəstək.
2. Maliyyə sektorunun və biznesin inkişafı xidmətlərini dəstək göstərilməsi.
3. Məşğulluğun, sosial müdafiənin və əmək inzibatçılığının digər aspektlərini artıran əməklə əlaqəli qurumların təşviqi. Bu proqramlar sosial dialoqla dəstəklənməli və yoxlanılmalıdır və s. file:///C:/Users/user/Downloads/5227107a4.pdf,səh 30)

Respublikamızın əraziləri təxminən 30 ilə qədər işğal altında qalmışdır. BMT torpaqlarımızın işğaldan azad olunmasını tələb edən 4 qətnamə qəbul etmişdir. Lakin Ermənistan höküməti bu qətnamələrin tələblərini yerinə yetirməyərək torpaqlarımızı işğal altında saxlamağa davam edirdilər. Lakin 27 sentyabr 2020 ci ildə iki ölkə arasında başlanan müharibə Ermənistan ordusuna ağır zərbələr endirmişdir. Buna tab gətirə bilməyən düşmən ölkənin ordusu 10 noyabr 2020 ci ildə məğlub olduqlarını söyləyərək 3 tərəfli müqavilə imzalanmışdır. Müqaviləni Azərbaycan, Rusiya və Ermənistanın ölkə rəhbərləri imzalamışdırlar. Müqaviləyə görə işğal altında olan ərazilərimiz işğaldan tam azad olunmuşdur.

Bu günki dövrümüzdə dövlətimiz tərəfində qaçqın və məcburi köçkünlərə ayrıca olaraq diqqət yetirilir. Onların hər bir problemi dövlətimiz tərəfindən öyrənilir və dərhal həmin problem aradan qaldırılır. Onlara sosial- iqtisadi cəhətdəndə dəstək verilir. Onlar işğaldan azad olunmuş ərazilərə qayıtmaqlarını səbirsizliklə gözləyirlər. Onlar üçündə dövlət tərəfindən bu şərait yaxın gələcəkdə yaradılacaqdır. İşğal zamanı və ikinci Qarabağ müharibəsi zamanında evləri dağıdılmış insanlara dövlət tərəfində müavinətlər veriləcək, evləri tam təmir olunaraq onların təhvilinə veriləcəkdir.

Yuxarıda söyldiklərimiz insanların maddi cəhətdən daha yaxşı yaşaması məqəsdilə həyata keçirilir və həyata keçiriləcəkdir. İnsanların yaşayış səviyyəsi öz doğma yurdlarına tam qayıtdıqdan sonrada dahada yaxşılaşacaq.

## 2.2 İşğal olunmuş bölgələrdə əmək bazarının strukturunun və ixtisaslaşma səviyyəsinin öyrənilməsi

Dağlıq Qarabağ Azərbaycanın qərbində və Ermənistanın şərqində yerləşir və Laçın dəhlizi ilə sonuncuyla əlaqələndirilir. Dağlıq Qarabağ münaqişəsinin tarixi XX əsrin əvvəllərinə təsadüf edir. İki millət arasında ilk etnik qarşıdurma 1905-ci ildə Bakıda başlamış, daha sonra Şuşa, Gəncə, Naxçıvan, İrəvan və digər şəhərlərə yayılmışdır. Qanlı toqquşmaların ikinci mərhələsi 1918-ci ildə başladı və sovet işğalına qədər davam etdi. Hər iki dövlət rəsmi olaraq 1922-ci ildə SSRİ-yə qoşuldu. 1923-cü ildə Azərbaycan SSR-nin tərkibində Dağlıq Qarabağ Muxtar Respublikası quruldu.

Təxminən bir milyon insanın yerlərini tərk etməsinə səbəb olan hadisələr 1988-ci ildən başlandı. SSRİ-də liberallaşma siyasəti etnik münaqişələrin böyüməsi ilə nəticələndi və Dağlıq Qarabağ erməniləri Azərbaycandan ayrılma kampaniyasına başladılar. Başlanğıcda kiçik olan toqquşmalar 1992-ci ildə geniş miqyaslı müharibəyə çevrildi. Azərbaycan bir neçə il ərzində tədricən Dağlıq Qarabağ və ətraf 7 rayonu itirdi. 1994-cü ildə Bişkek Protokolu ilə iki dövlət arasında barışıq razılaşması əldə edildi. Rəsmi rəqəmlərə görə, Azərbaycan ərazilərinin təxminən 20 faizini itirdi. Atəşkəs razılaşmasına baxmayaraq, atəşkəs bu günə qədər pozulur. Atəşkəs razılaşmasından sonra 2-5 aprel 2016-cı il tarixlərində baş verən geniş miqyaslı qanlı qarşıdurma çox sayda itki ilə nəticələndi.

Rəsmi məlumata görə, hər iki tərəf tərəfindən birlikdə 150-yə yaxın əsgər öldürüldü. Tanklar və helikopterlərin də olduğu çox sayda döyüş maşınının məhv edildiyi bildirildi. Ümumilikdə, Dağlıq Qarabağ münaqişəsində ölənlərin sayı 30 minə yaxın idi. Azərbaycanın rəsmi rəqəmlərinə görə, Ermənistandan, Dağlıq Qarabağdan və ətrafdakı 7 rayondan bir milyona qədər insan qaçmışdır ki, bunların da 700 mini məcburi köçkündür. Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzDövlət Komitəsi (bundan sonra Komitə) 1,2 milyondan çox qaçqının vətənlərini tərk etdiklərini, bunlardan 800 mininin məcburi köçkün olduğunu bildirdi. Dağlıq Qarabağ münaqişəsi həlli çox mürəkkəb görünən münaqişələrdən biri hesab olunur.

24 Mart 1992-ci il tarixində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Konfransının (indiki Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı kimi tanınan ATƏT) Helsinki iclasında Dağlıq Qarabağla bağlı xüsusi konfransın çağırılması istənildi və konfransın Minskdə keçirilməsinə qərar verildi. Bu konfrans keçirilməsə də, 1994-cü ildə Budapeştdə ATƏT-in zirvəsində ATƏT-in Minsk qrupu yaradıldı. Bu qrupun məqsədi münaqişənin sülh yolu ilə həllinə nail olmaq idi, lakin bu günə qədər öz missiyasını yerinə yetirə bilmədi. Qrupun həmsədrləri ABŞ, Rusiya və Fransadan olan səfirlərdir.

Qaçqınlarla bağlı beynəlxalq konvensiya mövcud olsa da, məcburi köçkünlərlə bağlı belə bir sənəd yoxdur. Bununla belə, məcburi köçkün hüquqları məcburi olan beynəlxalq və regional insan hüquqları sazişləri və konvensiyaları ilə qorunur. Onlara təsdiq edilmiş və ya onlara qoşulan dövlətlər bu hüquqları təmin etmək üçün öhdəliklər götürmüşlər.

Lakin məcburi köçkünlərin hüquqlarının ayrı bir beynəlxalq sənədlə qorunmasına ehtiyac var idi. BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı ofisi tərəfindən bu mövzuda başladılan təşəbbüs, daxili köçürülmə ilə bağlı rəhbər prinsiplərin hazırlanaraq Komissiyaya təqdim olunması ilə nəticələndi. Məcburi köçkün hüquqlarının qorunması üçün həlledici sənəd olan bu sənəd BMT qurumları, bəzi insan hüquqları QHT-ləri və dövlətlər tərəfindən standart olaraq qəbul edilir. Bu sənəd məcburi olmasa da, müddəaları BMT-nin müqavilələrindən və beynəlxalq beynəlxalq hüquqdan irəli gəldiyindən prinsiplər ayrıca məcburi hesab edilə bilər. Azərbaycan bu müqavilələrdə iştirak etdiyi üçün Rəhbər Prinsiplərdə təsbit edilmiş müddəalar, dolayısı ilə, bunun üçün məcburidir. Üstəlik, bu sənəd BMT Baş Məclisi tərəfindən məcburi köçkün hüquqlarını qoruyan vacib bir hüquqi sənəd kimi qəbul edilmiş və məcburi köçkün problemi ilə üzləşən dövlətlərə müraciət etmələri tövsiyə edilmişdir. Bəzi dövlətlər onsuz da bu aləti öz milli qanunvericiliyinin bir hissəsi halına gətirmişlər. Sənəd 30 prinsipdən ibarətdir və insanların köçkün olmasının qarşısını almaq, köçkün olduqları təqdirdə hüquqlarını qorumaq, onlara humanitar yardım göstərmək və ləyaqətlə öz yerlərinə könüllü qayıtmalarını təmin etmək niyyətindədir.

Təəssüf ki, Avropa səviyyəsində də məcburi köçkün hüquqlarını qoruyan hər hansı bir qanuni sənəd yoxdur. Lakin Avropada məcburi köçkünlərin hüquqları Avropa Konvensiyası ilə qorunur. Azərbaycan bu konvensiyanın razılığa gələn bir dövləti olduğundan, onun təmin etdiyi hüquqlar və konvensiya əsasında yaradılan bir məhkəmə orqanı olan Avropa İnsan Hüquqları Məhkəməsinin qərarları Azərbaycan üçün məcburidir.

Dövlətlərin milli qanunvericiliyi məcburi köçkün hüquqlarının qorunmasında mühüm rol oynayır. Məcburi köçkünlərin hüquqları, ilk növbədə, Azərbaycan Respublikasının Konstitusiyası ilə təmin edilmişdir. Dağlıq Qarabağdan və ətraf bölgələrdən olan məcburi köçkünlər Azərbaycan vətəndaşları olduqları üçün konstitusiyada təsbit edilmiş hüquq və azadlıqlar məcburi köçkünlərin hüquqlarını da qoruyur. Məcburi köçkünlərin hüquq və azadlıqlarını tənzimləyən əsas qanunlar "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulanların sosial müdafiəsi haqqında" qanunlardır. Birincisi məcburi köçkün statusu almaq və itirmək, onlara iş və ev təmin etmək, ikincisi müvəqqəti məskunlaşma, məşğulluq, sosial müdafiə, sağlamlıq hüququ, məcburi köçkünlərin təhsil hüququ, nəqliyyat, kommunal ödənişlər və onlara verilən digər imtiyazları tənzimləyir. Səlahiyyətli şəxslərin bildirdiyinə görə 1993-cü ildən 2018-ci ilə qədər məcburi köçkün hüquqlarını tənzimləyən 23 qanun parlament tərəfindən qəbul edilmiş, prezident tərəfindən 43 fərman və sərəncam imzalanmış və Nazirlər Kabineti tərəfindən 192 fərman və qərar təsdiq edilmişdir (http://idp.gov.az/az/law/106/parent/15)

Köçkünlərin ilk günlərində məcburi köçkünlər müxtəlif yerlərdə - inzibati binalarda, məktəblərdə, məcburi köçkün olmayanların və müharibə səbəbi ilə Azərbaycanı tərk etmiş ermənilərin, çadır şəhərciklərinin və digər yerlərə uyğun və ya yararsız olmasından asılı olmayaraq məskunlaşdılar. Beynəlxalq təşkilatların maliyyə yardımı ilə Azərbaycan hökuməti neft gəlirlərinin artması ilə məcburi köçkünlərin mənzil problemlərini həll etməyə başladı. Dövlət rəsmiləri müsahibə və açıqlamalarında minlərlə məcburi köçkün ailəsi üçün çox sayda yeni qəsəbə, müasir

ev və bina tikildiyini və mənzil hüquqlarının təşviqi və sosial müdafiəsinin təmin olunması ilə bağlı bir çox layihənin həyata keçirildiyini vurğulayırlar.

Prezidentin «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğun təşviqi üzrə Dövlət Proqramı» nın təsdiq edilməsi barədə Sərəncamına əsasən, müvafiq dövlət strukturlarının vəzifəli şəxsləri məcburi köçkünlərin ictimai binalardan, mənzillərdən, torpaq sahələrindən və digər yerlərdən qovulmasına yönəlmiş cəhdlərə dözməmək səlahiyyətlərini verdilər, 1992-1998-ci illər arasında, vətənlərinə qayıtdıqdan və ya müvəqqəti yaşamaq üçün yeni yaşayış məntəqələrinə və evlərə köçənə qədər mülkiyyətlərindən asılı olmayaraq müvəqqəti olaraq işğal etdikləri. Proqramın çadır şəhərciklərinin qaldırılması və 2007-ci ilin sonunadək yeni yaşayış məntəqələri salınması da nəzərdə tutulub. Rəsmi məlumata görə, 2008-ci ilə qədər Füzuli, Biləsuvar, Ağdam və Ağcabədidə çadırda yaşayan 4179 məcburi köçkün ailəsi üçün yeni qəsəbələrin salınması təmin edilmişdir. Saatlı və Sabirabaddakı düşərgələr və İmişlidəki dəmir yolu vaqonlarının yanında Sabirabad və Saatlıdakı çadır düşərgələrinin qaldırılması tamamlandı. Buna baxmayaraq bu sahədə çətinliklər hələdə görünməkdədir.

Rəsmi mənbələrin verdiyi məlumata görə, 1999-cu ildə əmək qabiliyyətli 301359 məcburi köçkündən 196380 nəfər məcburi köçkün işsiz kimi qeydiyyata alınıb. 2001-2008-ci illərdə işsizliyin azaldılması istiqamətində görülən tədbirlər nəticəsində işləyən məcburi köçkünlərin sayı 277174 nəfərə çatdırılmışdır.

Hazırda 380 min əmək qabiliyyətli məcburi köçkün vardır ki, bunlardan da 200 min nəfəri daimi işlə təmin olunmuşdur, 160 min məcburi köçkün mövsümi işlə təmin edilmişdir. Komitənin məlumatına görə, məcburi köçkünlər arasında yoxsulluq səviyyəsi 2003-cü ildə 75% idisə, hazırda bu rəqəm 12% -dir. Kənd yerləri ilə şəhərlər arasında işsizlik nisbəti dəyişir. Böyük şəhərlərdə, xüsusən də Bakı və Sumqayıtda məşqulluğun səviyyəsi daha yüksəkdir. Əlbəttəki məcburi köçkün əhalisinin arasaında məşğul şəxslər olduğu kimi işsiz olanlarda vardır. Dövlət tərəfindəndə onlara daim diqqət yetirilir. Məcburi köçkünlərin Sosial müdafiəsi həmişə dövlət tərəfindən ön planda olmuşdur. Buna uyğun olaraq müəyyən insanlar işsizliyə görə müavinət alanlar vardır. Bu baxımdan işğal olunmuş

bölgələrdə işsizliyə görə işsizlik müavinətləri alan insanların dinamikası aşağıdakı kimi dinamik olaraq dəyişmişdir.

**Cədvəl 4: 2005 – 2019 cu illər ərzində Yuxarı Qarabağ iqtisadi rayonunda işsizliyə görə müavinət alanların sayı**

| **Yuxarı Qarabağ iqtisadi rayonu** | 2005 | 2015 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| Cəbrayıl | 33 | 21 | 89 | 12 | 1 |
| Füzuli | 32 | 5 | 6 | 3 | 4 |
| Ağdam | 31 | 7 | 54 | 2 | --- |
| Tərtər | 17 | 10 | 34 | 1 | 5 |
| Xocalı | 6 | 4 | 10 | --- | --- |
| Şuşa | 13 | 7 | 18 | 2 | 3 |
| Xocavənd | 9 | 3 | 14 | 1 | 2 |
| Xankəndi | --- | --- | --- | --- | --- |
| **Cəm** | **141** | **57** | **225** | **21** | **15** |

**Mənbə:** https://www.stat.gov.az/source/labour/

**Cədvəl 5: 2005 – 2019 cu illər ərzində Kəlbəcər- Laçın iqtisadi rayonunda işsizliyə görə müavinət alanların sayı**

| **Kəlbəcər-Laçın iqtisadi rayonu** | 2005 | 2015 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| Kəlbəcər | 15 | 8 | 57 | 3 | 6 |
| Laçın | 18 | 8 | 64 | 21 | 11 |
| Qubadlı | 7 | 13 | 63 | 47 | 5 |
| Zəngilan | 13 | 6 | 20 | 10 | 6 |
| **Cəm** | **53** | **35** | **204** | **81** | **33** |

**Mənbə:** https://www.stat.gov.az/source/labour/

Azərbaycanın bir çox bölgəsində məşğulluq imkanlarının az olması məcburi köçkünlərə də təsir göstərir. Gənc məcburi köçkünlər üçün, məşğulluq vəziyyəti daha kritikdir, çünki BƏT tərəfindən 2004-cü ildə aparılan bir araşdırma "25 yaşın altındakı gənclər digər yaş qruplarına nisbətən xeyli yüksək işsizlik dərəcəsinin" olduğunu göstərdi. Xüsusilə şəhər yerlərində olan gənc qadınlar üçün işsizlik nisbətlər daha yüksək idi.

1997 və 2002-ci illərdə Dünya Bankı tərəfindən aparılmış yoxsulluq tədqiqatları yerli əhalinin məcburi köçkünlərə nisbətən yüksək əmək haqqı

səviyyəsinə sahib olduğunu aşkar etdi. Məsələn, 2002-ci il tədqiqatında yerli gəlirlərin 76% -i məşğulluqla əlaqəli fəaliyyətlərdən olduğu halda, məcburi köçkünlərin yalnız 39-48% -i maaşlı işdən əldə edildiyi müəyyən edilmişdir. BƏT-in 2004-cü ildə apardığı araşdırmaya görə, məcburi köçkünlər arasında işsizlik nisbəti 70 faizdir. Hökümət rəsmiləri görüşlər zamanı işsizliyin məcburi köçkünləri təsir edən ən aktual problemlərdən biri olduğunu təsdiqlədilər. Bu, eyni zamanda əmək nazirliyinidə, davamlı bir həll olmadığı təqdirdə, iş imkanlarının yaradılması lazım olduğunu missiyasına həyata keçirtməyə sövq etdi.

Keçmiş Sovet İttifaqında Azərbaycan əvvəllər kənd təsərrüfatı məhsulları və ərzaq məhsullarının istehsalçısı olmuşdur. Ölkədə mövcud olan çox miqdarda mikroiqlim, kifayət qədər su qaynağı ilə birlikdə güclü kənd təsərrüfatı ənənəsinə və müxtəlif məhsulların (məsələn, pambıq, tütün, çay, meyvə və tərəvəz) istehsalına və işlənməsinə gətirib çıxardı. Sovet İttifaqının dağılmasından sonra bazarların itirilməsi və kənd təsərrüfatı infrastrukturunun pisləşməsi kənd təsərrüfatı istehsalının azalmasına səbəb oldu. Nəticə etibarilə yalnız az miqdarda Azərbaycan kənd təsərrüfatı məhsulları ixrac olunur.

Kənd yerlərində yaşayan məcburi köçkünlər üçün məşğulluq vəziyyəti dramatikdir, çünki kənd təsərrüfatı məhsuldarlığı ümumilikdə aşağıdır və məcburi köçkünlərə ayrılan torpaqlar əksər ailələri davam etdirə biləcək qədər böyük deyil, ümumiyyətlə keyfiyyətsizdir və yüksək dərəcədə şoranlığa malikdir. Ödənişsiz kənd təsərrüfatında ailə işi də üstünlük təşkil edir. Bəzi məcburi köçkünlərin özlərini tapdıqları kənd yerlərində təsərrüfat xaricində iş praktik olaraq mövcud deyildir, yalnız məhdud sayda ticarət və xidmət sahələrində (məsələn, dərzilik və saç kəsmə) öz işlərini göstərmək istisna olmaqla.aşağı gəlir təmin edin.

Hökumət tərəfindən maliyyələşdirilən yeni yaşayış məntəqələrinə köçmüş köçkünlər də daxil olmaqla kənd yerlərində yaşayanlara torpaq ayırma səylərinə baxmayaraq məcburi köçkünlər arasında əraziyə giriş məhduddur. Araşdırmalara görə, məcburi köçkünlərin yalnız az bir hissəsi (9-17%) və ya (22% -i Bakıdan kənarda) torpaq əldə etmək imkanına malikdir, məcburi köçkün olmayan vətəndaşların demək olar ki, yarısı torpaq sahəsinə sahibdir və ya əldə edir. Torpağa

çıxışı olanlar da kənd təsərrüfatında istehsal baxımından evlərindən ayrılan ərazilərə qədər olan məsafədən, mərkəzi Kür-Arak vadisinin bəzi hissələrindəki və torpaq sahələrindəki zəif torpaq şəraitindən və kənd təsərrüfatı girişlərinin olmamasından əziyyət çəkirlər. Məcburi köçkünlərə ayrılmış kiçik sahələr və yoxsul torpaqlar baxımından onlar yerli sakinlərdən daha az ev istehsalı qida istehlak edirlər.

Azərbaycan qanunvericiliyinə görə, məcburi köçkünlərin məşğulluğu üçün nəzərdə tutulmuş Dövlət Proqramlarından və dövlətin iş axtarış yardımından faydalanaraq yerli əhali ilə müqayisədə əmək bazarında üstünlük təşkil edirlər. Bundan əlavə, hökumət məcburi köçkünlərə kiçik miqyaslı infrastrukturun bərpasına kömək etmək üçün hazırlanmış Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunu (SFDI) təsis etmişdir.

Bu səylərə və Azərbaycanın böyüməkdə olan iqtisadiyyatına baxmayaraq, milli işsizlik yüksək olaraq qalırdı və 2005-ci ilin statistikasına görə, iqtisadiyyatın əhəmiyyətli sahələrindəki maaşlar minimum əmək haqqına bərabər və ya ondan az idi, bu da məcburi köçkünlərin iş tapmaq və kifayət qədər gəlir əldə etmək qabiliyyətinə təsir edirdi. yaşayış səviyyələrini əhəmiyyətli dərəcədə yüksəltməkdən ötrü məcburi köçkünlər üçün çoxlu sayda iş yerləri açılaraq işsizliyin səviyyəsini aşağı salmağa çalışmışlar.

Kənd yerlərindəki məcburi köçkünlər və şəhər yoxsulları məhdud məşğulluq imkanları səbəbindən çox təsirlənirlər. Bir çoxları yüksək işsizliyi əsas çətinliklərindən biri hesab edirlər. İqtisadi fürsətlərin azlığı bir çox məcburi köçkün kişini iş axtarmaq üçün şəhər mərkəzlərinə, hətta Rusiyaya və digər ölkələrə köçməyə məcbur olurlar. Ağdam və Füzuli rayonlarının sahibsiz və ya azad edilmiş ərazilərində hökumət məskənlərinin yaradılması, köçürülən zaman iş tapmaq üçün yeni sənaye mərkəzləri fəaliyyətə başlamışdır. Tipik olaraq, məcburi köçkünlər bir sıra bacarıq və təhsil səviyyələrinə malikdirlər və gəlir əldə etmək üçün müxtəlif fəaliyyətlərlə məşğul olacaqlar. Bunlara ticarət, inşaat, təmizlik, təmir işləri, bağçılıq və ya əkinçilik kimi fəaliyyət növləridir. Bəziləri yerli dövlət idarələri və məcburi köçkünlər üçün məşğulluğun böyük hissəsini yaradan məcburi köçkün məskunlaşma müəssisələri ilə daimi işlərlə məşğuldurlar.

Azərbaycanda yaşayış xərclərinin artdığını nəzərə alaraq, məcburi köçkünlər - digər vətəndaşlar kimi az əmək haqqı və gündəlik əməyin qeyri-sabit gəlirləri ilə dolanmaq üçün mübarizə aparırlar. Bunun öhdəsindən gəlmək üçün məcburi köçkünlər gəlirlərini, təqaüdlərini və sosial yardımlarını toplamaqla və kredit götürməklə gəlirlərini artırmaq üçün qonşularına, qohumlarına və yaşlılara çox güvənirlər. Azərbaycan qanunvericiliyi məcburi köçkünlərə digər vətəndaşlarla bərabər şəkildə sosial təminat əldə etmək imkanı verir. Məcburi köçkünlər işsizlik və əlillik müavinətləri, təqaüdlər və analıq məzuniyyətləri almaq hüququna malikdirlər. Məcburi köçkünlər digər vətəndaşlarla müqayisədə məhdud vergi güzəştlərindən də faydalanırlar. Əvvəllər köçürülmədən əvvəl dövlət tərəfindən işləyən, lakin hazırda işsiz olanlar aylıq maaş almağa davam edirlər. Buna baxmayaraq, yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğun artırılması ilə bağlı Dövlət Proqramlarında xüsusi ehtiyacları olan məcburi köçkünlərin məşğulluğunu və rifahını təşviq etmək üçün xüsusi tədbirlər bu gündə görülür.

Azərbaycan Hökuməti məcburi köçkünlərə sosial təminat təmin etmək üçün əhəmiyyətli və təqdirəlayiq səylər göstərsə də, uyğun məcburi köçkünlərin hamısı praktik olaraq müavinətlərdən istifadə edə bilmirlər. Bunun səbəbi məcburi köçkünlərin dövlət orqanlarında qeydiyyata alınmaması və ya məcburi köçkünlərin müavinət meyarlarını yerinə yetirib-etməməsi ilə bağlı mübahisələrdir. Bu, xüsusilə zəruri sənədlərə və ya məsul orqanlara müraciət etməkdə çətinlik çəkən kasıb tək başlı ailələrə, yetimlərə və əlillərə kimi həssas qruplara təsir edir.

Qanuna görə, məcburi köçkünlər Azərbaycanda özünüməşğul olmaq imkanına malikdirlər. Məcburi köçkünlər qanunvericiliyə görə qeydiyyatdan keçmiş məcburi köçkünlərə əmək bazarına imtiyazlı giriş imkanı təmin edir, dövlət qurumları məcburi köçkünlərə qazanclı iş tapmaqda kömək etmək öhdəliyi götürürlər ki, bu da məcburi köçkünlərin əsas etibarı ilə dövlət peşə təhsili mərkəzlərinə və ya işgüzar məsləhət mərkəzlərinə daxil olurlar. Bundan əlavə, qanunvericilik məcburi köçkünlərə kənd təsərrüfatında çalışmaları üçün də torpaq sahəsi verilməsini təmin edir.

2007-ci ildə məcburi köçkünlər üçün yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğun artırılması üçün Dövlət Proqramında edilmiş dəyişikliklər hesabına xüsusilə məcburi köçkünlər üçün tikiş və ya xalçaçılıq kimi bacarıqları hesabına məşğulluq sahəlləri fəaliyyətə başlamışdır. Təbii ki, bu cür təsərrüfat sahələrinin bərpası və yaxud fəaliyyətə başlaması dövlət üçün heçdə asan deyildir.

Hökumət məcburi köçkünlərə torpaq sahələrinin müvəqqəti istifadəsi hüququ verilmişdir. Həmçinin məşğulluğun səviyyəsini artırmaq üçün onlara vergi güzəştləridə həyata keçirdir. Həmçinin məcburi köçkünlər meşələr və əkin sahələri kimi təbii ehtiyatlardan istifadədə xüsusi məhdudiyyətlərlə qarşılaşmırlar.

Azərbaycanda məşğulluğun yaradılması ümumi bir problem olsa da, qadın və gənclər daxil olmaqla, ən ucqar yaşayış məntəqələrində yaşayan məcburi köçkünlərin yaşayış imkanlarını genişləndirmək üçün məqsədyönlü yaşayış qiymətləndirmə və gəlir gətirmə fəaliyyətlərinin aparılması üçün daha çox iş bu gündə görülməkdədir. Dövlət qurumlarından məcburi köçkünlərin işlə təmin olunmasını tələb edən bir çox proqramlar işlənib hazırlanmışdır. Bu proqromlaşdırma işləri bu gündə işlənib hazırlanır. Məcburi köçkünlər çox sayda dövlət proqramından faydalanmışlar və bu proqramlar 1990cı illərin ortalarından həyata keçirlməyə başlanmışdır. Bu cür proqramlara güzəştli şərtlərlə mikro kredit və kreditlərin verilməsi, həmçinin bacarıq və peşə təhsili, biznes planların hazırlanması üzrə təlimlər və lazımi avadanlıqların verilməsi buraya aiddir. Mikro kreditlər insanlara kənd təsərrüfatını inkişaf etdirmək üçün, həmçinin sahibkarlıq fəaliyyətlərinə başlamaları üçün verilir.

## 2.3. İşğal nəticəsində qaşqın və məcburi köçkünlərin yerləşdiyi ərazilərdə əmək bazarının strukturunda baş vermiş dəyişikliklərin öyrənilməsi

İnkişaf edən dövrümüzdə bir çox dövlətlər öz ərazi və iqtisadi potensialını dahada artırmaq məqsədilə digər dövlətlərə qarşı ərazi iddialarına başlayaraq onların ərazilərini işğal edirlər. Nəticədə çoxlu sayda insan tələfatına və yaxud orada yaşıyan insanların qaçqın- məcburi köçkün halına düşməsinə səbəb olur.

Müasir günümüzdə dünyanın hər bir qitəsində, materikində, regionunda məcburi köçkünlərə rast gəlmək mümkündür. Əslinə baxsaq bu say hər gün artım tempinə malikdir.

Dünya üzrə ən çox qaçqınların sayına Afrika qitəsində rast gəlinir. 2018 ci il araşdırmalarına əsasən orada 25 mln- a yaxın qaçqın vardır. Onların ən çoxu Liviya, Mianmar, Cənubi Sudan, Suriya, Konqo, Niger, Nigeriya və s. Ölkələrdə rast gəlinir. Afrika Birliyi Kommisiyası bu çarəsizliyin qarşısını almağa çalışsalardaa məqsədlərinə nail ola bilmirlər.

Afrika qitəsində yaşıyan insanların 25%- i qaçqın statusuna malikdir. Hal hazırda orada yaşıyan insanların 15 mln-u qaçqın- məcburi köçkündür. Burada daxili miqrasiyada mövcuddur. Əhalinin əksəriyyəti iş tapmaq məqsədi ilə, ölkə ərazisində yaşıdığı şəhərdən digər şəhərlərə gedirlər. Bunun ən çox rast gəlindiyi ölkələrə isə, Sudan, Mali, Somali, Efiopiya, Kenya və s. Kimi dövlətlərdir.

Afrika qitəsində qaçqınların çox olmasının əsas səbəbləri kimi aşağıdakıları aid etmək olar.

1. Əhali arasında yaranan silahlı qarşıdurmalar
2. Afrikada quraqlığın və leysan yağışların ifrat dərəcədə olması
3. Cəmiyyətdə daha yüksək vəzifəyə malik olan insanlar tərəfindən əhaliyə şiddətin göstərilməsi
4. İnsan haqlarının pozulması
5. Son 30 il ərzində Sudanda vətəndaş müharibəsi baş verdi, Ruanda da soyqırım həyata keçirildi, Nigeriyada onlarla terror aktları baş verdi, həmçinin bu hadisələrin başqa ərazilərdə də baş verməsi Afrika materikin qaçqınların sayı üzrə ən yüksək saya malik olmasına gətirib çıxartmışdır.

Bu ərazilərdə əmək bazarının fəaliyyətidə gücsüz duruma düçmüşdür. Əhalinin əksəriyyəti qul kimi işlədilir. Əmək haqqı müqabilində isə, onlara yalnız bir parça çörək verilir. Dövlətlərin məşqulluq siyasəti demək olarki, fəaliyyət göstərmir. Regionda aclıq, səfalət günü- gündən artaraq, həyat fəaliyyəti kəskin olaraq pisləşir. Yoxsulluğun ən çox yayıldığı ölkələr Niger, Nigeriya, Sudan, Efiopiya, Mali, Somali, Mianmar və s. kimi dövlətlərdir (Prof. Dr. Melek M. Fırat. ANKARA ÜNİVERSİTETİ SOSİAL ELMLƏR İnstitutu Beynəlxalq əlaqələr Qərbi Afrikada təhlükəsizlik məsələləri. Nigeriya nümunəsi. Ankara 2017)

Ümumi olaraq söylədiyimiz kimi bütün dünyada qaçqınlara rast gəlmək mümkündür. Amerika, Avrasiya, Avstaraliya və Okeaniya, kimi ərazilərdə də mövcuddur. Məcburi köçkünlərlə bağlı bir çox maraqlı faktlar mövcuddur bunalar aşağıdakıları aid etmək olar.

1. Hal-hazırda təqiblər, qarşıdurma, zorakılıq və ya insan haqları pozuntuları səbəbiylə 79,5 milyondan çox insan məcburi şəkildə yaşadığı ərazilərdən didərgin düşmüşdür.

2. Dünyadakı hər 103 nəfərdən 1-i ya sığınacaq axtaran, məcburi köçkündür, ya da qaçqındır

3. Hər 4 saniyədən bir  bir nəfər  məcburi köçkün durumuna düşür. Bu, hər dəqiqədə 16 adamı ya da hər gün 23.800 adamı evlərindən məcburi köçürməkdir.

4. Qaçqınların% 85-i inkişaf etməkdə olan ölkələr tərəfindən qəbul edilir və hər 5 qaçqından 1-dən azı Avropada yerləşdirilir.

5. Qaçqınların% 68-i yalnız beş ölkədəndir: Suriya, Venesuela, Əfqanıstan, Cənubi Sudan və Myanmar

6. Keçən il Avropaya 128.536 nəfər gəldi: bir çoxu Aralıq dənizi boyunca təhlükəli marşrutla hərəkət edir və çox sayda insanın ölümü ilə, nəticələnir

7. Qaçqın və məcburi köçkünlər arasında uşaqlarında sayı heçdə az deyildir. 2019 cu ilin yanvar- dekabr ayları ərzində 9000 qaçqın uşaq Avropaya gətirilmişdir

8. İnsanların qaçqınlaşma prosesinin davam etdirməsi onların həyatları üçün olduqca təhlükəli bir hal almışdır. Onlar üçün təhlükəsizliyin təmin olunmaması

bunun üçün əsl səbəbdir. 2019-cu ildə 1885 kişi, qadın və uşaq Aralıq dənizini keçməyə çalışarkən həyatını itirmişdir

9. 2018-ci ildə İngiltərə AB-dəki bütün sığınacaq müraciətlərinin yalnız 6% -ni qəbul etdi - Almaniya və Fransa hər ikisi müraciətlərin sayının ən azı iki qatını qəbul etdi. Statistikalar göstərir ki, 2018 ci ilin iyun ayına qədər İngiltərəyə 625. 000 nəfər insan üz tutmuşdur (https://www.unhcr.org/globaltrends2019/)

Məcburi köçkün və qaçqınlardan danışarkən Azərbaycandan danışmamamq mümkün deyldir. Respublikamızda da xeyli sayda məcburi köçkün vardır. Bunun əsas səbəbi kimi 1980 cı illərin sonlarından ermənilərin Azərbaycanın tarixi torpaqlarına qarşı ərazi iddialarına başlamalarıdır. Nəticədə Azərbaycanın ərazilərinin 20%- i Ermənistan ordusu tərəfindən işğal olunmuşdur. İşğal edilmiş ərazilərə Dağlıq Qarabağ və onun ətrafındakı yeddi rayon aid idi. Baxmayaraq ki, 1988 ci ilə qədər ermənilərlə azərbaycanlılar birlikdə yaşayırdılar. Lakin baş verən hadisələrdən sonra iki ölkə arasında münasibətlər kəskin şəkildə pisləşərək düşmənə çevrilmişdirlər.

Hazırda respublikada 1 mln-a yaxın məcburi köçkün vardır. Məcburi köçkünlər respublikanın müxtəlif ərazilərinə sığınmışdırlar. Amma aparılan araşdırmalara əsasən onların əksəriyyəti Bakı, Sumqayıt şəhərlərində yaşayırlar. Hətta işğal olunmuş ərazilərin icra hakimiyyətliyi bu şəhərdə yerləşir. Buna misal olaraq qeyd edə bilərik ki, Qubadlı şəhərinin icra hakimiyyətinin binası və qanunvericiliyi Sumqayıt şəhərində yerləşir. Əlbəttəki bu təsadüfi olan bir hadisə deyil. İşğal olunmuş Qubadlı rayonun əksəriyyəti məhz bu şəhərdə yaşıyırlar.

1980 cı illərin sonlarından 1990 cı illərin ortalarına qədər Ermənistanın Azərbaycanla müharibəyə başlaması Azərbaycana kəskin şəkildə mənfi təsirlər göstərmişdir. İqtisadiyyatın durumu elə vəziyyətdə idiki, inflyasiya ifrat dərəcəyə gəlib çıxaraq Azərbaycan Manatını tamamilə dəyərdən salmışdır.

1993 cü il 15 iyun tarixində hakimiyyətə gələn Ümumimilli Lider Həydər Əliyev xalqın rifahı ilə, maraqlanaraq onlara yardım etməyə çalışmışdır. Ermənistan ordusu sirr deyilki, o dövrlərdə Naxçıvan Muxtar Respublikasının ərazilərinidə işğal altına salmaq istəyirdilər. Lakin Umumimilli Lider məsələyə cəld reaksiya verərək

bunun qarşısı almışdır. Heydər Əliyevin hakimiyyətə gəlməsi respublikanın əhalisinin, həmçinin məcburi köçkünlərin çətin durumdan çıxmağa kömək etmişdir. Bununla əlaqədar olaraq 15 iyun hər il respublikamızda “Qurtuluş Günü” kimi qeyd olunur.

1994 cü ildə bağlanan Əsrin Müqaviləsi respublikanın neft ixracını artıraraq iqtisadi potensialının artırılmasına hesablanmış bir addım idi. Əlbəttəki gözlənilənlər öz nəticə və töhfəsini vermişdir.

İllər ötdükcə aparılan araşdırmalar onu göstərir ki, məcburi köçkünlərin əksəriyyəti çətin həyat şəraitində yaşayırdılar. Onlar üçün böyük problem isə, mənzillərinin olmaması idi. Amma illər ötdükcə onların əksəriyyəti üçün evlər tikildi, qəsəbələr salındı, müvəqqəti yaşayış üçün mənzillər verildi. Onları bir çox təminatlardan azad etdilər. Məcburi köçkünlər kommunal xərclərdən də azad edilmişdir. Bunlardan əlavə onlar üçün respublikada güzəştli vergi siyasəti həyata keçirilir.

Respublika Ermənistanla məlum nünaqişələrdən sonra vəziyyətdən asılı olaraq ölkədə məşğulluq səviyyəsində gərginlik müşahidə olunurdu. İstehsal sferasının az bir hissəsinin fəaliyyət göstərməsi səbəbindən işsiz insanların sayı çox idi.İllər ötdükcə dövlətin həyata keçirdiyi islahatlar hesabına ölkədəki vəziyyəti stabilləşdirmək üçün addımlar atılırdı.

Ölkənin gəlirlərini artırmaq üçün kəndə təsərrüfatına, xüsusilədə əkinçilik və maldarlığa diqqət artırıldı. Xarici dövlətlərlə neft ixracını dahada artırmaq məqsədilə, Bakı- Tiflis- Ceyhan neft boru kəməri, Bakı- Novorossiysk neft boru kəməri, Bakı- Tiflis- Ərzurum təbii qaz kəmərləri və s. Çəkilmişdir.

Bunlardan əlavə illər keçdikcə Azərbatcan dövlətinin qarşısında duran əsas vəzifələrdən biri məşğulluq bazarnın inkişafına nail olunaraq, ixtisaslı kadrlardan səmərəli istifadı edərək ölkədəki işsizlik durumunu minimuma salmaq idi. Son illər ərzində respublikada bu sahədə artım tempi müşahidə olunmuşdur.

Bir çox statistikalara nəzər salsaq görərik ki, respublikada iqtisadi cəhətdən fəal əhalinin sayı 5190,1 min nəfər təşkil etmişdir. Onların içərisində 251,6 min nəfər

məşğul olmayan əhali sırasında, 4938,5 min nəfər isə, məşğul əhali sıralamasında olmuşdur.

Respublika ərazisində istər paytaxtda istərsədə regionlarda muzdlu işçilər vardır. 2019 cu ildə Azərbaycanda məşğul əhalinin 33,3%- ini muzdlu işçilər təşkil etmişdir.

Dövlətin məşğulluq statistikasına əsasən ölkədə 2020 ci ilin yanvar ayına qədər olan hesablamalara əsasən Azərbaycanda 81,3 min nəfər işsiz şəxs olmuşdur.

Ölkə ərazisində işləyən əhali arasında qadınların sayında da artım tempi müşahidə olunmuşdur. 2005 ci ildə məşğul qadınların məşğulluq səviyyəsi 49,4% olmuşdursa, 2019 cu ildə bu göstərici respublika üzrə 87,1% olmuşdur.

Prezident İlham Əliyevin 2003 cü ildə hakimiyyətə gəlməsindən sonrada bu sahəyə diqqəti azaltmadı. Əksinə daim əhalinin, xüsusilədə məcburi köçkünlərin rifahını artırmaq üçün çalışmışdır. Əmək bazarında aktivliyi artırmaq məqsədilə, Məşğulluq Strategiyaları işlənib hazırlanmışdır. Bu strategiyalardan biri 2005 ci il 26 oktyabr tarixində hazırlanaraq qəbul edilmişdir.

Strategiyanın əsas məqsədi respublika üzrə işsizlərin sayını minumuma endirmək, məşğulluq həcmini isə, maksimum artırmaq idi.

2006- 2015 ci illərdəki Məşğulluq strategiyasının əsas istiqaməti əmək ehtiyyatlarından səmərəli istifadə etməklə əmək bazarının aktivliyini təmin etməkdən ibarət idi. Bu istiqamətdə hərəkət etmək üçün məşğulluq strategiyalarına aşağıdakı müddüəalar daxil edilmişdir.

1. Sahibkarlıq sahəsinə diqqətin artırılması, ən əsasıda kiçik və orta sahibkarlar üçün biznes şəraitinin yaradılması

2. Əmək bazarında aktivliyin artırılması üçün investorlara yardım göstərməklə investisiyanın həcminin artırılması

3. İş axtarışını davam etdirən və yaxud işlə təmin oluna bilməyən şəxslərin sosial müdafiəsinin gücləndirilməsi yönündə dövlət siyasəti

4. Məşğulluq bazarında tələblə təklif arasında doğru uzlaşmanı təmin etmək

2006-2015 məşğulluq strategiyasının əsas prioritet məsələlərində biridə Məşğulluq bazarının təkmilləşdirilməsi idi. Bu məsələlər aşağıdakıları özündə ehtiva edir.

1. Respublika üzrə işçi qüvvəsi təklifi ilə, mövcud olan iş yerlərinin sayı arasında bərabərliyi təmin etmək

2. İşsiz əhalinin ən qısa zaman kəsiyində münasib işlə təmin etmək

3. Kadrların peşə- ixtisas səviyyələrinin artırmaq yolu ilə, onların potensialının dahada artırılması

4. Tarazlaşdırılmış və təkmilləşdirilmiş vergi siyasətinin qurulması. Bu məqsədlə investisiya qoyuluşlarının həcmində artıma nail olmaq

5. İşsiz əhalinin çətinlik çəkmədən işə düzəlmələri üçün tədbirlər planının hazırlanması

6. Məşğulluq bazarında əmək qanunivericiliyinə əməl olunması məqsədilə nəzarət tədbirlərinin artırılması

7. Respublika ərazisində minimum əmək haqqının miqdarı müəyyən müddət ərzində mərhələli artırılması

8. Ölkə üzrə əmək bazarında vəziyyəti subyektiv qiymətləndirmək məqsədilə, müəyyən vaxt ərzində monitorinqlərin keçirilməsi

2006- 2015 ci illər Məşğulluq Strategiyası qaçqın və məcburi köçkünlərin işlə təmin olunması məqsədilə, aşağıdakı müddüəaları qeyd etmişdirlər.

1. Qaçqın və məcburi köçkünlərin daha sıx yaşadıqları ərazilərdə və yaxud yeni yaşadıqları qəsəbələrdə məşğulluğun miqyasının artırılması

2. Qaçqın və məcburi köçkünlərin işə götürülməsi zamanı həvəsləndirmə mexanizminin həyata keçirilməsi

3. Sahibkarlıq fəaliyyəti ilə, məşqul olmaq istəyən qaçqın və məcburi köçkünlər üçün şəraitin yaradılması. Buraya onlara birdəfəlik subsidiyaların verilməsi, vergi güzəştlərinin edilməsi və s. aiddir (http://www.e-qanun.az/framework/10793)

Strategiyanın tətbiqindən sonra respublika üzrə qeyri məşğul əhalinin səviyyəsi 7,3%- dən 5%- ə qədər azalmışdır. Yoxsulluq səviyyəsində də dəyişiklər baş verdi. Strategiyanın tətbiqindən öncə ölkədə yoxsulluq dərəcəsi 29,3 faizə bərabər idi.

Lakin illər ötdükcə strategiyanın hesabına bu problem 4,9%- ə qədər azalmışdır. Əhalinin gəlirlərində də artım tempi müşahidə edilmişdir. 2006 cı ildən sonra ölkədə əhslinin gəlirləri 5,2 dəfə artmışdır. 2006- 2015 ci illər vaxt ərzində minimum əmək haqqının miqdarında isə, 3,5 dəfə artım müşahidə edilmişdir (https://www.stat.gov.az/source/labour/)

**Cədvəl 6: İşğal olunmuş bölgələrdə muzdla işləyən insanların sayı (min nəfərlə)**

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **Yuxarı Qarabağ iqtisadi rayonu** | **41,4** | **42,7** | **44,1** | **43,0** | **41,0** | **40,9** | **42,5** |
| o cümlədən: | | | | | | | |
| Cəbrayıl rayonu | 5,2 | 5,0 | 4,7 | 4,3 | 4,3 | 4,2 | 4,3 |
| Füzuli rayonu | 8,8 | 9,5 | 10,7 | 10,7 | 10,7 | 11,0 | 9,9 |
| Ağdam rayonu | 14,3 | 15,2 | 15,9 | 14,7 | 13,0 | 13,1 | 14,0 |
| Tərtər rayonu | 8,2 | 8,0 | 7,8 | 8,5 | 8,3 | 8,0 | 7,7 |
| Xocalı rayonu | 1,0 | 1,1 | 1,2 | 1,2 | 1,2 | 1,2 | 1,2 |
| Şuşa rayonu | 2,6 | 2,5 | 2,3 | 2,1 | 2,1 | 2,0 | 3,9 |
| Xocavənd rayonu | 1,3 | 1,4 | 1,5 | 1,5 | 1,4 | 1,4 | 1,5 |
| Xankəndi şəhəri | - | - | - | - | - | - | - |
| **Kəlbəcər-Laçın iqtisadirayonu** | **19,9** | **20,7** | **20,5** | **19,5** | **18,8** | **18,1** | **18,0** |
| o cümlədən: | | | | | | | |
| Kəlbəcər rayonu | 5,9 | 6,3 | 6,6 | 6,7 | 6,2 | 6,2 | 6,2 |
| Laçın rayonu | 6,6 | 7,3 | 7,3 | 6,5 | 6,5 | 6,5 | 6,5 |
| Qubadlı rayonu | 3,7 | 3,6 | 3,5 | 3,4 | 3,4 | 3,2 | 3,1 |
| Zəngilan rayonu | 3,7 | 3,5 | 3,1 | 2,9 | 2,7 | 2,2 | 2,2 |

**Mənbə:** https://www.stat.gov.az/source/labour/

Cədvəldən də göründüyü kimi muzdlu işçilərin sayı artım dinamikasına malikdir. Bunlardan əlavə işğal olunmuş bölgələrin əhalisinin məşğulluq göstəricisidə ildən ilə artmışdır. İqtisadi rayonlarda məşğul əhalinin sayını aşağıda göstərmək olar.

**Cədvəl 7: İqtisadi rayonlar üzrə məşğul əhalinin sayı (min nəfərlə)**

| **İqtisadi rayonlar** | **2010** | **2015** | **2016** | **2017** | **2018** | **2019** |
|---|---|---|---|---|---|---|
| **Yuxarı Qarabağ iqtisadi rayonu** | 260,6 | 283,4 | 288,7 | 292,3 | 294,1 | 296,5 |
| **Kəlbəcər-Laçın iqtisadi rayonu** | 107,2 | 118,2 | 120,4 | 121,8 | 122,2 | 123,1 |

**Mənbə:** https://www.stat.gov.az/source/labour/

İlk məşğulluq strategiyası sona çatdıqdan sonra əldə olunan nəticələr təhlil olunaraq qiymətləndirlmişdir. Qiymətləndirmə zamanı çatışmayan xüsusiyyətlər meydana çıxmışdır. Məhz bu problemləri aradan qaldırmaqdan ötrü və məşğulluq bazarında aktivlik fazasını gücləndirmək üçün dpvlət başçısı tərəfindən yeni məşğulluq strategiyasının hazırlanması barədə göstəriş vermişdir. Bu qərar 30 oktybar 2018 ci ildə qəbul olunmuşdur. Növbəti məşğulluq strategiyası 2019- 2030 cu illəri özündə ehtiva etmişdir. Bu strategiyada əsas diqqət yetirləcək nünanslara aşağıdakıları aid edə bilərik.

- Məşğulluq bazarında ekstensiv inkişafdan intensiv inkişafa qədəm qoymaq
- Məşğulluqyönümlü fəaliyyətin həyata keçirilməsi, kiçik və orta sahibkarlığın dəstəklənməsi
- Əmək bazarında normativ hüquqi bazanın, inustutsional strukturun daha təkmilləşdirilməsi
- Əməyin standartlarının formalaşdırılması
- Məşğulluq bazarına girməyə çətinlik çəkən insanlara yardım göstərməkonların əmək bazarına inteqrasiyasını təmin etmək
- Əmək bazarında formal əmək münasibətlərinin qarşısını almaq
- Məşğulluq bazarında proqnozlaşdırmanın və monitorinqin təkmilləşdirilməsi

**Mənbə:** http://e-qanun.az/framework/40416

Təbii ki, aparılan bu islahatlar öz töhfəsini verəcəkdir. Buna uyğun olaraq dövlət tərəfindən gözlənilən müəyyən nəticələr vardır. Bu nəticələrə aşağıdakıları aid eliyə bilərik.

Əmək bazarında baş verə biləcək problemlərə, çətinliklərə cəld reekasiyanın verilməsi, Əhalinin məşğulluq imkanları artırılacaq, Bərabər şəkildə məşğulluq təmin olunacaq, Əmək bazarı ilə, təhsil sistemi birmənalı olaraq uyğunluqları təmin olunacaq və Nəhayət ölkədə sosial müdafiə problemləri həll olunacaq.

## 2.4. İşğaldan azad olunmuş rayonlara qayıdış zamanı əmək bazarında və məşğulluqda baş vermiş dəyişikliklərin öyrənilməsi

1980 cı illərin axırlarından başlayan erməni təcavüzü heçdə yaxşı bitməmişdir. Bu sonluqla Dağlıq Qarabaö və onun ətrafındakı 7 rayon işğal altına düşmüşdür.

Torpaqların işğal altına düşməsi Azərbaycana hər tərəfli olaraq çox ağır zərbələr endirmişdir. Bu baxımdan ən çox zərər görən sahələrdən biri İqtisadiyyat və Əmək bazarı idi.

Erməni işğalı zamanı doğma yurd- yuvalarından didərgin olan çoxlu sayda insan olmuşdur. Nəticədə onlara Qaçqın və Məcburi Köçkün statutusu verilmişdir. Aparılan araşdırmalara əsasən hal- hazırda 1 mln- a yaxın qaçqın və məcburi köçkün vardır.

1980 cı illərin sonlarından başlayan erməni təcavüzü zamanı 10 mindən artıq insan həlak olmuşdur. Onlardan əlavə çoxlu sayda insan əlilliyə məruz qalmış, əsir düşmüş və itkin düşmüşdür. İtkin düşənlərin əzilərinin haqqında məlumat toplamaq belə mümkün olmamışdır.

Erməni təcavüzü Respublikaya ciddi ziyanlar vurmuşdur. İşğal zamanı dağıdılan obyektlər, səhiyyə binaları, təhsil binaları dagıdılması ilə, çoxlu sayda insan da öldürmüşdürlər. Bunların ən qətliyyamlısı Xocalı Şəhərində olmuşdur. 1992 ci il fevral ayının 25- dən 26- a keçən gecə ermənilər hərbi dəstələr toplayaraq , Xocalıya hücum etmişdirlər. Hücum zamanı 613 nəfər dinc əhali amansızcasına qətlə yetirilmişdir. Qətlə yetirlənlərin 63 nəfəri uşaq olmuşdur. Ermənilərin həyata keçirtdiyi bu təcavüz aktı tarixə “Xocalı Soyqrımı” adı altında yaddaşa həkk olunmuşdur.

Ermənistan ordusu Xocalını işğal etdikdən sonra orada qalan az sayda əhalinidə orada deportasiya etmişdirlər. Xocalı sakinlərinə aid olan mülkiyyətlər isə, Xankəndində yerləşdirlən ermənilərə verilmişdir.

Bildiymiz kimi Azərbaycan respublikasının əraziləri işğal altına düşdüyü zaman oradan köçürülən qaçqın və məcburi köçkünlərin həyatında baş verən dəyişikliklərdən biridə məşğulluqla bağlı idi. Bu dövrdən başlayaraq məcburi

köçkünlərə ayrıca diqqət yetirilmişdir. Onların məskunlaşdığı ərazilərdə işlə təmin olunmaları üçün dövlət hər zaman öz lazımi dəstəyini əsirgəməmişdir.

İşğaldan sonra Respublikanın ağır zamanlardan keçməsi məşğulluq sferasını bir qədər zəiflətdi. Lakin dövlətin həyata keçirtdiyi yeni proqramlar sayəsində məşğulluq bazarında getdikçə inkişafa nail olundu.

İşğalın aktif dövründən sonra məcburi köçkünlərin əmək bazarında ölkə üzrə yeri və payı dəyişilmişdir.

Aparılan araşdırmlara əsasən Dağlıq Qarabağ ərazsində ən çox inkişaf edən sənaye sahəsi kənd təsərrüfatı və ağır sənaye sahələri idi. Orada taxılçılıq, üzümçülük, baramaçılıq, pambıqçılıq, kartofçuluq bunlardan əlavə ət, süd, yumurta istehsalı üzrədə  yaxşı inkişaf etmişdir. Agır sənayedə metallurgiya sahəsinin həm əlvan, həmdə qara metallurgiya sektoru yaxşı inkişaf etmişdir.

Qaçqın və məcburi köçkünlərə dövlət tərəfindən göstərilən hər bir qayğı və diqqət sayəsində onların həyat şəraiti yaxşılaşdırıldı, minimum yaşayış səviyyəsindən daha yaxşı yaşamaları üçün imkanlar yaradıldı. Dövlət tərəfindən onlar üçün məskunlaşdığı ərazilərdə mənzillər təşkil olundu, yeni məhəllələr inşa edildi, kommunal xərclərdən azad olundular. Bunlardan əlavə əmək bazarında sahibkarlıqla məşğul olmaq istəyən insanlar üçün bir çox güzəştlər tətbiq olundu, həmçinin işə qəbul olmaq istəyən məcburi köçkün insanları üçün şərait yaradılmışdır.

30 ilə yaxın işğal altında olan Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayon nəhayət 2020ci ilin noyabr ayında işğaldan tam azad olunmuşdur. Sentyabr ayının 27- indən başlayan amansız müharibə nəhayət noyabr ayının 10- u 2020 ci ildə Ermənistan ordusun məğlubiyyəti ilə, başa çatdı. Azərbaycan ordusu şanlı qələbə qazandı. Bu qələbədən sonra rayonlarda yaşıyan ermənilər oranı tərk etmək məcburiyyətində qalmışdırlar. Təbii ki, bu prosesdən sonra məcburi köçkünlərin doğma yurd- yuvalarına qayıdış prosesi başlayacaqdır. Bu proses insanların oraya qayıtmağı könüllük prinsibi əsasında həyata keçirləcəkdir.

Keçən 30 il ərzində əmək bazarında bir çox dəyişiklklər baş vermişdir. Ölkədə məşğulluq səviyyəsini artırmaq üçün dövlət başçısı tərəfindən “Yeni Məşğulluq

Strategiyaları” qəbul olunmuşdur. Bu strategiyalarda məcburi köçkünlərə ayrıca diqqət ayrılmışdır.

Sorğunun nəticələrinə nəzər yetirsək görərik ki, əhalinin əksəriyyəti işğaldan əvvəl kənd təsərrüfatı ilə, məşğul olmuşdurlar. Sonradan isə, artıq bu sahədə işləyə bilməmişdirlər. Bildiyimiz kimi Məcburi köçkünlərin əksəriyyətinin məskunlaşdığı ərazi Bakı və Sumqayıt Şəhərləridir. Məlum olduğu kimi şəhər tipli ərazilərdə bu sənaye sahələrinin inkişafı üçün çoxda əlverişli şərait yoxdur. Şəhər tipli ərazilərdə kənd təsrrüfatının inkişafına şərait yaratmaq çətin məsələdir.

Dağlıq Qarabağ ərazisi bildiyimiz kimi təbii sərvətləri ilə, zəngin olan bir regiondur. Burada mis, qalay, gümüş, qızıl, civə, molibden, sink, qurğuşun və s. Faydalı qazıntı yataqları vardır. Məhz bu səbəbdəndə işğaldan öncə regionda ağır sənaye yaxşı inkişaf etmişdir. Əhalinin əksəriyyəti bu sahədə çalışmışdır. Lakin sonradan torpaqların işğal altına düşməsi səbəbindən həmin faydalı qazıntı yataqları düşmən tapdağı altına keçmişdir.

İşğalın aktiv fazasından sonra əhali sözsüz Aparılan sorğu nəticələrinə əsasəsən görə bilərik ki, əhalinin əbir hissəsi işğaldan öncə ağır sənaye sektorunda çalışmışdırlar. Orada faydalı qazıntı yataqlarında işləyərək məşğul həyat fəaliyyəti sürmüşdürlər. Lakin işğalın baş verməsi əhalinin doğma yurdlarından didərgin olması ilə, yanaşı işlərini itirmələrilədə üzləşmişdrlərki, bu sahədə işləyə bilmzdirlər. Çünk yerləşdikləri şəhər və regionlarda eyni potensiallı sənaye sahələri çox deyildir. Buna görədə işğaldan sonra əhalinin çoxu ixtisas dəyişkənliyinə məcbur olmuşdur. İnsanların çoxu nəqliyyat, xidmət, tikinti, ticarət, turizm, hərbi, yüngül sənaye kimi sektorlarında çalışmışdırlar.

Sorğu nəticələrinə baxsaq görərik ki, bu gün ki, dövrümüzdə insanların əksəriyyəti ixtisasını dəyişmək istəmirlər. Yalnız gündəlik işlərdə çalışan insanların işlədikləri sektorları dəyişməyə ehtiyacın olduğunu düşünürlər.  Anket sorğusu 250 məcburi köçkün arasında aparılmışdır. Nəticələrə əsasən sorğuda iştirak edən insanların 30%- i ixtisasını dəyişilməsinə razıdır. Qalan 70 % isə, həyatlarını işlədikləri iş üzrə davam etdirmək istəyirlər.

Regiona qayıdış məsələsi vacib məqamlardandır. Orada yeni növ ixtisasların yaradılması əmək bazarının inkişafını şərtləndirən əsas amillərdəndir. Orada işğaldan öncə mövcud olan təsərrüfat sahələrinin bərpası insanların yaşayış durumu üçün əlverişli ola bilər. Bu qrupa hazırda kənd yerlərində yaşıyan qaçqın və məcburi köçkünləri aid edə bulərik. Çünki şəhər tipli məntəqələrdə yaşıyan insanların birdən birə regiona qayıdıb kənd təsərrüfatı ilə məşğul olmaq onlar üçün ağır ola bilər. Ona görədə yeni növ ixtisasların işlənib hazırlanması vacibdir. Region turizm cəhətdən çox əlverişli relyefə və iqlimə malikdir. Orada bu sahənin inkişafı qayıdan insanlar üçün yeni bir ixtisas növü ola bilər. Orada beləcə xidmət sektorunun inkişafı üçün də şərait yaranacaqdır. Xidmət sektoru üzrə kadrların daha da ixtisas səviyyəsini artırmaqla bu sahədə uğur qazanmaq mümkün olacaqdır.

Orada müəyyən növ faydalı qazıntı yataqları mövcuddur. Bildiyimiz kimi Dağlıq Qarabağ ərazisi işğaldan tam azad olunduqdan sonra məcburi köçkünlərin oraya köçürülməsi prosesi başlanacaqdır. Buna əsasən orada yeni iş yerlərinin açılacağı şübhəsizdir. Əlbəttəki bu qərarlar dövlət tərəfində təhlil olunacaq və müəyyən qərarlar qəbul olunacaqdır. Əhalinin fikirlərinə əsaslansaq orada ağır sənayenin, kənd təsərrüfatının, turizm sektorunun, Səhiyyə sektorunun, Təhsil sektorunun, Xidmət sektorunun, maşınqayırma sənayesinin inkişafı üçün orada əlverişli şərait vardır. Bunlara əsasən regionda əhalinin bu sənaye sahələri üzrə məşğulluğunu təmin etmək məqsədəuyğun olardı.

Sorğuda əhalinin regiona qayıdışa olan münasibətlərdə araşdırılmışdır. Sorğu respondentlərin əksəriyyəti qəti şəkildə bəyan etdiki Dağlıq qarabağa qayıdışı çox səbirsizliklə gözlədiklərini bəyan etdilər. Sorğuda iştirak edən insanların 84 %- i qayıdış prosesinə çox yaxşı yanaşdılar. Yalnız insanların 16 %- i qayıdışa mənfi yanaşmışdır. Bununda əsas səbəbi kimi məskunlaşdığı ərazilərdə həyat şəraitinin çox yaxşı səviyyədə olması idi.

# III FƏSİL. HƏRBİ MÜNAQİŞƏNİN ƏMƏK BAZARINA MƏNFİ TƏSİRLƏRİNİN ARADAN QALDIRILMASINA DAİR PRESPEKTİV TƏDBİRLƏR

## 3.1. Hərbi münaqişənin ölkənin sosial iqtisadi inkişafına və məşğulluğa mənfi təsirlərinin azaldılması yollarının müəyyənləşdirilməsi

Bu günki dövrümüzdə dünyada bir çox problemlər mövcuddur. Aparılan araşdırmalara və gündəlik olaraq əldə olunan informasiyalara əsaslanaraq onu qeyd edə bilərik ki, müharibə ocağı yer planetindı heç vaxt sönməmişdir. Planetin müəyyən ərailərində hərbi münaqişələr hələdə davam etməkdədir. Dünyanın bir çox qurumlarının, təşkilatlarının səylərinə baxmayaraq tam nəticələr əldə olunmamışdır. Münaqişə ocağının yer üzündə iki forması vardır.

- Daxili münaqişələr
- Qonşu və yaxud digər dövlətlərlə aparılan xarici münaqişələr

Daxili münaqişələr heçdə arzulanan bir hərəkat deyildir. Bu tip münaqişələr dövlətin bütövlüyü, suverinliyi üçün çox təhlükəlidir. Daxili münaqişələr ölkə ərazisində vətəndaş müharibəsinə belə gətirib çıxardır. Bunun əsas səbəbi kimi ölkə ərazisində fəaliyyət göstərən siyasi partiyaların tərəfdaşlarının bu münaqişələrdə iştirak etmələridir. Daxili münaqişələr illər əvvəldə mövcud olan bir problemdir. Vətəndaş müharibəsi qədim zamanlardan müasir dövrümüzə qədər yer planetində mövcud olmuşdur. Buna misal olaraq Qədim Roma vətəndaş müharibəsini, orta əsrlərdə Fələstin vətəndaş mühribəsi, İngiltərə vətəndaş müharibəsi, müasir dövrdə İraqda baş verən vətəndaş müharibəsini, Liviyada baş verən vətəndaş müharibələrini aid edə bilərik.

Xarici dövlətlərlə aparılan münaqişələr dövlətin varlığı üçün təhlükəli bir dönəmin olduğunu vurğulayaq. Müharibə zamanı istər qalib gələn tərəf, istərsədə məğlub olan dövlətə külli miqdarda ziyan dəyəcəkdir. Burada bir fərq ondan ibarətdirki, dəymiş ziyanın nisbəti müxtəlif olur. Təbii ki, məğlubiyyətə düçar olan dövlət daha çox itkilər verəcəkdir. Hərbi münaqişələr dağıdıcı təsirlərə malikdir. Bu dövrlərdə dövlətin məsrəflər siyasəti güclü şəkildə dəyişir. Bu baxımdan xərclər

əasasən hərbi və səhiyyə sektoruna yönəldilir. Yeni hərbi texnikaların alınması, ordunu silah və sursatlarla təmin etmək və s. Bunların hər biri hərbi xərclərə aiddir. Yaralılara anında yardım etmək üçün əlavə həkim briqadalarının yaradılması, dərmanların idxal olunması və s. Səhiyyə sektorunun məsrəflərinə daxildir. Bunlardan əlavə müharibə bitdikdən sonra dövlət tərəfindən sosial sektorada nəzarət artırılacaqdır. Müharibədə iştirka edən yaralılara, əlilərə sosial xidmətlər göstəriləcəkdir.

Hərbi münaqişələr mənfi nəticələrlə sonlanan bir sistematikadır. Münaqişələr bir çox mənfi nəticələrlə sonlanır. Aparılan araşdırmalara aşağıdakıları aid etmək olar.

Bu dövrdə yoxsulluğun sayı artır, insanların orta ömür müddəti azalır, iqtisadyyata dəyən zərərə görə ixrac potensialı azalır, adam başına düşən ÜDM- nin həcmi azalır, körpələrin ölüm sayında artım baş verir, demoqrafik inkişaf ləngiyir, içməli suya olan tələbat kəskin şəkildə artır.Orta ölçülü bir qarşıdurma zamanı orta hesabla ölkənin ÜDM-nin 15%- ə qədərini azaldır.

**Cədvəl 8: Münaqişə alovu yaşıyan ixtiyari bir ölkəinin əmək bazarında və iqtisadi fazasında baş verən dəyişikliklərin qrafik təhlili**




**Mənbə:** https://www.sipri.org/commentary/blog/2015/consequences-internal-armed-conflict-development-part-2

Cədvəl 8 də adambaşına 1100 dollar səviyyəsində düşən bir ölkə üçün 1970-2000 ci illər üçün adambaşına düşən ÜDM- nin həcmi göstərilmişdir.

Nöqtəli xətt isə, müharibəsiz inkişaf edən bir ölkə üçün orta böyümə treayektoriyasını göstərir. Kəsikli xətt 1974- 1986 cı illərdə müharibə alovu yaşıyan bir dövlətin durumu təsvir edilmişdir. İki qırmızı xətt qrafiki 2 tendensiyaya ayırır. İlk tendensiyada müharibə alovu olan ölkədə ÜDM- i həcmi kəskin şəkildə azalmışdır. İkinci tendensiyada isə, barış olan bir ölkədə ÜDM- i miqdarı artığını müşahidə edirik.

Qarşıdurma prosesi sözsüz ki, təhsil sisteminə təsirsiz ötüşmür. Xüsusilədə ibtidai təhsilə. Orta səviyyədə münaqişə yaşıyan bir ölkədə orta hesabla hər il təhsil sahəsində 1,3% geriləmə baş verir.

Münaqişənin mənfi təsirlərindən danışarkən içməli suya dəyən ziyandan danışmamaq mümkün deyildir. Müharibənin aktiv fazasında içməli suya olan tələbat dahada artır. Bunun əsas səbəbi kimi düşmənin yürütdüyü təxribatlardır. Münaqişələr zamanı düşmən tərəfi içməli suya olan tələbatı dahada artırmaq məqsədilə, çayları, su anbarlarını, su kanallarını qəsdən kirlədir, və ya partataraq insanların içməli suya olan tələbatını bu yolla artırmağa nail olur. Orta hesabla qarşıdurmalar dünya əhalisinin 1,8%- ni içməli sudan edir.

Qarşıdurma prosesi iqtisadiyyata güclü zərbələr endirir. Demək olarki bu proseslər zamanı ən güclü ziyanlar məhz bu sahənin payına düşür. Müharibənin aktiv fazasında istehsal sənayesi fəaliyyət göstərə bilmir, və yaxud malik olduğu potensialdan tam istifadə edə bilmir. Nəticədə ölkə üzrə ÜDM- nin, ÜMM- nin, XMM- nin həcmi tez bir zamanda aşağı düşür.

Müharibə alovundan əziyyət çəkən ölkələrdə sosial- iqtisadi durum olduqca ağır duruma düşür. Bu zaman evlər, mənzillər, səhiyyə ocaqları, təhsil ocaqları, tarixi abidələr, muzeylər, körpülər, yollar, su anbarları, su kanalları, aqrar texnikalar, kənd təsərrüfatı infrastrukturu hər biri düşmən tərəfindən dağıdılaraq məhv edilir.

1980 cı illərin axırlarından başlayaraq ermənilərin Azərbaycana qarşı ərazi iddialarının başlamaları respublikya güclü ziyanlar gətirmişdir. Aparılan araşdırmalar bunu əyani olaraq sübut edir. Dağlıq Qarabağ və onun 7 rayonun işğal

altına düşməsi orada olan təbii sərvətlərində itirilməsinə səbəb olmuşdur. İşğal zamanı minlərlə evlər, 700- dən artıq səhiyyə ocaqları, 600- dən çox məktəb, yüzlərlə km- lərlə yollar, körpülər, telekomunnikasiya obyektləri, su anbarları hər biri Ermənistan ordusu tərəfindən dağıdılaraq məhv edilmişdir.

Həmin zamanlarda çoxlu sayda islam dininə aid olan çoxlu sayda abidələrdə dağıdılmışdır. Dağlıq Qarabağ işğal olunan zaman müsəlman aləminə aid olan məscidlər, ibadətgahlar yer üzərindən silinmişdir. Onuda qeyd etmək gərəkdir ki, həmin zamanlarda təkcə islam mədəniyyətinə aid olan abidələr dağıdılmamışdır. Respublikaya aid olan digər tarixi abidələr ələ keçirilərək hərbi obyekt kimi onlardan istifadə edilmişdir. Azıx mağarası, tağlar mağarası, qaraköpək, üzərliktəpə kurqanları hərbi məqsədlərdən ötrü istifadə etmişdir. Oxşar hallar Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan rayonlarının ərazilərində də müşahidə etmək mümkündür.

Ermənistan ordusu 1990 cı illərdə Dağlıq Qarabağı işğal edərkən tarixi abidələri məhv etmişdirlər. Bu hadisələr Şuşa şəhərində eyni vəhşiliklərə rast gəlinmişdir. Şuşada 5 mindən artıq sərgi eksponatı olan Şuşa tarix muzeyi, xalça muzeyi düşmən tərəfindən viran olunmuşdur. Laçın rayonunda yerləşən Ağoğlan məbədi, Xocalıda Əsgəran qalası oxşar taleylə üzləşmişdirlər.

Ermənistanın işğal etdiyi ərazilərdə həyata keçirtdiyi cinayətlərdən biridə ekoloji cinayətdir. 1990 cı illərdən bəri orada regionun təbii sərvətləri talanmış, meşələrdəki ağaclar doğranılmış, torpaqlar yandırılmış və əkinçilik üçün yarasız hala salınmış, həmçinin işğal etdikləri ərazilərə mina silah surstaları basdırılmışdır. Minaların ərazilərə yerləşdirilməsi insanlar üçün böyük təhlükə mənbəyidir. İstər mülki əhali üçün istərsədə Azərbaycan ordusunda xidmət edən əsgərlər üçün. Böyük qayıdış planının əsasını məhz oranı minalardan tamamilə təmizləmək, ekoloji gərginliyi orada minimuma salmaq üçün meşələri bərpa etmək, təbii sərvətlərdən səmərəli istifadə edərək regionun inkişafına nail olmaqdır.

1988 ci illərdən başlayan erməni təcavüzü minlərlə günahsız insanlara qarşı amansız cinayətlər törədilmişdir. Azərbaycan Respublikası Prokrurluğunda

soyqrımlar, cinayətlərlə bağlı istintaq işləri aparılır. Bu istintaq işləri 3 istiqamətdə aparılır.

- Meşəli, Xocalı yaşayış ərazilərində dinc əhaliyə qarşı törədilən cinayətlər araşdırılır

- Ermənistan tərəfindən nəqliyyat vasitələrində, qapalı obyektlərdə, metrolarda həyata keçirdikləri cinayətlər araşdırılır

- Əsir alınmış insanlara qarşı törədilən cinayət aktları araşdırılır .

Ermənistanın Azərbaycanla Dağlıq Qarabağ uğrunda apardığı dğyüşlər zamanı regionu tamamilə əlverişsiz hala salmışdır. Dağıdılmış evlər, binalar, obyektlər, infrastrukturlar bunların hər biri bu vəhşiliklərin əyani sübutudur.

**Mənbə:** https://mod.gov.az/az/pre/24525.html

Bildiyimiz kimi Azərbaycan respublikasının 20 faiz ərazisi 1990 cı illərdə baş tutan uğursuz münaqişələrdən sonra işğal altına düşmüşdür. Lakin 30 ilə, yaxın işğal altında olan ərazilər 2020 ci il sentyabr- noyabr ayları ərzində baş tutan döyüşlər zamanı Azərbaycan ordusu parlaq qələbə qazanaraq torpaqlarını işğaldan azad etmişdirlər. Hal hazırda aparılan işlər regiona dəymiş ziyanın hesablanmasına yönləndirilmişdir. Dəymiş ziyanı aradan qaldırmaq üçün ilk öncə dəymiş zərər tam hesablanır, ondan sonra onların bərpa və yaxud yenidən bərpa prosesinin xərcləri hesablanaraq proses tam həyata keçirlir.

Bildiyimiz kimi bu gün ki günümüzdə Azərbaycan respublikasının səlahiyyətli orqanları Dağlıq Qarabağa qayıdış konsepsiyası üzərində işləyib çalışırlar. Bəzi rəsmi mənbələrdən əldə olunan məlumatlara əsasən qayıdış konsepsiyası 3 mərhələdən ibarət olacaqdır. İlk mərhələdə Cəbrayıl, Ağdam, Füzuli rayonlarının bərpası nəzərdə tutulur. İkinci mərhəldə isə, Qubadlı, Kəlbəcər, Zəngilan, Laçın rayonlarının bərpası, son mərhəldə isə, Şuşa, Xocavənd rayonların və Qazaxın işğal altından azad olunmuş yeddi kəndinin bərpası nəzrdə tutulurdu. Bunlardan əlavə regiona qayıdan insalara bir sıra sahələrdə güzəştlər ediləcəkdir. Həmçinin dövlət qurumlarında işləyən şəxslərə isə, əmək haqqılarının 50 faziə qədəri əlavə olunacaqdır. Həmçinin kənd təsərrüfatında çalışan insanlara brdəfəlik yardımların edilməsi nəzərdə tutulmuşdur.

Digər Qayıdış konsepsiyası haqqında yayılan məlumatlar daha çox rəsmi mənbələrə əsaslanır. İşğaldan azad olunan ərazilərə qayıdışı xüsusi proqram əsasında həyata keçiriləcəkdir. Bunun üçün dövlət tərəfindən bir çox layihələr yaradılmışdır. Nəzərdə tutulan layihələr gələcəkdə orada yaşıyan insanlar üçün əlverişli şərait yaradacqdır. "Böyük Qayıdış" planın əsasını kəndlərin və şəhərlərin tam bərpasını həyata keçirtmək nəzərdə tutulub. Həyata keçiriləcək bərpa planı sistemli şəkildə, həmçinin dünya standartlarına uyğun olaraq reallaşdırılacaqdır. Dağlıq qarabağ regionunun bərpası planında ağıllı kənd və ağıllı şəhərlərin yaradılması nəzərdə tutulub. Bununla bağlı artıq bir çox işlər görülür. Bu tip kənd və şəhərlərin yaradılması dünya təcrübəsindən, dünya informasiya bazasından istifadə olunacaqdır. Regionun bərpası planında insanların dövlət qurumları ilə əlaqələrinin yaradılmasını təmin olunacaqdır. Ortaya çıxa biləcək problemlərin tez bir zamanda həll olunmasına hesablanmış bir prinsipdir.

Dövlət başçısı cənab İlham Əliyev çıxışlarının birində qeyd etmişdir ki, Dağlıq Qarabağ regionunda əldə olunacaq inkişaf konsepsiyası digər rayonlarımızada tətbiq ediləcəkdir. Buda yaxın zamanlarda respublika ərazisində ağıllı kəndlərin və ağıllı şəhərlərin artılacağı anlamına gəlir.

1990 cı illərin sonlarından başlıyan münaqişələr respublikada əmək bazarının inkişafını kəskin şəkildə aşağı salmışdır. Kolkozların, sovxozların, firmaların, müəssiələrin, təşkilatların dağıdılması bunun bariz nümunəsi idi. Bunlardan əlavə çoxlu sayda insanın müharibədə həlak olması, əlliliyə düçar olması kadr potensialınında azalmasına gətirib çıxartmışdır. Regiona qayıdış dörd konsepsiyadan ibarət olacaqdır. Böyük qayıdışın əsas obyektlərindən biri əmək bazarıdır. Regionda əmək bazarının inkişaf etdirilməsi üçün orada məskunlaşacaq əhali vergi güzəştləri olunacaq, sahibkarlıqla məşğul olmaq istəyən insanlar üçün şərait qurulacaq- onlara birdəfəlik yardımların edilməsi nəzərdə tutulur, investorlar üçün imkanlar yaradılacaq, həmçinin iş tapmaqda çətinlik çəkən insanların tez bir zamanda işlə təmin olunması həyata keçiriləcəkdir. Bütün bunlar regionun tez bir zamanda dirçəlməsinə töhfə verə bilər. Bunlardan əlavə regionda iqtisadi potensialı

artırmaq üçün illər əvvəl orada mövcud olan firmalaırı, müəssisələri, zavodları, fabrikləri yenidən bərpa ediləcək.

Görüləcək işlərdən sonra gözlənilən nəticələr yüksəkdir. İlk öncə orada güclü iqtisadi potensialın yaranacağını, bunun sayəsində orada əmək bazarının dirçəlməsini görə bilərik. Bunun nəticəsi kimi orada məskunlaşacaq insanların firəvan həyatlarına davam edəcəklərinə inam yüksəkdir.

## 3.2. İşğal nəticəsində qaçqın və məcburi köçkünlərin yerləşdiyi ərazilərdə məşğulluğun artırılması yollarının müəyyənləşdirilməsi

1980 cı illərin sonlarəndan başlayan Ermənistanın azərbaycana qarşı ərazi iddiaları çoxlu sayda soydaşımızın ölümünə, sağ qalanların isə, doğma yurdlarından didərgin düşmələrinə səbəb olmuşdur. Həmin dövrdə 750 min- dən artıq azərbaycanlə məcburi köçkün statusu almışdır. Bu günki dövrümüzdə bu say 1 mln-a yaxınlaşmışdır. Məcburi köçkün halına düşmüş insanlar artıq uzun bir müddət ərzində çadr düşərgələrində, tələbə yaraqxanalarında, yarımçıq hazırlanmış mənzillərdə, qohum evlərində və s. Yerlərdə çətin şəraitdə yaşayırdılar.

Məcburi köçkünlərin yaşayış səviyyəsini yaxşılaşdırmaqdan ötrü ölkə Prezidenti 2004 cü il 1 iyul tarixində “Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğun artırılması üzrə” dövlət proqramının hazırlanması barədə fərman imzalamışdır.

Ötən illər ərzindı münaqişənin həll olunması prosesi ləngidiyi üçün dövlət tərəfində məcburi köçkünlərə ayrılan diqqət və qayğını bir qədərdə yüksəltmişdir. Dövlətin qarşısında duran əsas prioritet məsələlərdən biri insanların mənzil probleminin tez bir zamanda həll etmək idi. Bunun üçün də Dövlət Neft Fondunun gəlirləri məcburi köçkünlərin sosial məişət problemlərinin həll olunması istiqamətində yönəldilmişdir. Bu səylərdən sonra Dövlət Neft Fondunun hesasbına 2001- 2006 cı illər ərzində qaçqın və məcburi köçkünlər üçün 10586 yeni mənzil tikilərək istifsdəyə verilmişdir. Bu tədbirlərdən sonra respublika ərazisində mövcud olan düşərgələrin hər biri ayrı ayrılıqda ləğv edilmişdir. Onuda qeyd etmək lazımdır

ki, 1992- 2006 cı illər ərzində məcburi köçkünlərin yaşayış səviyyəsini artırmaq məqsədilə onlar üçün 700 milyon dollar vəsait xərclnmişdir.

Ötən illər ərzində respublika ərazisində məcburi köçkünlər arasında məşğulluq problemi heçdə az olmamışdır. Məşğulluq probleminin mövcud olması insanların yoxsulluğuna gətirib çıxartmışdır. Aparılan araşdırmalara əsasən respublika daxilində yoxsulluğun ən yüksək həddi məhz qaçqın və məcburi köçkünlər arasında aşkar edilmişdir.

30 il ərzində Dövlətin qarşısında duran əsas vəzifə məcburi köçkünlər üçün yeni qəsəbələrin, məhlələrin salınması, insanların mənzil probleminin həll olunması, məcburi köçkünlərin təhsil problemlərinin aradan qaldırılması, səhiyyə sahəsində onlara güzəştlərin edilməsi, sosial problemlərin həll edilməsi, həmçinin məcburi köçkünlər arasında yoxsulluğun azaldılması, məşğulluq bazarında məcburi köçkünlərin payının artırılması bunların hər biri ayrı ayrılıqda dövlətin qarşısında duran mühüm vəzifələrdən olmuşdur. Aparılan işlər müvəffəqiyyətlə həyata keçirilmişdir. Bunlardan əlavə məcburi köçkünlərin kommunal problemləri belə aradan qaldırılmışdır.

Ermənistanın Azərbaycanın qədim ərazilərinə hücum etməsi nəticəsində Dağlıq Qarabağ və onun ətrafındakı yeddi rayon işğal altına düşmüşdür. Bununla əlaqədar olaraq Beynəlxalq Qırmızı Xaç Komitəsi 1992 ci ildən etiarən Azərbaycanda fəaliyyətə başlamışdırlar. Komitənin qarşısında duran əsas vəzifələrə aşağıdakılar aiddir.

- İşğal zamanı itkin düşmüş şəxslərin axtarışlarını həyata keçirtmək
- Münaqişənin aktiv fazasında əsir düşmüş hərbiçiləri, mülki vətəndaşları əsirlikdən azad etmək üçün səylərin göstərilməsi
- Ermənistanla sərhəd olan rayonlarda, kəndlərdə yaşıyan insanlara yardımlar göstərmək, onların məşğulluq fəaliyyətini problemsiz davam etdirmək üçün yardımların edilməsi
- İki ölkə arasında razılaşdırlmış atəşkəs memarandumuna əməl edilməsinə nəzarət edilməsi

Bütün bunlar komitənin əsas vəzifələrindən hesab olunur.

Respublika daxilində məcburi köçkünlər üçün müəyyən imkanlar yaradılmışdır. Onların həyat şəraitinin yaxşılaşdırılması ötən illər ərzində dövlətin qarşısında duran ilk vəzifələrdən olmuşdur. Məcburi köçkünlərin təhsil səviyyəsinin artırılması üçün onların hər birini təhsil haqqlarından azad edilmişdir, işə qəbul zamanı müəyyən mərhələr zamanı güzəştlər edilirdi, kommunal xərclərdən belə azad olunmuşdurlar. Səhiyyə sektorunda da məcburi köçkünlərə yardımlar olunurdu. Qazilərə, əlillərə yeni mənzillər, avtomobillər verilmişdir.

Dövlət bütün bu işləri həyata keçirtmək üçün müəyyən mərəhələrdən, çətin zamanlardan keçmişdir. Hökümət məcburi köçkünləri daim diqqət mərkəzində saxlmaqdan , yarana biləcək problemlərin tez bir zamanda həll olunmasından ötrü yeni bir qurum- komitə yaratmışdır. Bu komitənin yaradılması haqqında qərar 1 fevral 2005 ci ildə verilmişdir. Qurumun adı "Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi" olmuşdur. Komitə fəaliyyətə başladığı ilk gündən fəaliyyətini uğurla davam etdirmişdir. Yaranan müəyyən bir problemləri zamanında həlletməyə çalışılmışdır. Komitənin əsas vəzifələrinə aşağıdakılar aid olunur.

- Qaçqın və məcburi köçkünlərin məşğulluq bazarında payının artırılması, bunun sayəsində mövcud olan yoxsulluğ nisbətinin azaldılması

- Məcburi köçkünlərin yaşayış səviyyəsini yaxşılaşdırmaqdan ötrü müəyyən layihələrin hazırlanması, hazırlanan layihələrin həyata keçirilməsi

- Qaçqın və məcburi köçkünlər arasında mövcud olan mənzil problemlərinin həll olunması, təmir tikinti işlərinin aparılması

- Məcburi köçkünlərin miqrasiya proseslərinin tənzimlənməsini həyata keçirtmək

- Məcburi köçkünlərin hazırki durumu barədə məlumat toplanılması, problemlərin öyrənilməsi, əldə olunan nəticələrin təhlil olunması və nəticədə insanlara müəyyən tövsiyyələrin verilməsi

- Məcburi köçkünlərin didərgin salınmış doğma yurdlarına qayıtmaları üçün müəyyən dövlət, beynəlxalq təşkilatlarla məqsədyönlü işlərin aparılması

- Məcburi köçkünlər üçün büdcədən ayrılan müəyyən vəsaitlərin məqsədəuyğun- səmərəli istifadə olunması

- Məcburi köçkünlərin sıx toplaşdığı şəhərlərdə, rayonlarda, qəsəbələrdə, kəndlərdə kommunal xidmətələrin ən yaxşı səviyyədə xidmət göstərilməsini təmin etmək

- Qanunvericiliyə uyğun olaraq insanlara qaçqın və məcburi köçkün statusunun verilməsi proseslərində yarana biləcək problemlərin həll olunması

**Mənbə:** http://idp.gov.az/az/content/2/parent/1

Yuxarıda göstərilən bütün bunlar komitənin əsas vəzifələridir. Bu vəzifələrin yerinə yetirilməsi üçün dövlət tərəfindən müəyyən təlimatlar, göstərişlər, köməkliklər edilmişdir.

Ötən dövr ərzində respublikada dövlətin qarşısında duran ən mühüm vəzifələrdən biridə məşğulluq bazarının təkmilləşdirilməsi olmuşdur. Xüsusilədə məcburi köçkünlərin əmək bazarında payını artırmaq əsasəndə məqsədəuyğun hesab olunurdu. Bunun üçün məcburi köçkünlərin işlə təmin olunması üçün əmək yarmarkaları keçirilmişdir. Beləliklə məcburi köçkünlərin az bir qismi olsa belə işlə təmin olunmuşdurlar.

1980 cı illərin sonlarından qarşıya çıxan çətinliklərdən sonra ölkədə siyasi, iqtisadi, sosial durumları tənzimləmək üçün bir qədər vaxt çəkdi. Dağıdılan infrastrukturlar, yollar, körpülər, binalar, mənzillər və s. Zərərlər respublikaya mənfi təsirlər göstərmişdir. Müəyyən zaman keçdikdən sonra artıq problemlərin bir hissəsi demək olarki həll olunmuşdur. Dövlət bunlardan sonra artıq məşğulluq bazarının inkişafı üçün müəyyən addımlar atılmışdır. Bunun üçün müəyyən illəri əhatə edən məşğulluq strategiyaları işlənib hazırlanmışdır. İlk məşğulluq strategiyası 26 oktyabr 2005 ci ildə qəbul olunmuşdur. Bu strategiyanın əsas məqsədi əmək bazarının təkmilləşdirilməsi, məşğulluq faizinin yüksəldilməsi idi. Bu məşğulluq strategiyası işlənib hazırlanması zamanı məcburi köçkünlər diqqətdən kənarda qalmamışdır.

2006- 2015 ci illər Məşğulluq Strategiyası qaçqın və məcburi köçkünlərin işlə təmin olunması məqsədilə, aşağıdakı müddüəaları qeyd etmişdirlər.

1. Qaçqın və məcburi köçkünlərin daha sıx yaşadıqları ərazilərdə və yaxud yeni yaşadıqları qəsəbələrdə məşğulluğun miqyasının artırılması

2. Qaçqın və məcburi köçkünlərin işə götürülməsi zamanı həvəsləndirmə mexanizminin həyata keçirilməsi

3. Sahibkarlıq fəaliyyəti ilə, məşqul olmaq istəyən qaçqın və məcburi köçkünlər üçün şəraitin yaradılması. Buraya onlara birdəfəlik subsidiyaların verilməsi, vergi güzəştlərinin edilməsi.

Aparılan məqsədyönlü tədbirlərdən sonra ümumi olaraq ölkədə məşğuluğun həcmi dəyişmişdir. 2008- 2015 ci illər ərzində əmək bazarında məşğul əhalinin miqdarında 10,8 % artım müşahidə olunmuşdur. Məşğulluq artımı bu illər ərzində Kəlbəcər- Laçın iqtisadi rayonunda 2,5 %- lik artım təşkil etmişdir.

Regionlarda işsizliyin azaldılması dövlət qarşısında duran əsas prioritet vəzifələrdən olmuşdur. Bunun üçün regionlarda infrastrukturlar qurulmuş, yeni iş yerləri yaradılmışdır. Son illər ərzində regionlarda işsizlyinin dinamikasına nəzər salsaq işsiz insanların sayının azaldığını görə bilərik. 2000- 2015 ci illər ərzində respublika ərazisində işsizliyin həcmi 34 % azalmışdır. Ən çox azalma Yuxarı Qarabağ iqtisadi rayonunda qeydə alınmışdır. Bu illər ərzində orada 76,3 % işsizlik azalmışdır. Bunlardan əlavə Şəki- Zaqatalada 76 %, Lənkəran iqtisadi rayonuna 65,7 %, Kəlbəcər- Laçın iqtisadi rayonunda isə, 60,3 % azalma müşahidə olunmuşdur. **Mənbə:** stat.gov.az

İşğal altında olan torpaqların əhalisinin məşğulluq problemlərinin həll olunması vacib məsələ sayılmışdır. Bunun üçün insanların problemləri dinlənilmiş, məşğulluq sahəsində işlə təmin oluna bilməmələrinin səbəbləri araşdırılmış və vaxtında problemlər həll edilmişdir. 2000- 2015 ci illər ərzində işğal olunmuş ərazilərdə işsizliyin dinamikasına nəzər yetirib, həmçinin işsizliyin bu illər ərzində xüsusi çəkisini müşahidə etsək işsizlik probleminin azaldığını aşkar şəkildə görə bilərik. Bunu aşağıdakı cədvəldə görə bilərik.

**Cədvəl 9: 2000 – 2015 ci illər ərzində işğal olunmuş rayonlarda işsizliyin miqdarı**

| İqtisadi rayonlar | 2000 | 2005 | 2010 | 2015 | 2000-ci ilə nisbətən artım |
|---|---|---|---|---|---|
| Azərbaycan Respublikası | 43739 | 56343 | 38966 | 28877 | 66,0 |
| Yuxarı Qarabağ | 6501 | 7083 | 4467 | 1543 | 23,7 |
| Xüsusi çəkisi (%) | 14,9 | 12,6 | 11,5 | 5,3 | - |
| Kəlbəcər-Laçın | 3317 | 4043 | 1930 | 1317 | 39,7 |
| Xüsusi çəkisi (%) | 7,6 | 7,2 | 5,0 | 4,6 | - |

**Mənbə:** stat.gov.az

Ötən illər ərzində əmək bazarında güclü dəyişikliklər baş vermişdir. Respublika müstəqilliyin ilk illərinə qədəm qoyduğu dövrlərdə başı bəlalı olmuşdur. 1980 cı illərdə ermənilərin başlatdığı etnik təmizləmə siyasəti, daha sonra Dağlıq qarabağ və onun ətrafındakı yeddi rayonun işğal edilməsi, 1990 cı ildə baş verən 20 yanvar hadisəsi, 26 fevral 1992 ci ildə törədilən “Xocalı Soyqrımı” ğlkəmizə ağır zərbələr endirmişdir. Bunların təsirlərində çıxmaq heç asan məsələ deyildir. Bunun üçün dövlətə, xalqa bir neçə il vaxt tələb olunurdu. Həmin zamanlarda iqtisadiyyat çökmüş vəziyyətində idi. Lakin tez bir zaman atılan addımlar, bağlanılan müqavilələr ölkəmizi bu durumdan çıxartmağa kömək etmişdir. Yalnız onu qeyd edə bilərik ki, 1994 cü il 20 sentyabrda bağlanılan “Əsrin Müqaviləsi” ölkə iqtisadiyyatı üçün dirçəliş rolunu oynamışdır. Bu müqavilədən sonra artıq Azərbaycan nefti dünya bazarına çıxışını təmin etmişdir. Əlbəttəki buradan əldə olunan gəlirlər, vəsaitlər hesabına yeni investisiyalar, şirkətlər, firmalar, təşkilatlar, zavodlar, fabriklər yaradılmışdır. Bu ənənələrlə davam edən zamanlarda artıq ölkədə əmək bazarında işsizlik problemi azalmağa başlanmışdır. İşsizlik problemindən təkcə işğal altında olan ərazilərin sakinləri deyildir, digər rgionların, şəhərlərin əhalisidə bu durumdan əziyyət çəkənlərdən idilər. Lakin illər ötdükcə, durum sabitləşdikcə, iqtisadiyyat gücləndikcə, yeni qərarlar qebul edildikcə işsizlik

problemini ümümi olaraq Azərbaycan ərazisində azaltmağa nail olmuşdurlar. Bu mənada qəbul olunmuş yeni məşğulluq strategiyaları bunun əyani sübütudur.

İlk məşğulluq strategiyasının tətbiqi ölkə ərazisində məşğulluq potensialının artırılmasına güclü təsirləri olmuşdur. Bu strategiyanın həyata keçirlməsi üçün müəyyən illər ərzində yeni proqramların tətbiqi həyata keçirilmişdir. Buna aid olaraq məşğulluq strategiyasının, həyata keçirilməsi üçün 2011- 2015 ci illər üzrə dövlət proqramı hazırlanmışdır. Proqramın əsas məqsədlərinə və vəzifələrinə aşağıdakılar aiddir.

- Makroiqtisadi sabitliyin qorunması, infliyasiyanın minimum səviyyədə saxlanılmasını təmin etmək

- İstehsal potensialının artırılması, istehsal olunmuş məhsulların xarici bazarlarda rəqabətqabiliyyətliliyinin artırılması

- Regional dövlətlərlə iqtisadi əlaqələrin artırılması

- Elmtutumlu sənaye sahələrinin inkişafını təmin etmək, istehsal sferasında yeni texnika və texnologiyalardan, habelə innovasiyalardan istifadənin təmin edilməsi

- Mövcud olan işçi qüvvəsi ilə, iş yerlərinə tələb olunan i.çi sayı arasında tarazlığın təmin olunması

- Qeyri formal məşğulluq üçün maneələrin yaradılması və bunun qarşısının tamam alınması

- Neft sektorunda əldə olunan gəlirlərin bir hissəsinin insan resurslarına sərf edilməsini təmin etmək

- İşçilərin sosial müdafiə problemlərinin həll olunması, işə düzəlməyə çətinlik çəkən insanlara köməkliklərin göstərilməsi

- Qaçqın və məcburi köçkünlərə əmək bazarında yardımların göstərilməsi, onların peşə hazırlığının təmin edilməsi

- Cəzaçəkmə müəssisələrindən təxris olunacaq şəxslərin məşğulluq bazarında məşğulluğunun təmin edilməsi və s. (http://www.e-qanun.az/framework/21898)

Təbii ki, bu proseslərin həyata keçirilməsi əmək bazarında olan durğunluqların qarşısını almağa hesablanmış bir addım idi. 2011- 2015 ci illər üzrə dövlət

proqramından əldə oluna biləcək nəticələrə bunları aid edə biləirk. Əmək bazarında əlverişli məşğulluq proqramının yaradılması, Əmək bazarında insan resurslarının keyfiyyətinin artırılması, kadr potensialının təkmilləşdirilməsi, İnsanların sosial müdafiəsinin təmin edilməsi, məşğulluq bazarında tələblə təklif arasında tarazlığın mövcud olması, dünya standartlarına uyğun olaraq işgüzarlıq mühitinin formalaşdırılması, investisiya yatırımlarının artırılması və s .

Bütün bu dəyişikliklərdən sonra əmək bazarında müəyyən dəyişikliklər baş vermişdir. Xüsusəndə işğal olunmuş ərazilərin əhalisi məşğulluq bazarında aktivləşməyə başlamışdır. 2010 cu ildən bəri hər il ərzində məşğul əhalinin sayı artmışdır. Bunu aşağıdakı cədvəldə görə bilərik.

**Cədvəl 10: Yuxarı Qarabağ iqtisadi rayonunda 2010 – 2019 cu illər ərzində məşğulluğun miqdarı ( min nəfərlə)**

| **İqtisadi rayonlar** | **2010** | **2015** | **2016** | **2017** | **2018** | **2019** |
|---|---|---|---|---|---|---|
| **Yuxarı Qarabağ iqtisadi rayonu** | **260,6** | **283,4** | **288,7** | **292,3** | **294,1** | **296,5** |
| **Cəbrayıl rayonu** | 33,2 | 36,1 | 36,8 | 37,2 | 37,5 | 37,8 |
| **Füzuli rayonu** | 53,7 | 58,0 | 59,1 | 59,9 | 60,6 | 61,1 |
| **Ağdam rayonu** | 84,8 | 90,1 | 91,7 | 93,0 | 93,4 | 94,1 |
| **Tərtər rayonu** | 44,4 | 48,1 | 49,0 | 49,6 | 50,0 | 50,3 |
| **Xocalı rayonu** | 11,8 | 13,9 | 14,1 | 14,2 | 14,2 | 14,4 |
| **Şuşa rayonu** | 13,5 | 15,6 | 15,9 | 16,1 | 16,1 | 16,3 |
| **Xocavənd rayonu** | 19,2 | 21,6 | 22,1 | 22,3 | 22,3 | 22,5 |
| **Xankəndi şəhəri** | - | - | - | - | - | - |

**Mənbə:** https://www.stat.gov.az/source/labour/

Yuxarıda göstərilən statistika Ermənistan ordusu tərəfindən işğal olunmuş Yuxarı Qarabağ iqtisadi coğrafi rayonuna aiddir. Cədvəldən də göründüyü kimi dəyişən illər ərzində əmək bazarında məşğul əhalinin sayı artmışdır. Oxşar

statistikanı digər işğal edilmiş Kəlbəcər- Laçın iqtisadi coğrafi rayonunda görə bilərik. Statistika aşağıdakı cədvəldə göstərilmişdir.

**Cədvəl 11: Kəlbəcər - Laçın iqtisadi rayonunda 2010 – 2019 cu illər ərzində məşğulluğun miqdarı ( min nəfərlə)**

| İqtisadi rayonlar | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| **Kəlbəcər-Laçın iqtisadi rayonu** | **107,2** | **118,2** | **120,4** | **121,8** | **122,2** | **123,1** |
| o cümlədən: | | | | | | |
| Kəlbəcər rayonu | 37,9 | 41,9 | 42,7 | 43,2 | 43,4 | 43,7 |
| Laçın rayonu | 32,5 | 35,7 | 36,4 | 36,8 | 36,9 | 37,1 |
| Qubadlı rayonu | 17,6 | 19,1 | 19,4 | 19,6 | 19,7 | 19,9 |
| Zəngilan rayonu | 19,2 | 21,5 | 21,9 | 22,2 | 22,2 | 22,4 |

**Mənbə:** https://www.stat.gov.az/source/labour/

Bildiyimiz kimi Erməni tapadağı altında olan torpaqlarımız 2020 ci il sentyabr ayının 27 dən başlayan müharibə zamanı 44 günlük savaşda Azərbaycan ordusu parlaq qələbə qazanarq torpaqları işğaldan azad etmişdir. Bu günki günümüzdə oraya qaçqın və məcburi köçkünlərin qayıdışının təmin edilməsi dövlətin qarşısında duran əsas prioritet məsələrdən biridir. Bunun üçün də müəyyən konsepsiyalar, layihələr hazırlanmışdır. Bununla yanaşı yenidən qurma tədbirlərinin artırılmasından ötrü xarici şirkətlərlə müqavilələr bağlanmışdır.

Dağlıq Qarabağda əmək bazarının strukturunun təşkil edilməsi uzun bir zaman alsada bunun üçün oraya invesitiya yatırımlarını artırmaqla daha qısa müddətdə oranı sənaye regionuna çevirmək mühüm məsələdir. Onuda qeyd edək ki, regionda məşğulluq bazarının dirçəlişi üçün sahibkarlara, işçilərə müəyyən güzəştlər ediləcəkdir. Buda gələcək də regionun respublika üzrə aparıcı məşğulluq bazasına çeviriləcəyinə inam yaradır.

### 3.3. İşğaldan azad edilmiş rayonlara qayıdış zamanı əmək bazarında və məşğulluqda baş vermiş dəyişiklərin həlli yollarına dair prespektiv istiqamətlər

1980-cı illərin axırlarında Ermənistan ordusunun Azərbaycana qarşı ərazi iddialarına başlaması nəticəsində Azərbaycan respublikasının 20 % torpaqları işğal altına düşmüşdür. 1994 cü ildə bağlanan atəşkəs razılaşmasına baxmayaraq iki ölkə arasında münaqişələr davam edirdi. Uzun müddət yerli, xarici, beynəlxalq təşkilatların səylərinə baxmayaraq iki ölkə arasında razılaşma əldə olunmamışdır. Razılaşmanın əldə olunmamasının əsas səbəbkarı kimi məhz düşmən ölkə sayılırdı. Onlar razılaşmanın əldə olunması üçün Azərbaycan Respublikasının qarşısına qanunsuz şərtlər qoymuşdur. Bunun məntiqi nəticəsi kimi torpaqlar uğrunda gedən münaqişələr yaxın keçmişə qədər davam etmişdir.

30 ilə yaxın davam edən danışıqlar prosesi nəticəsiz qalmışdır. Bunun nəticəsində Azərbaycan tərəfi doğma torpaqlarını hərb yolu ilə qaytarmağı qərara almışdır. Nəhayət müharibə 2020 ci il 27 sentyabr tarixindən başlanmışdır. Müharibənin ilk günündə elə bir neçə yüksəkliklər, kəndlər, qəsəbələr düşmən tapdağından azad olunmuşudr. Dğyüşlərin növbəti günlərində ardıcıl olaraq Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Şuşa şəhərlərini işğal etmişdir. 8 noyabrda Şuşa şəhərinin işğaldan azad olunması ilə düşmənin hərbi qüvvələrinin onurğa sütununu sındırmış oldu. Bundan 2 gün sonra yəni noyabr ayının 10- unda Ermənistan ordusu ağır məğlubiyyəti boynuna alaraq məğlub olmuşdur. Bu şanlı qələbə müqaviləsi üç ölkə arasında Rusiya, Azərbaycan, Ermənistan arasında bağlanmışdır. Müqavilənin əsas şərtlərinə əsasən İşğal altında olan ərazilər Azərbaycana qaytarılmışdır. Bununla belə, işğaldan azad olunan ərazilərə Rus sülhməramlılarıda olacaqdır. Onların əsas məqsədi azad olunan ərazilərdə sülhü təmin etməkdir.

İşğaldan azad olunan ərazilər işğal altında olarkən viran edilmişdir. Evlər, mənzillər, istehsal infrastrukturu, kənd təsərrüfatı obyektləri- anbarlar, dəyirmanlar, torpaqlar belə yandırılmışdır. Torpaqların yandırılması onların məhsuldarlığı baxımından ağır zərbədir. Çünki onların yandırılması torpaqların humus qatının

məhvinə gətirib çıxartmışdır. Onların bərpa olunması, yenidən məhsuldar torpaqlara çevirilməsi bir neçə il vaxt tələb edəcəkdir.

Azad olunmuş ərazilərə qayıdış planı ölkə qarşısında duran əsas vəzifələrdəndir. Bunun üçün bu günki günümüzdə də hazırlıq işləri aparılır. Həmçinin regionda əvvəllər mövcud olmuş meşələrin bərpası uğurla həyata keçirilir.

Azad olunmuş torpaqlara qayıdışı təmin etmək üçün orada yaşayış infrastrukturu qurulmalı, yeni yeni təhsil ocaqları, səhiyyə ocaqları yaradılmalı, həmçinin məşğulluq sferasıda güclü şəkildə inkişaf etdirilməlidir.

İşğaldan öncə region özünün kənd təsərrüfatı məhsulları ilə çox məşhur idi. Orada müxtəlif cür təsərrüfat məhsulları istehsal olunurdu. Orada taxılçılıq, baramaçılıq, üzümçülük, ət, süd, yumurta istehsalı üzrə respublikada ilk pillələrdə idi.

Region özünün faydalı qazıntıları ilə güclü şəkildə özündən söz etdirməyi bacarmışdır. Orada civə, qızıl, gümüş, mis, molibden, qurğuşun, sink, daş kömür, gəc, mişar daşı, əlvan daşlar və s. Zəngindir. Faydalı qazıntıların bolluğuna görə orada sənayenin yüngül sahəsilə yanaşı ağır sənayedə yaxşı inkişaf etmişdir. Əhalinin əksəriyyəti əmək bazarında məhz bu sahədə çalışmışdırlar. İşğalın ağır nəticələri səbəbindən regionda həmin sənaye sahələri demək olarki tamamilə məhv olmuşdur. Bu günki qayıdış planın əsasında məhz həmin sənaye sahələrinin bərpa edilməsidir. Bunun üçün aşağıdakı mərhələrdən keçmək lazımdır.

- Dağlıq Qarabağın dağıdılmış infrastrukturu yenidən bərpa edilməlidir. Bərpa prosesi əvvəlkindən daha yaxşı konsepsiyasına əsaslandırılmalıdır.

- Əraziyə yeni yeni yolların çəkilməsi vacib amildir. Buda özündə infrastrukturun bir hissəsini təşkil edir. Müasir gününmüzdə orada “Zəfər yolu” çəkilir. Bunlarla yanaşı digər rayonlara çəkiləcək yollarda gündəmdədir.

- Bildiyimiz kimi Dağlıq Qarabağ regionu faydalı qazıntılarla zəngindir. Orada yeni yeni araşdırmalar aparılarsa yeni faydalı qazıntı yataqlarının aşkar edilməsi mümkündür.

- Sənayenin bərpa prosesi yerli, xarici, beynəlxalq təcrübələrdən istifadə etmək lazımdır.

Regionda kənd təsərrüfat sahələrini inkişaf etdirmək müşkül məsələ deyildir. Dağlıq və dağ ətəyi zonalarda istər suvarma, istərsədə dəmyə əkinçiliyi üçün gözəl şərait vardır. Müstəqilliyin ilk dövürlərində dağlıq Qarabağda kənd təsərrüfatında əldə olunan təcrübələr respublikanın digər rayonlarına da transfer olunmuşdur. Hər bir regionun torpaq tipindən, havasından, suyundan asılı olaraq bu təcrübələr həyata keçirilərək inkişaf etdirilmişdir. Bu günki dövrdə orada kənd təsərrüfatının əkinçilik, heyvandarlıq formalarının inkişaf etdirilməsi gündəmdə olan məsələlərdəndir.

İşğaldan azad olunmuş rayonlara qayıdacaq insanlar üçün şəraitinin yaradılması, məsələn əhalinin yararlı torpaqlarla təmin edilməsi, iri və xırdabuynuzlu heyvanların insanlara yardım kimi verilməsi, balçılıq təsərrüfatının inkişafı üçün arıçılğın inkişaf etdirilməsi, rayonlara uyğun olaraq sənaye sahələrinin ixtisaslaşdırılması bunların hər biri regionda kənd təsərrüfatını dirçəldəcək amillərdən hesab olunur. Bunların hər birinin tətbiq edilməsi ilk öncə regionda məşğulluq bazarının inkişafın çox güclü təsirlər göstərəcəkdir, bununla yanaşı ölkəni ərzaq ehtiyyatları ilə təmin etmək dahada asanlaşacaqdır. Həmçinin gələcəkdə məhsuldarlığın intensiv inkişaf hesabına artırılması ilə, dünya bazarına ərzaq ixracını həyata keçirmək mümkün olacaqdır.

Azad olunmuş ərazilərin dirçəldilməsi prosesini dahada sürətləndirmək üçün dünya təcrübələrindən istifadə etmək məqsədəuyğun olardı. Vaxtilə müharibə alovu yaşamış Əfqanstan, İraq kimi dövlətlərin aqrar sahədə necə tez bir zamanda inkişaf etməsi göz önündə olmuşdur. Onların attıqları ilk addımlar deqradasiya olunmuş torpaqları tez bir zamanda bərpa edərək məhsuldar torpaqlara çevirmişdirlər, həmçinin su ehtiyyatlarından qənaətlə istifadə edərək səmərəliliyi təmin etmişdirlər. Bu cür davamlı məhsuldarlığın əldə olunması Azərbaycan Respublikası ərazisində də mümkündür. Nəzərə alsaq ki, Azərbaycan yuxarıda sadaladığımız iki ölkədən fərqli olaraq həm iqtisadi durumuna görə, həm beynəlxalq əlaqələrinə görə, həmdə ölkə ərazisində mövcud olan siyasi sabitliyinə görə onlardan daha öndədir.

Dağlıq Qarabağda kənd təsərrüfatının heyvandarlıq sahəsinin inkişafı üçün güclü potensial mövcuddur. Orada iri və xırdabuynuzlu heyvanların sayını artırmaqla, ailə başçılarını itirən ailələr üçün bu sahədə güzəşt proqramlarının

hazırlanması, otlaq sahələrin çoxaldılması maldarlığın inkişafına bilavasitə yaxşı təsir göstərəckdir.

Bu cür sahələrin inkişafı üçün yeniliklər, innovativ avadanlıqlar, texnologiyalar vacib amildir. Bunları axtarıb araşdırmaqla əldə etmək olacaqdır. Endirimli qiymətlərlə avadanlıqların əldə olunması, müqaviləli şəkildə istehsalın həyata keçirilməsi, müasir texnika və texnologiyalardan istifadə edərək innovativ imkanları artırmaq dövlətin diqqət mərkəzində olacaqdır.

Yuxarıda sadaladıqlarımızın hər birini ümümi şəkildə birləşdirsək regionda əmək bazarının, istehsalın inkişafı üçün aşağıdakı təklifləri sadalıya bilərik.

- Azad olunmuş rayonlarda aqrar sahənin inkişafı üçün istehsal və nəzarət agentliklərinin yaradılması
- Müxtəlif ölkələrdə əldə olunmuş intensiv aqrar, istehsal təcrübələrinin tətbiqi
- Ermənistanla sərhəd olan, qonşu olan rayonlarda, kəndlərdə bu sahədə risk cədvəlinin tərtib olunması
- Regionda kənd təsərrüfatı sahələrinin xüsusi növ sığortalarla sığortalanması
- Xüsusi olaraq regionda kənd təsərrüfatıda daxil olmaqla inkişaf fondunun yaradılması
- Azad olunmuş rayonlara investorların cəlb olunması üçün xüsusi layihələrin, proqramların hazırlanması
- Su problemi olan ərazilərdə suvarma problemlərinin intensiv şəkildə həll olunması

Yuxarıda sədalanan təkliflərin işğaldan azad olunmuş ərazilərin bərpa prosesində istifadıəoluna bilər. yuxarıda yazılanların hər biri ayrı ayrılaqda həyata keçirilərsə həm regionun məşğulluq potensialı, həmdə istehsal potensialı güclü şəkildə inkişaf edə bilər.Ərzaq təhlükəsizliyi problemin həll olunması iqtisadiyyata töhfələr verəcək, həmdə ixrac potensialının dəfələrlə artırılmasına səbəb olacaqdır.

# NƏTICƏ VƏ TƏKLIFLƏR

Aparılmış araşdırmalardan sonra tətqiqatın nəticəsi aşağıdakıları yekun şəkildə göstərə bilərik.

1. Tətqiqat işində müharibə zamanı əmək bazarında və iqtisadi sahədə baş verə biləcək dəyişiklər xarici ölkə təcrübələrində öyrənilmişdir.

2. Dissertasiya işində Azərbaycanın işğaldan öncə, işğal zamanı və işğaldan sonra əməkbazarındakı vəiyyət öyrənilərək tətqiq olunmuşdur.

3. Müasir dövrümüzdə dövlətin qarşısında duran əsas vəzifələrdən Dağlıq Qarabağı dirçəltmək, inkişaf etdirmək və oradan didərgin olunmuş qaçqın və məcburi köçkünlərin doğma yurdlarına böyük qayıdışını təmin etməkdir. Regionda işğaldan öncə bir çox sənaye sahələri inkişaf etmişdir. Hətta qeyd edə bilərik ki, həmin sənayelərdə istehsal olunan məhsul həcminə görə ölkə üzrə ilk sıralarda olmuşdur. Buraya ağır sənaye, yüngül sənaye, kənd təsərrüfatı sənayesi və həmçinin turizm sənayesi aiddir. Bu günki günümzdə Dağlıq Qarabağın dirçəldilməsi üçün bu sənaye sahələri açar rolunu oynaya bilər.

4. Regionda kənd təsərrüfatının üzümçülük, kartofçuluq, kartofçuluq sahələri daha yaxşı inkişaf etmişdir. Həmçinin ət. süd, yumurta isthesalnına görədə bu region işğaldan öncə ölkə üzrə digər ərazilərdən daha yaxşı inkişaf etmişdir. İşğal altında olarkən regionun əraziləri- meşə landşaftı, torpaq ərazilərin özü ermənilər tərəfindən yandırılaraq məhv edilmişdir. Nəticədə işğal altında olan torpaqlar güclü şəkildə zədələnmişdir. İndiki zamanda ilk öncə həmin zədələnmiş torpaqları bərpa etmək lazımdır. Daha sonra həmin torpaqları səmərəli şəkildə həmin bölgənin insanları arasında müəyyən şərtlər əsasında bölüşdürmək məqsədəuyğun olardı.

5. Dağlıq Qarabağ regionu təbii sərvətləri, faydalı qazıntı yataqları zəngin olan bir ərazidir. Orada qızıl, gümüş, civə, qurğuşun, mis, qalay, kömür, molibden və s. Kimi faydalı qazıntı yataqları vardır. İşğaldan öncə orada ağır sənayenin yaxşı inkişaf etməsi aydın məsələdir. İndiki dövrdə qayıdış planına uyğun olaraq orada həmin ağır sənaye sahələrini yenidən inkişaf etdirmək məqsəduyğun olardı.

6. Regionun turizm potensialına görə digər rayonlardan heçdə geri qalmır.

Oranın havası, meşə landşaftı, isti su bulağları hər biri ayrı ayrılıqda regiona ayrıca bir gözəllik qatır. Oranı tam bərpa etdikdən sonra orada turizm, kurort zonalarının fəaliyyətə başlaması oranın inkişafı üçün mühüm köməklik göstərə bilər. Hətta deyə bilərik ki, regionun bunun üçün çox güclü potensialı vardır. Turizm sənayesinin orada inkişaf etdirilməsi respublikanın əmək bazarına yaxşı təsirlər göstərə bilər. Çoxlu sayda yeni iş yerlərinin açılması ölkənin həm dünya miqyasında tanınmasına, həm iqtisadi bazasına, həmdə məşğulluğa yaxşı təsir göstərəcəkdir.

Yuxarıda sadaladıqlarımızın hər biri ayrı ayrılıqda tətbiq olunarsa və deyilənlərin hər biri baş tutarsa o zaman regionun həm iqtisadi yüksəlişi, həmdə əmək bazarının inkişafı pik həddə çata bilər.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


1. Allahveranov. A. Huseynov. E. Maliyyətlər və Əmək Faydaları arasındakı hərəkətlilik, AB və Şərq Tərəfdaşlığı Ölkələri Bakı 2014
2. AMEA II məqalələr toplusu, Bakı 2005.
3. Əliyev. G, Vəliyev. A, Rüstəmova. S. Azərbaycanda sosial müdafiə.
4. Əliyev. N. Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllində NATO- nun qərarlarının rolu və əhəmiyyəti.
5. Mahmudova. İ.M. M, .Mahmudov. M. Regionların sosoial-iqtisadi inkisafının tənzimlənməsi Bakı 2004
6. Məmmədov. M.Q, Rəsulov. R.F. Əmk bazarının problemləri
7. Mikayılov. F, Məmmədov. N, Quliyev. R. İşğal nəticəsində dəymiş zərərlərin qiymətləndirilməsi metodologiyaları.
8. Mehbalıyev. S, İsgəndərov. R Əmək bazarı və əhalinin sosial müdafiəsi,Bakı2002
9. Musayeva. F. Q. Bakı Dövlət Univeristeti. Məşğulluq probleminin tətqiqinin Nəzəri- Metodoloji Aspektləri
10. Xuduzadə. N Azərbaycanda layiqli əmək, əhalinin iqtisadi fəallığına dair müayinə: Əmək statistikası şöbəsi, Bakı 2014
11. Qarayev. P. M. Ermənistan- Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində BMT- nin qərarlarının hüquqi aspektləri
12. Quliyev.T.Ə. Əməyin iqtisadiyyatı. Bakı 2003
13. Rzayeva. S, Ramazanov. M. İqtisadiyyat. Bakı 2013


## Türk dilində


1. Dr. Orakçı. **S.** Afrika'nın Geleceği: Bir Nüfus Analizi 2017
2. Uçakçı. B. II.Dünya Savaşı'nın patlak verdiği gün Avrupa'daki durum.

3. Ülkelerin savaşa hazırlık planları ve savaşa yansımaları. 2019
4. Prof. Dr. Fırat. M. Ankara Sosyal Bilimler Üniveriste Batı Afrika'daki Uluslararası İlişkiler Güvenlik Sorunları Enstitüsü. Nijerya Örneği. Ankara 2017.
5. Dr. Durmuş. Mustafa. Gazi Üniversitesi, İktisat ve İşletme Fakültesi, Maliye Bölümü. Savaşlar ve işçi sınıfı

**Rus dilində**

1. Шемякина. О. Н. Рынок труда, образование и военные конфликты в Таджикистане

**İngilis dilində**

1. Beverly J. Silver. Labor market, war and world politics.
2. 26.Gibson. B, Flaherty. D. Labor market impact assessment. Revie
3. methodologies.
4. Ferraro.T. ICRC legal adviser. Occupation of foreign territories and form of government in those areas.
5. Hoffmann. S. L, Kott. S, Romijn. P, Wieviorka. O. In the wake of the war search for peace. Europe: 1943- 1947.
6. Kramer. K. Labor market, employment, economic management in wartime
7. Krishnamurty. 'Labor market and conflict' 2018.
8. Lefèvre. J. M, Steer. A. On the Assessment of Recovery Opportunities instructional methodologies.
9. Sabogal. C, Besacier. C and McGuire. D. Reforestation and landscape Restoration.
10. Wallensten. P, Staibano. C, Erikson. M - 2004 UN sanctions against Iraq
11. Woodward. 'Economic Priorities for Peace'

**İnternet resursları**

1. E- qanun.az saytı
2. https://www.ttb.org.tr/MSG/images/files/dergi/58-59/58-59.pdf
3. İDP.gov.az saytı ( Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi)
4. Ordu.az saytı
5. Geneva.mfa.gov.az saytı ( Azərbaycan Respublikasının Cenevrədəki BMT Bölməsi və digər beynəlxalq təşkilatlar yanında Daimi Nümayəndəliyi)
6. Stat.gov.az saytı (Statistika komitəsinin rəsmi saytı)
7. https://multeciler.org.tr/turkiyedeksuriyeli-sayisi-aralik-2017/

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** 2017 ci ildə Türkiyədəki suriyalı qaçqınların yaş və cins tərkibi göstəricisi ..........................................................................................................................30
**Cədvəl 2:** 1990 cı illərdə Ermənistan ordusu tərəfindən Dağlıq Qarabağda dağıdılmış müəssisələrin sayı.......................................................................................................46
**Cədvəl 3:** 1990 cı illərdə Dağlıq Qarabağda bir il ərzində istehsal olunan kənd təsərrüfatı məhsullarının həcmi........................................................................................................ 46
**Cədvəl 4:** 2005 – 2019 cu illər ərzində Yuxarı Qarabağ iqtisadi rayonunda işsizliyə görə müavinət alanların sayı........................................................................................................ 53
**Cədvəl 5:** 2005 – 2019 cu illər ərzində Kəlbəcər- Laçın iqtisadi rayonunda işsizliyə görə müavinət alanların sayı........................................................................................................ 53
**Cədvəl 6:** İşğal olunmuş bölgələrdə muzdla işləyən insanların sayı..............................................64
**Cədvəl 7:** İqtisadi rayonlar üzrə məşğul əhalinin sayı ...................................................................64
**Cədvəl 8:** Münaqişə alovu yaşıyan ixtiyari bir ölkəinin əmək bazarında və iqtisadi fazasında baş verən dəyişikliklərin qrafik təhlili.........................................................................................71
**Cədvəl 9:** 2000 – 2015 ci illər ərzində işğal olunmuş rayonlarda işsizliyinmiqdarı.....................81
**Cədvəl 10:** Yuxarı Qarabağ iqtisadi rayonunda 2010 – 2019 cu illər ərzində məşğulluğun miqdarı........................................................................................................................ 83
**Cədvəl 11:** Kəlbəcər - Laçın iqtisadi rayonunda 2010 – 2019 cu illər ərzində məşğulluğun miqdarı ..........................................................................................................................84